# Kiçik ürəklərdə böyük xatirələr

## Zəfər salnaməsinin igid övladları

Qəhrəmanlıq tarixi yazan igidlərimizin adları, xatirəsi daim qəlblərdə yaşayacaq. Onların əmanət qoyub getdiyi irslərini qorumaq və yaşatmaq isə ən ümdə borcumuzdur.

Böyük və unudulmaz xatirələri kiçik qəlblərinə sığışdıran qəhrəman övladları, hər zaman yanınızdayıq!




Azercell | GİD

# Kiçik Ürəklərdə Böyük Xatirələr

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125406

BAKI 2021

63.3(5Aze)622,8+84(5Aze)
K 66

**Tərtibatçılar**
Mustafayeva Yaqut
Məmmədova Lalə
Əmrahova Nərgiz

**Redaktor**
Mustafayeva Yaqut

**Rəyçilər**
Nərmin Rəhimli (Psixoloq)
Əzizzadə Laləndar (Psixoloq)
Əliyeva Nigar

**Korrektor**
Günel Məmmədova

**Dizayner**
Əliyev Faiq

Bu kitab 27 sentyabr 2020-ci il tarixində başlayıb 44 gün davam edərək 8 noyabr 2020-ci il tarixində Azərbaycanın böyük tarixi qələbəsi ilə başa çatan Vətən müharibəsində ən ali məqama yüksələn Vətən oğullarının Vətənə əmanət olan övladlarının qəhrəman ataları haqqında xatirələrinin toplusudur. Kitab "Azercell Telekom" və "GİD CSR Consulting" şirkətlərinin dəstəyi ilə həyata keçirilən "Kiçik Ürəklərdə Böyük Xatirələr" adlı sosial layihəsi əsasında ərsəyə gəlib. Layihənin əsas məqsədi II Qarabağ müharibəsində şəhid olan hərbçilərimizin övladları üçün art terapiya yolu ilə psixoloji təlimlər təşkil etmək, eləcə də onların qəhrəman ataları haqqında ən gözəl xatirələrinin toplanaraq əbədiləşdirilməsidir.

Bu layihədə iştirak etmək bizə həyatda güvəndikləri dağlarını itirən, amma buna rəğmən ayaqda əvvəlkindən daha güclü qalmağa çalışan uşaqların ürəklərinə toxunmağa icazə verdi.

Layihə müddətində tərəfimizdən şəhid övladları ilə istər onlayngörüşlər, istərsə də canlı qrup və ya fərdi görüşlər keçirildi. Bu görüşlər nəticəsində uşaqlar yaşadıqları psixoloji sarsıntıların öhdəsindən necə gələ biləcəklərini, ataları ilə yaşaya bilmədikləri, yarım qalan həyatlarını onların mənəvi varlıqları ilə necə doldura biləcəklərini öyrəndilər.

Kiçik bədənlərdə böyük ürəklər daşıyan uşaqlar bu layihədə bizlərə çox şey öyrətdi. Onlar inam, mənəvi güc, qəbullanabilmə bacarığı ilə bütün Azərbaycan övladlarına nümunədirlər.

**Şəhidlərimizin Ruhuna dərin hörmət və ehtiramla.**

**Allah rəhmət eləsin!**

# MÜNDƏRİCAT


Ön söz ........ 12
Yusifzadə Məhəmməd (Şəhid baş gizir Yusifov Mehman) ........ 16
Sadıqlı Uğur (Şəhid baş leytenant Sadıqlı Məmmədhəsən) ........ 19
Əhmədova Yasəmən (Şəhid mayor Əhmədov Vidadi) ........ 21
Məmmədli Ayla (Şəhid baş çavuş Məmmədov Sahib) ........ 23
İsmayılov Murad (Şəhid İsmayılov Taleh) ........ 25
Əhədzadə Ləman (Şəhid mayor Əhədzadə İlkin) ........ 29
Şikarova Zinyət ( Şəhid kapitan Şikarov Nəcəf) ........ 31
Əzizli Yusif (Şəhid baş leytenant Əzizov Elçin) ........ 33
Nurzadə Kənan (Şəhid baş leytenant Nurzadə Rövşən) ........ 35
Əlizadə Günəş (Şəhid kiçik çavuş Əliyev Araz) ........ 36
İbrahimov Abdülhəsən (Şəhid gizir İbrahimov Zamanət) ........ 37
Hacızadə Əli (Şəhid mayor Hacıyev Ramid) ........ 38
Mehdizadə Əkrəm (Şəhid baş miçman Mehdizadə Mərdan) ........ 39
Süleymanzadə Emiliya (Şəhid mayor Süleymanov Emin) ........ 40
Cavadov Aqil (Şəhid MAXE - çavuş Cavadov Yalçın) ........ 42
Əlizadə Nuray (Şəhid polkovnik-leytenant Əliyev Atəm) ........ 43
Babayeva Mələk (Şəhid mayor Babayev Rahib) ........ 44
Əzizov Məhəmməd (Şəhid baş leytenant Əzizov Elgün) ........ 46
İsmayılov Ayxan (Şəhid İsmayılov Orxan) ........ 47
İsmayılov Zöhrab (Şəhid İsmayılov Orxan) ........ 48
Qasımov Əlirza (Şəhid mayor Qasımov Abbas) ........ 49
Qasımov Hüseyn (Şəhid mayor Qasımov Abbas) ........ 50
Tağızadə Nərmin (Şəhid gizir Tağızadə Cahid) ........ 51
Tağızadə Nihad (Şəhid gizir Tağızadə Cahid) ........ 52
Rəşidova Dərya (Şəhid baş gizir Rəşidov İlham) ........ 53





Rəşidli İlhan (Şəhid baş gizir Rəşidov İlham) ........ 55
Məmmədov Tuncay (Şəhid kapitan Məmmədov Pərviz) ........ 56
Mikayılov Ağaseyid (Şəhid baş leytenant Mikayılov Ramiq) ........ 57
Həmidov Ayxan (Şəhid Həmidov Vasif) ........ 58
Zeynallı Zeynəb (Şəhid baş çavuş Zeynalov Cavid) ........ 59
Quluzadə Seymur (Şəhid Quluzadə Anar) ........ 60
Quluzadə Mələk (Şəhid Quluzadə Anar) ........ 61
Məlikli Xədicə (Şəhid mayor Məlikli Aqil) ........ 62
Mehdiyeva Ayşə (Şəhid baş çavuş Mehdiyev Surxay) ........ 63
Əsgərli Sevgi (Şəhid baş leytenant Əsgərli Tural) ........ 64
Həsənova Sevinc (Şəhid çavuş Həsənov Fariz) ........ 65
Əliyev İsmayıl (Şəhid kiçik çavuş Əliyev Abbas) ........ 68
Zeynallı Səfurə (Şəhid mayor Zeynalov Müseyib) ........ 69
Qafarov Həsən (Şəhid Qafarov Zərbəli) ........ 70
Qafarova Xalidə (Şəhid Qafarov Zərbəli) ........ 71
Mikayılov Nihat (Şəhid baş gizir Mikayılov Nahid) ........ 72
Mikayılov Nicat (Şəhid baş gizir Mikayılov Nahid) ........ 73
İsmayılzadə Ömər (Şəhid mayor İsmayılov Natiq) ........ 74
İsmayılzadə Gülər (Şəhid mayor İsmayılov Natiq) ........ 75
İsmayılzadə Behbud və Davud (Şəhid mayor İsmayılov Natiq) ........ 76
Əliyeva Xuşi (Şəhid kapitan Əliyev Fəzail) ........ 77
Məmmədli Bahar (Şəhid Məmmədov Sadiq) ........ 78
Məmmədli Əsnad (Şəhid Məmmədov Sadiq) ........ 79
Hacızadə Hicran (Şəhid mayor Hacıyev Elnur) ........ 80
Əsədov Cəmaləddin (Şəhid baş leytenant Əsədov Əsəd) ........ 81
Əsədov İslam (Şəhid baş leytenant Əsədov Əsəd) ........ 82
Xəlilova Qunca (Şəhid kapitan Xəlilov Ruhin) ........ 83
Xəlillova Melisa (Şəhid kapitan Xəlilov Ruhin) ........ 84

Pənahlı Ümid (Şəhid Pənahov Bəhrəm)........................................ 86
Pənahlı Rəsul (Şəhid Pənahov Bəhrəm) ........................................ 87
Rəhimov Əlövsət (Şəhid kiçik çavuş Rəhimov Nurlan) .................... 88
Rəhimli Səidə (Şəhid kiçik çavuş Rəhimov Nurlan)........................... 89
Alıyev Abbas (Şəhid gizir Alıyev Vahid) ............................................. 90
Rəşidli Amin (Şəhid gizir Rəşidov Tural)............................................. 91
Cəfərova Zümrüd (Şəhid gizir Cəfərov Etibar) .................................. 92
Həsənzadə Melissa (Şəhid baş çavuş Həsənov Tofiq)....................... 93
Əliyev Abbas (Şəhid Əliyev Tural)......................................................... 95
Axundzadə Zərifə (Şəhid baş gizir Axundov Mirzə) .......................... 96
Nəzərov Uğur (Şəhid Nəzərov Emin).................................................... 97
Nəzərli Nur (Şəhid Nəzərov Emin) ........................................................ 98
Vəlişova Xatirə (Şəhid çavuş Vəlişov Zahir) ........................................ 99
Ömərov Elçin (Şəhid baş gizir Ömərov Elvin) .................................... 101
Əmrahova Zərda (Şəhid baş çavuş Əmrahov Emin) ........................ 102
Quluzadə Ümid (Şəhid çavuş Quliyev Kamran).................................. 104
Ağayev Orxan (Şəhid baş gizir Ağayev Zülfü)..................................... 105
Musazadə Ülvi (Şəhid baş kəşfiyyatçı Musayev Sahib).................... 106
Hümbətli Aqşin (Şəhid kiçik çavuş Hümbətov Şahin)....................... 107
Hümbətli Aylin (Şəhid kiçik çavuş Hümbətov Şahin)......................... 107
Məmmədli Məryəm (Şəhid baş çavuş Məmmədov Sahib) ............. 109
Hüseynli Leyla (Şəhid baş gizir Hüseynli İlqar).................................... 110
Hüseynli Hüseyn (Şəhid baş gizir Hüseynli İlqar) .............................. 111
Hüseynli Həsən (Şəhid baş gizir Hüseynli İlqar) ................................. 111
Məmmədova Aylin (Şəhid mayor Məmmədov Xəyal)......................... 112
Məmmədova Selin (Şəhid mayor Məmmədov Xəyal) ......................... 112
Yusubova Ayan 5 yaş (Şəhid leytenant Yusubov Elzar) ................... 113
Qənbərova Nazlı (Şəhid Qənbərov Bilal).............................................. 114



İsmayılzadə Əsnad (Şəhid baş gizir İsmayılov Camal)...................... 115
İsmayılzadə Əsmət (Şəhid baş gizir İsmayılilov Camal) ................. 116
Abbaslı Siruz (Şəhid leytenant Abbaslı Teymur)................................ 117
Abbaslı Feyruz (Şəhid leytenant Abbaslı Teymur) ............................ 118
Meybullayev Yusif (Şəhid Novruzov Aqşin )........................................ 119
Meybullayev Nurulla (Şəhid Novruzov Aqşin)...................................... 119
Məmmədli Çimnaz (Şəhid gizir Məmmədli Rüfət) ............................. 121
Məmmədli Vidadi (Şəhid gizir Məmmədli Rüfət) ............................... 122
Cabarzadə Xalid (Şəhid Cabarzadə Cavid)........................................... 123
Sadıqova Nuray (Şəhid baş çavuş Sadıqov Ruslan)........................... 124
Nadirova Arzu (Şəhid baş çavuş Nadirov Elçin) ................................. 126
Alıyev Rəhim (Şəhid mayor Alıyev Elçin) ............................................. 128
Allahverdiyev Bəxtiyar (Şəhid baş leytenant Allahverdiyev Babək)131
Əsgərli Zəhra (Şəhid mayor Əsgərov Rüfət)........................................ 132
Məmmədsalahova Aylin (Şəhid Məmmədsalahov Kazım)............... 133
Hacıyeva Nigar (Şəhid Qərargah rəisi, kapitan Həsənov Əsəd) .... 134
Kazımlı Aydan (Şəhid baş leytenant Kazımov Kamran) ................... 136
Əliyeva Alsu (Şəhid çavuş Əliyev Timur)............................................. 137
Cəfərli Cabbar (Şəhid kapitan Cəfərli Həmid)...................................... 139
Cəfərli Hüseyn (Şəhid kapitan Cəfərli Həmid)...................................... 139
Nadirli Məryəm-Xanım (Şəhid kiçik çavuş Nadirov Samir).............. 140
Qurbanəliyeva Nəzrin (Şəhid baş gizir Qurbanəliyev Tapdıq) ...... 141
Əlizadə Salman (Şəhid Əliyev Aydın) ................................................... 142
Musibova Nilay (Şəhid kapitan Musibov Veysəl) ................................ 143
İsmayılov Xəyal (Şəhid kiçik çavuş İsmayılov Sakit)........................... 144
Pənahov Ömər (Şəhid çavuş Pənahov Elməddin) .............................. 145
Pənahov İlkin (Şəhid çavuş Pənahov Elməddin) ................................. 146
Qafarzadə Pərviz (Şəhid baş çavuş Qafarzadə Elnur) ...................... 147

Qafarzadə Gülay (Şəhid baş çavuş Qafarzadə Elnur) .......... 147
Noçuyev Uğur (Şəhid kapitan Noçuyev Surxay) .......... 148
Məmmədli Sevinc (Şəhid Məmmədov Elvin) .......... 150
Zakirova Yağmur (Şəhid baş leytenant Zakirov Elvin) .......... 151
Dursunov İsa (Şəhid kapitan Dursunov Fərid) .......... 152
İsmayılova Ləman (Şəhid baş gizir İsmayılov Vüsal) .......... 153
Əlizadə Zəhra (Şəhid mayor Əliyev Asiman) .......... 154
Əlizadə Nilay (Şəhid mayor Əliyev Asiman) .......... 156
Ağazadə Aysu (Şəhid mayor Ağayev Ramil) .......... 157
Ağazadə Zəhra (Şəhid mayor Ağayev Ramil) .......... 158
Vəliyev Nihad (Şəhid gizir Vəliyev Sehran) .......... 159
Vəliyeva Nuray (Şəhid gizir Vəliyev Sehran) .......... 160
Əkbərov Çingiz (Şəhid polkovnik-leytenant Əkbərov Orxan) .......... 161
Əkbərova Sevil (Şəhid polkovnik-leytenant Əkbərov Orxan) .......... 162
Kərimova Müşkinaz (Şəhid kiçik çavuş Kərimov Elvin) .......... 163
Kərimova Əsma (Şəhid kiçik çavuş Kərimov Elvin) .......... 163
Kərimova Zəhra (Şəhid kiçik çavuş Kərimov Elvin) .......... 163
Mikayılzadə Nuray (Şəhid mayor Mikayilov Azər) .......... 165
İslamzadə Ülviyyə (Şəhid kapitan İslamov Samir) .......... 167
İslamzadə İdris (Şəhid kapitan İslamov Samir) .......... 168
İslamzadə İslam (Şəhid kapiyan İslamov Samir) .......... 169
Allahyarlı Fatimə (Şəhid baş çavuş Allahyarov Vüsal) .......... 170
Babayeva Selcan (Şəhid baş leytenant Babayev Vüsal) .......... 171
Abdullayeva Asya (Şəhid baş gizir Abdullayev Eldar) .......... 172
Cəfərova Nərgiz (Şəhid polkovnik-leytenant Cəfərov Ramiz) .......... 173
Həsənli Səid (Şəhid mayor Həsənov Elşad) .......... 174
Sarızadə Əliəsgər (Şəhid Sarıyev Vüqar) .......... 175
Sarızadə Rüqəyya (Şəhid Sarıyev Vüqar) .......... 176



Səmədov Süleyman (Şəhid gizir Səmədov Mayis) .......... 177
Səmədova Məleykə (Şəhid gizir Səmədov Mayis) .......... 178
Paşazadə Əlizaman (Şəhid mayor Paşayev Daşdəmir) .......... 179
Paşazadə Məryəm (Şəhid mayor Paşayev Daşdəmir) .......... 180
Paşayeva Sofiya (Şəhid mayor Paşayev Daşdəmir) .......... 181
Paşazadə Zeynəb (Şəhid mayor Paşayev Daşdəmir) .......... 182
Heydərli Şəms (Şəhid mayor Heydərov Amid) .......... 183
Musayeva Arzu (Şəhid polkovnik-leytenant Musayev Sədi) .......... 184
Musayev Süleyman (Şəhid polkovnik-leytenant Musayev Sədi) .......... 185
Abdullazadə İslam
(Şəhid polkovnik-leytenant Abdullayev Rasim) .......... 186
Bayramova Səbinə (Şəhid Bayramov Osman) .......... 188
Ələkbərzadə Əkbər (Şəhid Ələkbərov Əli) .......... 189
Pənahzadə Nilay (Şəhid kapitan Pənahov Rövşən) .......... 190
Ələkbərzadə Nazlı (Şəhid Ələkbərov Əli) .......... 191
Qasımova Fatimə (Şəhid gizir Qasımov Təbriz) .......... 192
Rüstəmzadə İsmayıl (Şəhid Rüstəmov Elnur) .......... 193
Rüstəmzadə Nail (Şəhid Rüstəmov Elnur) .......... 194
Rüstəmzadə Azər (Şəhid Rüstəmov Elnur) .......... 195
Qasımzadə Murad (Şəhid baş leytenant Qasımov Şöhrət) .......... 196
Zamanov Kənan (Şəhid mayor Zamanov Sənan) .......... 197
Zamanova Fidan (Şəhid mayor Zamanov Sənan) .......... 198
Zamanova Ləman (Şəhid mayor Zamanov Sənan) .......... 199
Qasımov Ağa (Şəhid gizir Qasımov Hüseyn) .......... 200
Mustafazadə Hafiz (Şəhid Mustafayev Ramiz) .......... 201
Qənbərov Novruz (Şəhid Qənbərov Elnur) .......... 202
Qənbərova Nihan (Şəhid Qənbərov Elnur) .......... 203
Həsənzadə Hüseyn (Şəhid kiçik çavuş Həsənov Ərəstun) .......... 204

Həsənzadə Aytac (Şəhid kiçik çavuş Həsənov Ərəstun) ................ 205
Hüseynov Tahir (Şəhid rabitəçi Hüseynov Aqil) ................ 206
Əsədzadə Səid (Şəhid çavuş Əsədov Saleh) ................ 208
Əlizadə Əjdər (Şəhid Əliyev Mahir) ................ 209
Bayramlı Zeynəb (Şəhid kapitan Bayramov Vaqif) ................ 210
Məmmədzadə Mətin (Şəhid mayor Məmmədov Əlövsət) ................ 212
Rzayeva Nur (Şəhid mayor Rzayev İlkin) ................ 213
İsmayılzadə Ömər (Şəhid kapitan İsmayılov Elçin) ................ 214
Mirzəzadə Xanım (Şəhid Mirzəyev Elyar) ................ 215
Əhmədova Nur (Şəhid Əhmədov Mahmud) ................ 217
Əliyeva Duyğu (Şəhid mayor Əliyev Malik) ................ 218
Alməmmədov Əbəlfəz (Şəhid gizir Alməmmədov Emin) ................ 219
Zaməddinova Nəzrin (Şəhid gizir Zaməddinov Fərid) ................ 222
Quliyev Elnar (Şəhid çavuş Quliyev Elnur) ................ 223
Quluzadə Gülnar (Şəhid çavuş Quliyev Elnur) ................ 224
Quliyeva Elay (Şəhid Quliyev Bəhruz) ................ 225
Quluzadə Uğur (Şəhid çavuş Quliyev Vasif) ................ 226
Quluzadə Yağmur (Şəhid çavuş Quliyev Vasif) ................ 227
Abdurahmanov Əlibəy
(Şəhid polkovnik-leytenant Abdurahmanov Əfqan) ................ 228
Bərxudarlı Əli (Şəhid mayor Bərxudarlı Toğrul) ................ 230
Bərxudarlı Güllü (Şəhid mayor Bərxudarlı Toğrul) ................ 231
Ramaldanov Süleyman
(Şəhid polkovnik-leytenant Ramaldanov Babək) ................ 233
Ramaldanov Ramaldan
(Şəhid polkovnik-leytenant Ramaldanov Babək) ................ 234
Ağalarova Zəhra (Şəhid baş çavuş Ağalarov Nahid) ................ 235
Əzizli Adəm (Şəhid leytenant Əzizov Teymur) ................ 236



İslamov Aqşın (Şəhid İslamov Daşqın) ................ 237
İslamov Sinan (Şəhid İslamov Daşqın) ................ 237
Əliyeva Alina (Şəhid Əliyev Denis) ................ 238
Qafarov Pərviz (Şəhid çavuş Qafarov Elnur) ................ 239
Qafarova Gülay (Şəhid çavuş Qafarov Elnur) ................ 239
Baxşəliyev Yunus (Şəhid leytenant Baxşəliyev Natiq) ................ 240
Quliyev Elnar (Şəhid Quliyev Anar) ................ 241
Pənahlı Zəhra (Şəhid Pənahov Bəhrəm) ................ 242
Xəlilov Həsən (Şəhid gizir Xəlilov Namiq) ................ 243
Quliyeva Rüqəyya (Şəhid kapitan Quliyev Vüsal) ................ 244
Quliyev Hüseynəli (Şəhid kapitan Quliyev Vüsal) ................ 244
Hüseynova Damla (Şəhid Hüseynov Fərid) ................ 245
Orucov Ehtiram (Şəhid çavuş Orucov Elşən) ................ 246
Oruczadə İbrahim (Şəhid polkovnik-leytenant Orucov Nail) ................ 247
Orucov Ruslan (Şəhid polkovnik-leytenant Orucov Nail) ................ 248
Orucov Əlihəsən (Şəhid polkovnik leytenant Orucov Nail) ................ 251
Allahverdiyev Çingiz (Şəhid baş leytenant Allahverdiyev Babək) 253
Qasımlı Gülanə (Şəhid polkovnik-leytenantı Ramiz Qasımov) ................ 254
Mahmudov Hüseyn (Şəhid kapitan Mahmudov Emin) ................ 256
Qasımov Cəsur (Şəhid gizir Qasımov İsmayıl) ................ 257
Ağalıyev Fərid (Şəhid Ağalıyev Müzəffər) ................ 259
Məmmədova Ayan (Şəhid leytenant Məmmədov Elcan) ................ 261
Yusifzadə Fatimə (Şəhid baş gizir Yusifov Mehman) ................ 263
Salam, Göy adamı, Zəfər adamı! ................ 265

# ÖN SÖZ

Şəhidlər ...

Tariximizi vərəqlədikcə sanki biri-birini əvəz edən hadisələrin canlı şahidi olursan. Nələr yaşamayıb ki, Azərbaycan? Qanlı müharibələr, istilalar, təzyiqlər, talanmalar, xarici işğallar ... Düşünürsən, bu balaca ölkənin əsrlər boyu işğallara məruz qalmasına səbəb nə olub? Nə? Nə qədər düşünsən, yalnız bir cavabın üstündə qərar tuta bilirsən: ölkənin zənginliyi, təbiəti, yeraltı və yerüstü sərvətləri, gözəllikləri, insanlarının səmimiliyi, saflığı ...

Bəzən özünü uzaqda, başqa bir dünyada, hətta yad planetdə hiss edər insan. Ordan baxar tarixə, dünənə, bu günə, keçmişə. İzləyər hadisələri sakitcə, bəzən həyəcanla. Müharibə səhnələrini seyr etdikcə dünyadan vaxtsız köçən nakamların taleyini yaşayar insan. O nakamların ki, azad dünya onların çiyinləri üzərində qərar tutar. Bu dünyadan görünməsə də, kənardan görünər onlar, kəfənsiz və zamansız yer altına gömülənlər sənə baxar, sanki duyarsan onları, danışarsan onlarla ... Sənə deyərlər ki, laqeydliyimiz, biganəliyimiz bizi bu günə qoydu, düşmən tariximizi saxtalaşdırdı, biz bu vətən uğruna döyüşdük. Döyüşdük ki, vətən yaşasın, insanımız yaşasın. Həmin anda anlayarsan ki, tarixin qaranlıq səhifələrini aydınladan oğullar varmış, onları tapmaq, üzə çıxarmaq, yaşatmaq lazımmış ...

Utanarsan hərdən, unutduğun üçün, bilmədiyin üçün, qədirbilməzliyin üçün. Sevinərsən həm də, onların varlığı üçün, onlarla eyni Vətəni bölüşdüyün üçün. Düşünərsən: "Heç olmasa, bundan sonra düzəldək səhvlərimizi, yaşadaq onları, onlardan qalan mirasları ... "



Müdriklər deyir ki: "Keçmiş ölümündür, gələcək isə sənin!" Düzdür, biz qaranlıq keçmişimizi düzəldə bilməyəcəyik, bu mümkün olmayacaq, lakin artıq heç nə əvvəlki kimi ola bilməz, buna imkan verilməyəcək!

Keçən 2020-ci ilin sentyabrın 27-də başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi xalqımızın tarixinə qızıl hərflərlə həkk oldu. Bu müharibə ilə oğullarımız şanlı tarix yazdılar. Bu 44 gündə illərin ağrı-acısını, əzabını, işgəncəsini unutdurdu oğullarımız. Böyük bir utancımızı – məğlub xalq damğasını götürdülər üstümüzdən, bizi QALİB XALQ etdi igidlərimiz. Ona görə qürurluyuq, o üzdən vüqarlıyıq və fəxr edirik ordumuzla! Lakin bu müharibə itkilərsiz ötüşmədi. 3000-ə yaxın oğul itirdik bu ölüm-dirim savaşında.

Əslində, biz ŞƏHİD sözünün əsl anlamını bəlkə də bu günlərdə tam mənası ilə başa düşdük. Onlara olan yüksək münasibət, şəhid ailələrinə göstərilən təmənnasız qayğı bizi düşündürdü və bir daha anladıq ki, onlar ən ali məqama yüksələn igidlərdir. Onlar bizi biz edən oğullardır, onlar bu gün alnıaçıq, üzüağ gəzə bilməyimizin səbəbkarlarıdır. Onlar o oğullardır ki, Vətənin dar günündə heç düşünmədən, geriyə baxmadan irəli atıldılar, özlərini fəda etdilər, "Vətən yaşasın!" dedilər, ölümün gözünə dik baxdılar, yadları Vətəndən qovdular.

Xalq da onları sevdi, bağrına basdı, yaşatdı. Ana torpaq qoynuna aldı bu igidləri. Şəhidlərimizin çoxu subay olsa da, ailəli olanlar, körpəsi olanlar da oldu.

Bu körpələrin taleyinə bir yazı yazıldı: ŞƏHİD ÖVLADI! Atasız dünyaya gəlməyin, atasız böyüməyin nə demək olduğunu çoxumuz anlamaya bilərik. Lakin bu kitab ...

Əslində, bu kitabın müəllifi elə onlardır. Şəhid övladları! Onların ataları haqqında düşüncələri, xatirələri, ürək sözləri

... Axı bu balacaların hardan ağlına gələ bilərdi ki, atalarını nağıllardakı kimi görəcəklər, onun göydə olduğunu zənn edəcəklər, bir mələyə çevrildiyinə inanacaqlar! Demək, qədərdə, qismətdə bu da varmış! Bu uşaqların körpə taleyinə bir atasızlıq yazılıbmış, ataları ilə bağlı bir xəyal qurmaq həkk olunubmuş ...

Kitabın yazılması bir ideya kimi ortaya çıxanda hər kəs ona bir töhfə vermək istədi, hərə bir təklif irəli sürdü. Əslində, çox çətin idi Azərbaycanın müxtəlif bölgələrində yaşayan şəhid ailələrini tapmaq, onların övladları ilə əlaqə saxlamaq, ataları barədə xatirələrini dinləmək, onları bir araya gətirmək ...

Lakin biz bunu bacardıq!

Dəyərli oxucu! Əgər biz bunu bacardıqsa, az da olsa, şəhid ailələrinin dərdinə dərman ola bildiksə, körpə ürəklərin arzularını qələmə ala bildiksə, onların yanan qəlblərini az-çox ovuda bildiksə, nə xoş bizə!

Əziz oxucu! Bizlə birgə bu körpə uşaqlarla tanış olmağa, onların ürək sözlərini dinləməyə hazır ol ...

Dinlə onları, bu körpə qəlbləri dinlə! Dinlə və düşün. Düşün ki, onlar sənə əmanətdir! Bu əmanəti göz bəbəyin kimi qorumaq sənin ən əsas və müqəddəs borcundur!

Yaqut Mustafayeva
Əməkdar müəllim, Qabaqcıl Təhsil işçisi.





# Yusifzadə Məhəmməd
## (Şəhid baş gizir Yusifov Mehman)

## 11 yaş

Mən atam üçün çox darıxıram. Atam həmişə bizi sevindirirdi, biz nəsə istəyəndə atam işdən gələnə yaxın ona səs atırdıq, o da gələndə alırdı. Həftə sonu bizi gəzməyə aparırdı, parka gedirdik, çoxlu əyləncəli maşınlar, oyunlar olan yerlərə gedirdik.

Atamı mən indi də çox sevirəm, bilirəm ki, o da məni çox istəyir. Mən onu indi görə bilməsəm də, o məni görür. Yadıma gəlir, mən 2-ci sinifdə oxuyanda atam mənə riyaziyyat misallarını həll etməkdə kömək edirdi. Mən bir az gec öyrənirdim, o mənə dəfələrlə izah edirdi. Ürəyim nə istəsə, atama deməyim kifayət idi. Gecə də olsa, atam onu tapıb, alıb gətirərdi. Mən balaca olanda atama demişdim ki, mənə velosiped alsın. Atam mənə bir dənə göy velosiped almışdı. Sonra mən 3-cü sinifdə oxuyanda atam mənə yeni - yaşıl bir velosiped aldı.

İndi mənə hamı hər şey alır. Çoxlu oyuncaqlar, kitablar, paltarlar. Mən onların heç birini istəmirəm, onlar özləri alırlar. Amma ən sevdiyim şeylər belə atamın aldığı kiçik bir şey qədər sevindirmir məni ... Atam evə gələndə biz qaça-qaça onun yanına gedirdik ki, atam gəldi. Amma indi...

Biz keçən il atamı çox az gördük. Atam evə çox gec-gec gəlirdi. Əvvəlcə korona başladı. Atam onda işdə qalırdı. Mən o vaxt həyətə gedib oynamaq istəyirdim,



F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
INV. № 125406

amma anam qoymurdu. Ağlayırdım, sonra atam zəng etdi, dedi: "Məhəmməd, həyətə düşmək olmaz, maskasız məktəb həyətinə getmək olmaz, polislər səni tutarlar". Atam məni başa saldı, sonra daha ağlamadım. "Sən niyə gəlmirsən bəs, - ata?" - dedim, Dedi ki, işlərini bitirib gələcək. Amma atamın işləri elə çox olurdu ki, yayda da evə çox az gəlirdi. Evə gəlməyəndə telefonla danışırdıq atamla. Bir dəfə atamla görüntülü danışırdıq, atamın üzü tüklənmişdi, çox tüklənmişdi. Əynində hərbi paltarı yox idi heç, başqa bir paltar vardı. Mən dedim: "Aaa, ata, üzün tüklənib". Sonra o kameranı çevirdi, yanında çoxlu qoyunlar vardı. Dedi: "Məhəmməd, qoyun otarıram". Ondan bir neçə gün sonra atam evə gəldi, üzü yenə tüklü idi. Süleyman atamı tanımadı heç, amma mən tanıdım. Qucaqladım atamı.

Sonra sentyabrda atam 2 gün evə gəldi. Biz səhər qalxanda gördük ki, atam gedib, həmin gecə də evə gəlmədi, sonrakı günlərdə də gəlmədi. Biz telefonla danışırdıq atamla. Bir Oktyabrın 3-də bizim qonşumuzun oğlu Ruslan şəhid olmuşdu. Anam ora getmişdi, amma telefonu evdə idi. Atam zəng etdi. Fatimə, Süleyman, mən- üçümüz də danışdıq atamla. Dedim: "Ata, necəsən, nə vaxt gələcəksən?" Dedi: "Yaxşıyam, Məhəmməd, işlərim bitsin, gələcəyəm". Sonra bir də atamla danışmadım.

Bir gecə oyandıq, gördük ki, evdə çoxlu səs-küy var. Anam ağlayırdı. Qonşular, atamın dostları da bizə gəldi. Mən bilmədim ki, nə olub. Bizi qonşuya apardılar. Sonra da kəndə getdik. Biz bir neçə gün kənddə qaldıq. Son-

ra mən telefonda bir video gördüm. Kimsə atamın şəklini əlində aparırdı. Sonra başa düşdüm ki, atam şəhid olub... Mən atamın məzarına getdim. Dedim: "Ata, mən səndən ötrü çox darıxmışam ..."

Mən atamı heç yuxumda görmürdüm. Sonra bir gün Zəkiyyə bacıma dedim: "Mən atamı heç yuxumda görmürəm". Zəkiyyə bacım dedi: "ALLAHA de, o göstərəcək". Biz Zəkiyyə bacımla dua edib yatdıq, amma yenə yuxuma gəlmədi atam. Sonra yenə dua elədim, hər gün ALLAHA deyirdim ki, qoy atamı yuxumda görüm. Axır ki, iki həftə bundan əvvəl atamı yuxumda gördüm. Gördüm ki, atam gəlib. Qaçıb atamı qucaqladım. Dedim: "Ata, niyə gəlmirdin? Ata, gəl, sənə bir şey göstərəcəm". Atamın əlindən tutub apardım. Onu öz məzarının yanına apardım. Sonra yuxudan oyandım. Atam şəhid olandan sonra onu bircə dəfə yuxumda görmüşəm ...

Mən atam üçün çox darıxıram. Mən atamı həmişə çox istəyəcəm, həmişə. Mən bilirəm ki, atam qəhrəmandır və həmişə də mənim QƏHRƏMANIM olacaq.



# Sadıqlı Uğur
## (Şəhid baş leytenant Sadıqlı Məmmədhəsən) 6 yaş

Mən divarlardan, anamla getdiyimiz çoxlu kitabları olan binanın divarından, digər çoxlu yerlərdən şəkilləri asılmış qəhrəmanlardan birinin oğluyam, o qəhrəmanlardan ki, Vətənimin xəritəsində də adları əbədi yazılıb. Mən onlardan birinin - Sadıqlı Məmmədhəsənin oğlu, onun Uğuruyam...

Atam mənim qəhrəmanımdı. Mən anamın balasıyam, müəlliməmin ağıllısıyam, dostumun dostuyam, amma atamın Uğuruyam. Anam həmişə atam kimi inadlı olduğumu deyir. Çünki bir dəfə anamdan soruşdum ki: "Atam niyə məni həmişə" Uğurum" deyə çağırır?" O da dedi ki, atam heç kimi dinləməyib özü mənim adımı qoyub, onun tək Uğuru olduğumu deyib. Mən oyunda qazananda, "skutur" sürməyi bacaranda, qol vuranda buludlara, ən yüksəyə baxıram, bilirəm ki, anamın hər gecə şəklini qucaqlayıb ağladığı qəhrəmanımız mənə ordan baxır...

Atamla çox oyun oynayırdıq. Güləşməyi, qorxmamağımı, sona qədər çalışmağı mənə deyirdi. İşdən yorğun gəlsə də, biz futbol oynayırdıq, yayda ən sevdiyim dondurmanı yeməyə gedirdik. Mən ingilis dilində saya bilirəm, həm də rəngləri bilirəm, çünki atam mənə öyrətmişdi. Həyətdə bir dəfə uşaqlarla "Ən sürətli kim qaçacaq?" yarışı edirdik, atamın dostlarından biri atama dedi: "Uşağın da sənin kimidi, hər yerdə birinci olur". Atam yaxşı güləşirdi, qaça bilirdi. Bizim evimizdə çoxlu medallar var. Bəlkə, mənim də atamdakı

kimi medallarım olar. Atam çox güclü idi, böyük qolları var idi, amma mən həmişə ona qalib gəlirdim. Atam çox sevinirdi. Hələ də başa düşmürəm, axı mən dostlarımı udanda onlar üzülürlər, niyə mənim qəhrəmanım çox sevinib mənə sarılırdı?

Atamın şəhid olduğunu deyirdilər. Çoxlu adamlar var idi həyətdə. "Şəhidlər ölməz, Vətən bölünməz!" deyirdilər, o gün anamdan soruşdum: "Şəhidlər ölmürsə, atam onda qayıdacaq, hə?" Anam isə sadəcə ağladı.. Atam mənim qəhrəmanımdı və o buludlardadı. O gündən sonra tez-tez parka gedib yüksəyə tullanmağı öyrənməyə çalışıram. İstəyirəm ki, lap yüksəkliyə-buludlara qədər tullanmağı bacarım ...

Atam mənə: "İşdə olanda yanında olmasam da, səni izləyirəm, görürəm", - deyirdi, çünki məni çox sevirdi. Mən də indi çalışıram, yeməyimin hamısını yeyim ki, anamı incitməyim, yoxsa atam da, anam da üzülər.

İstəyirəm, heç kim bir-birini incitməsin ki, sizi və bizi çox sevdiyi üçün qoruyan zaman şəhid olub gedən atam da üzülməsin.



# Əhmədova Yasəmən
## (Şəhid mayor Əhmədov Vidadi)

11 yaş

Mənim adımı atam qoyub, deyib ki: "Qızım yasəmənlər açanda dünyaya gəlib, adı Yasəmən olsun". Bacımın da adını atam qoyub: "Gül"

Yasəmən və Gül ...

Atam bizi "Güllərim" deyə çağırardı...

Atamla xatirələrim çoxdu, biz hərbçi ailəsi olduğumuza görə mən 6 yaşıma qədər ad günümü hər il başqa evlərdə keçirmişəm (kirayə qaldığımıza görə). 5 yaşım heç yadımdan çıxmaz, biz Tərtərdə idik, anamla gecə top, güllə səsinə oyandıq, atam evdə yox idi, demə Aprel döyüşləri başlayıbmış ...

Sonra atam 20 il qüsursuz xidmətə görə öz arzusu ilə ehtiyata buraxıldı, biz öz rayonumuza - Salyana qayıtdıq, burda bacım dünyaya gəldi, mən məktəbə başladım. İndi artıq atamla daha çox vaxt keçirirdik. Məktəbə atam aparar, atam gətirərdi, bəzən dərsdən çıxıb onun iş yerinə gedərdim, evə birgə gələrdik, mən əla qiymət aldığımı dəyəndə o qədər sevinərdi ki, elə bil "5"-i özü almışdı... 2020-ci ilin yayını o qədər gözəl keçirdik ki ... O vaxt heç ağlımıza da gəlməzdi ki, bu bizim atamla keçirdiyimiz son yayımızdır ...

Bir şeyə çox darıxıram ki, mənimlə atamın xatirələri çoxdur, Gülün isə çox azdır, artıq atamızla olan xatirələrimizi ona mən danışacam.

Atam bizim üçün hər zaman hər şeyin ən yaxşısını edərdi, mənə həmişə məsləhət verəndə deyirdi ki, "Nə olursan ol, ən yaxşısı ol, həmişə!"

Atam şəhid olandan sonra onu yuxularımda görürəm, həmişə mənim nailiyyətlərimi gördüyünü deyir, "Afərin" deməyi elə bil mənə güc verir, mən çalışıram ki, yeni nailiyyətlərlə atamı sevindirim, yenə atam yuxuma gəlsin!



# Məmmədli Ayla

## (Şəhid baş çavuş Məmmədov Sahib)

9 yaş

Mənim adım Ayladır, 9 yaşım var. Hər fürsətdə atama sürpriz səhər yeməyi hazırlamağı çox sevirdim. Hətta mən atama ona qarşı olan sevgimi bildirən məktublar hazırlayıb verirdim. O isə həmişə gözlərinin içi gülərək oxuyub qurtardıqdan sonra, başıma sığal çəkib, öpüb, qucaqlayırdı. O, xüsusi təyinatlı olduğu üçün tez-tez təlimlərdə olurdu. Buna görə də bizimlə evdə çoxlu vaxt keçirə bilmirdi. Amma evdə olduğu vaxtlarda bizimlə doya-doya zaman keçirirdi. Məsələn, evdə gizlənqaç oynayardıq, sonra bizi parka gəzməyə aparırdı, ailəvi piknik edirdik. Nə qədər yorğun olsa da, yenə də dərslərimlə məşğul olurdu. Xüsusilə də riyaziyyatdan kömək edirdi. Atam həmişə bizə deyirdi ki, "ağıllı, düzgün qızlarım olun". O həmişə evə gələndə hamımız sevinib, qapıya tərəf qaçır, onun boynuna tullanıb, qucaqlayardıq. Yeməyini yeyəndən sonra ailəvi film izləyirdik. İşinə görə evdə çox olmasa da, evdə olduğu müddətdə keçirdiyimiz az, amma doya-doya deyib - güldüyümüz, oynadığımız vaxtlarımız üçün çox darıxıram. Üzülürəm ki, daha atamın boynunu qucaqlaya bilməyəcəm, ona sürpriz səhər yeməyi hazırlaya bilməyəcəm. Daha o mənim məktublarımı oxuduqdan sonra məni qucaqlayıb, başıma sığal çəkməyəcək. Amma bir şeyi də çox gözəl bilirəm ki, onun ruhu həmişə yanımızdadı, mən bunu hiss edə bilirəm. Ağlımdan keçirdiyim vaxt yuxularıma gəlir. Atamsız keçirəcəyimi düşündü-

yüm ilk 8 Martda o mənim yuxuma girdi. Hər il hədiyyəsiz qoymadığı kimi, bu il də belə hədiyyə edib sevindirdi məni.

O bizi, vətənini qoruduğu kimi indi də qoruyur. Əvvəllər ancaq mən atamı tanıyıb, fəxr edirdim. İndi isə bütün Azərbaycan onu tanıyıb, fəxr edir. Balaca bacım Rübabə atam şəhid olanda yaşyarımlıq idi. İndi isə 2 yaşı var. O, atamı çox az xatırlayır balaca olduğu üçün. Amma kim ondan: "Bunu sənə kim alıb?" - deyə soruşanda o fəxrlə: "Atam alıb!" - deyir.

Atamla olan şəkil, videolara baxanda telefonun ekranını öpür. Gələcəkdə Rübabə atamı onun qəhrəmanlığı haqqında yazılan kitablardan, onun igidliyinə şahid olan döyüş yoldaşlarının dilindən tanıyacaq. O da bizim kimi atamızla fəxr edərək, danışacaq. İndi isə mən və bacılarım, atam bizə sağlığında verdiyi bütün nəsihətləri yerinə yetiririk.

O ən çox dərslərimizi yaxşı oxumağımızı istəyirdi. Mən də ona verdiyim sözü tutub, dərslərimi yaxşı oxuyuram. Çünki atam biz rahat yaşayaq deyə qəhrəmancasına vuruşub, şəhid oldu. Biz də onun azad etdiyi torpaqlarda adına layiq yaşamağa söz vermişik. Mən düşmənin gözünün içinə baxıb, qorxmadan vuruşan, torpaqların alınmasında adı çəkilən atamın - baş çavuş Sahib Məmmədovun qızı olduğum üçün fəxr edirəm! Mən atamla qürur duyuram!



# İsmayılov Murad
## (Şəhid İsmayılov Taleh)

11 yaş

Mənim atam dünyanın ən yaxşı, ən sevimli atası idi. O məni, qardaşlarımı, ailəmizi çox sevirdi və biz də onu çox sevirdik. Atam çox ailəcanlı və vətənpərvər idi.

Mənim atamla bağlı xatirələrim çoxdu. Atam həmişə vaxt tapan kimi evə gəlir, boş vaxtlarını bizimlə keçirir, bizim arzularımızı və istəklərimizi yerinə yetirirdi. Qardaşlarım həmişə körpə olanda atam hara getsə, məni özüylə aparırdı. Atam hara getsə, hər işdən gələndə mütləq mənim üçün hədiyyə, surpriz nəsə alırdı, həmişə bizi sevindirirdi.

Yadımdadı, mənə ilk dəfə velosiped alan gün mən çox sevincliydim, atam da sevinirdi, o həvəslə mənə sürməyi öyrətdi. Həmişə deyirdi: "Mərd olun, güclü olun və düzgün olun. Ailəmizdə yalan olmasın". Nəsə səhvim olanda, bunu anama dəməyə çəkinəndə atam deyirdi: "Mən oğluma güvənirəm, o mənə heç vaxt yalan danışmaz". Mən atamın bu sözündən utanıb tez düzünü danışardım.

Xatırlayıram, ilk bağçaya getdiyim günü, məktəbə getdiyim günü hər dəfə atam məndən daha çox həyəcanlı, həvəsli olurdu. Əlimdən tutub özü apardı ilk gün məni məktəbə və dedi ki: "Arzum budu, ali məktəbə qəbul olasan, hər zaman fəxrimiz olasan".

1-ci sinifdə oxuyurdum, bir dəfə dedim: "Ata, uşaqların atası hər gün dalıycan gəlir, mən də istəyirəm, sən də hər dəfə gələsən". Atam dərindən ah çəkdi, dedi: "Oğlum, bax onların atası evdə olur, imkanları olur, gələ bilirlər, amma

mən Vətəni qoruyuram, mən ordan çıxıb səni məktəbə aparsam hər gün, bəs Vətənimizi, bütün usaqları kim qoruyar? Mən həm sizə aidəm, həm də Vətənə". Bunun üstündən 1 həftə keçmişdi, atam məzuniyyət götürdü, səhər evdə idi. Mən məktəbə gedəndə əlimdən tutdu, apardı sinfə qoydu, yanımda partada oturdu və dedi: "Daha nə istəyirsən, oğlum?" Mən çox sevindim, atam mənim sinfimdə, partada yanımda oturmuşdu ...

Atam bizim üçün hər şeyin artığını edirdi ki, heç vaxt nədənsə ötrü kiməsə həsəd aparmayaq. Mən onu illər keçdikcə başa düşdüm. Evdə olmadığı vaxtların əvəzini evdə olanda çıxırdı. Hər dəqiqə, hər saatı bizim arzularımızı, istəklərimizi yerinə yetirməsi bunun sübutu idi.

Atam qardaşlarımdan fərqli olaraq, mənə çox vaxt dostu kimi yanaşırdı. Həmişə nəsə səhvim olsa, anama deyirdi: "Çıx otaqdan, oğlumla ikimiz danışarıq". O bu sözləri ilə mənə güvəndiyini göstərirdi, öyüd, nəsihətli uzun söhbət edirdik. Həmişə də deyirdi: "Mənim əsas məqsədim sizin oxuyub ali savadlı xoşbəxt övlad kimi böyümənizdi". Anamla da söhbətlərində hər zaman deyərdi: "Biz elə övlad böyütməliyik ki, valideyn kimi övladlarımız hər zaman bizdən razı olsunlar. İndi çətinliklərimiz olsa da, vaxt gələr, övladlarımızın xoş günlərinə baxıb sevinərik". Atam deyirdi: "Siz 3 qardaş oxuyarsınız, özünüzün işiniz olar və mən evdə oturaram, görərəm oğlanlarım gəldi, "Atacan, necəsən?", - deyib bizimlə görüşdü. Həmin anların xəyalını qururdu. Üzündə gülüş, sevinc olurdu atamın. Məni polis kimi görmək istəyirdi və biz razılaşmışdıq. Həmişə deyirdi: "Muradım polis olacaq". Mən də atama söz verdim ki, polis olacam. Bundan sonra da çalışacam ki, atamın arzusunu həyata keçirim, onun arzuladığı kimi olum. Məni atam iyunun 21-i liseyə imtahana



apardı, özü də qapıda həyəcanla məni gözlədi. Çıxanda qabağıma gəldi, dedi: "Murad, sənə güvənirəm də, qəbul olacaqsan" və mən qəbul oldum. Atam çox sevindi. Dostları ilə müharibə vaxtı danışanda orda: "Muradım liseydə oxuyur, arzumu həyata keçirdi, bircə ali məktəbə də qəbul olsun, lap çox sevinəcəm", - deyib.

Atam maşın sürəndə: "Mənim də arzumdu maşın sürüm", - deyə bildirmişdim. O da: "Vaxtı çatanda öyrədərəm", - demişdi, amma bu yay evdə olan vaxtında dedi: "Gəl, ata sənə maşın sürməyi öyrətsin". Anam dedi: "Axı o uşaqdı hələ, illər var qabaqda, öyrədərsən". Atam isə razılaşmadı və mənə maşın sürməyi öyrətdi. Maşınını çox sevirdi, hər dəfə maşını ilə məşğul olanda məni də çağırırdı yanına ki, baxıb öyrənim.

Bir gün evə gələndə atam bayrağımızı gətirdi və onu mənə verdi. Mən bayrağı açıb əlimdə dalğalandırdım. Atam dedi: "Torpaqlarımız işğaldan azad olar, bu bayraqla gedərik, dağlarda gəzərik və bu bayrağı orda sevinclə dalğalandırarıq". Atamla köməkləşib bayrağı otağımızda asdıq. Dedi ki: "Ürəyimə damıb, bizim bu evdə axırıncı yayımızdı, gələn yay torpaqlarımızı işğaldan azad edərik və biz oralara gedərik, orda xidmət edərəm". Atam çox arzulayırdı ki, torpaqlarımız işğaldan azad olsun, gələcək nəsillər müharibə görməsin.

Atam deyirdi: "Bir gün ola bilər ki, mən şəhid olum, evdə böyük qardaş sənsən, qardaşların, anan sənə əmanətdir. Hər zaman başı dik gəzərsiniz. Mənimlə fəxr edərsiniz. Bilin ki, mən hər zaman sizə güvənirəm, arzuladığım kimi oğul olarsız".

27 sentyabr Vətən müharibəsi başlandığını eşitdik, biz çox narahat olurduq, hərbçilərimiz üçün, atamız üçün dua

edirdik. Tv-də tez-tez xəbərləri izləyirdik. Prezidentimiz bəyanat verəndə işğaldan azad olunan kəndlərin, rayonların adını səbirsizliklə gözləyirdik və hər dəfə yeni adlar eşidib çox sevinirdik. Atamı yığırdıq, təbrik edirdik ki, torpaqları azad edirsiz. Mənə atam telefon işlətməyə icazə vermirdi. Bir telefon almışdı mənə, anama tapşırmışdı ki, nə zaman icazə versəm, Murad o telefonu işlədər. Müharibə vaxtı oktyabrın 15-i atam anamla telefonda danışdı. Biz də danışdıq, sonra anama tapşırdı ki, mənim telefonumu versin. Anam da, mən də təəccüb etdik. Anam telefonu mənə verdi, mən ilk atamın nömrəsini qeyd etdim və atama zəng vurub onunla danışdım.

Atam şəhid olandan sonra bir gün anamla bu telefon söhbətin xatırladıq və mən başa düşdüm ki, atam yenə həmişəki kimi istəmədi mən kiməsə həsəd aparım, sonra daha atamdan mənə heç vaxt zəng gəlmədi ...

Mənə ilk zəng atamdan gəldi, telefonumda ilk ad da, ilk zəng də atamla bağlı oldu. Atam bilirdi, hiss edirdi ki, bu yol onu şəhadətə aparır və orda da yenə bizim arzularımızı, bizim istəklərimizi düşündü.

Mən hər zaman atamla fəxr etmişəm və edəcəm. Atamız hər zaman bizimlədi, o bizə verdiyi bütün sözlərini tutdu. Torpaqlarımızı azad etdi, şəhidlik kimi uca, şərəfli zirvəyə ucaldı. Kaş ki qələbə sevincimizi də birlikdə atamla yaşaya biləydik ...



# Əhədzadə Ləman

## (Şəhid mayor Əhədzadə İlkin)

9 yaş

Kiçik bir ürəyim olsa da, böyük xatirələr içində yaşayan bir qəhrəmanın qızıyam. Mənim 9 yaşım var, Bakı şəhərində anadan olmuşam.

İnsanları həyatda yaşadan gözəl xatirələrdir. Mənim də ürəyimdə, düşüncələrimdə yaşayan gözəl xatirələrim var. O xatirələr ki, atamla bağlıdır. Mən bir igidin, bir qəhrəmanın qızıyam. Atam Vətən müharibəsində iştirak etmiş, Kəlbəcər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu.

O gündən elə bil qollarım qırıldı, ümidlərim, arzularım yox oldu. Mənim atam çox mehriban, gülərüz, canını bizə qurban edən bir ata idi. Bilsəniz, mən onun yoxluğunu necə hiss edirəm ... Düzdü, biz onu gec-gec görürdük. Amma o evə gələndə bizim evdə toy-bayram olurdu. O, evə gələn kimi bizi parka, təbiət qoynuna aparardı, Demək olar, Vətənimizin hər yerini, hər rayonunu onunla birgə gəzmişdik. Çox heyif o günlərə.

Atamız bizim nazımızı elə çəkirdi ki, həmişə bacımla mənə "nazım", "anam" deyərdi. Mən fəxr edirəm, belə bir qəhrəmanın qızıyam. Atamdan mənə yadigar qalan onun doğma səsi hələ də qulaqlarımdan getmir. Sonuncu dəfə doğum günümdə o mənə bir gəlincik almişdi. Mən onu elə qoruyub saxlayıram ki, göz bəbəyim kimi.

Aylar keçsə də, illər keçsə də, mən onu unutmayacağam. Onun gülüşü, onun zarafatları heç vaxt xatirimdən çıxmayacaq.

Canım atam, biz sənin ruhun qarşısında baş əyirik. Sənin arzuladığın övlad olacağıq. Oxuyacağıq, xoşbəxt olacağıq. Amma bir sən olmayacaqsan. Ona da dözərik, bilirik ki, biz gec-tez cənnətdə görüşəcəyik. Ruhun şad olsun, mənim qəhrəman atam.





# Şikarova Zinyət

## (Şəhid kapitan Şikarov Nəcəf)

9 yaş

Mən Şikarova Zinyət Nəcəf qızıyam. Doqquz yaşım var və 3-cü sinfi bitirdim. Atam ilə keçirdiyim və heç vaxt unuda bilməyəcəyim xoş xatirələri sizin ilə paylaşmaq istəyirəm.

Atamı çox istəməyimə baxmayaraq, ona olan hissimi tam şəkildə biruzə verə bilmirdim, çünki evin böyük qızı olduğum üçün özümü böyük hesab edirdim. İlk övladı olduğum üçün atam mənə öz anasının adını qoyub və həmişə "Anam" - deyə məni əzizləyərdi. O anda necə sevinirdim, təsəvvür edə bilməzsiniz. O an mənə dünyalar bağışlanmış olurdu. İndi o səs üçün o qədər darıxıram ki... Kaş yenə mənə "Anam" deyəydi.

Atamın vətən keşiyindən dönməsini səbirsizliklə gözləyirdik. O gələndə yenə boynuna sarılıb, onun heç vaxt burnumun ucundan getməyən qoxusunu bir daha içimə çəkmək istərdim. O nə qədər yorğun da olsa, övladlarının yanında daim təbəssüm etməyi özünə borc bilirdi. O deyərdi ki: "Mənim yorğunluğum sizə sarılanda keçib gedir". Ən sevdiyim an isə onun bizi boynuna alıb şkafın üstünə baxdırması idi. O zaman özümü dünyanın ən yüksək zirvəsində və ən güvənli yerində hiss edərdim.

Nə vaxt pis olsam, özümü atamın qolları arasında tapardım. Onun o iki qolunun arası mənə cənnət kimi böyük gəlirdi, o hər zaman mənim həkimim olurdu və mənə deyirdi ki: "Mənim xəstələrim yanımdan gülə-gülə çıxmalıdır". O, istəyinə qovuşana kimi mənim hər arzumu yerinə yetirir-

di. Mənə cürbəcür kuklalar, oyuncaqlar alırdı. Ondan mənə xatirə qalanlar da elə bunlardır. Atam Vətən sevgisini ailə sevgisindən üstün tutaraq şərəfli məqama yüksəldi. O getdiyi gün dərk etdim ki, sonuncu aldığım qoxunu bir daha ala bilməyəcəm, iki qolunun arasındakı o isti nəfəsini, o gözəl avazını bir daha duya bilməyəcəm. Amma atam bizi Vətənə bağlı övladlar kimi yetişdirdiyi üçün mən şəhidliyin nə olduğunu dərk edirdim. Ona görə də üzülmürəm. Hər yerdə də fəxrlə onun adını çəkir, onun qızı olduğumu söyləyirəm. Çünki o təkcə mənim qəlbimdə yaşayan qəhrəman deyil, 10 milyonun qəlbində yaşayan qəhrəmandır.

Artıq mənim nağılların super qəhrəmanlarını görməyə ehtiyacım yoxdur. Nə vaxt istəsəm, atamın məzarına gedirəm. Atamın son arzusu məni ağ xalatda görmək idi. O mənə: "Sən həkim olub bizim qurtarıcımız olacaqsan" - demişdi, bu da son arzusu idi. O mənə anamı, bacımı əmanət edib getdi, çünki onun böyük qızı mən idim. Mən onun qoxusuna tam doya bilməsəm də, xatirələrinə sarıla bildiyim üçün və şəhid övladı olduğum üçün özümü xoşbəxt hiss edirəm.



# Əzizli Yusif
## (Şəhid baş leytenant Əzizov Elçin) 10 yaş

Atamla münasibətim çox yaxşı idi. Atam mənə səmimi və mehriban davranırdı. O dünyanın ən yaxşı atası idi. Mən onu canımdan çox istəyirdim. O mənə istədiyim hər şeyi alırdı, istədiyim hər yerə aparırdı. Mən onu, o da məni çox istəyirdi. Mən atamla bir çox hərbi bayramlara, paradlara getmişdim. Onunla çox xəyallarımız var idi. Hamısı yarım qaldı. Onun tək xəyalı bu idi ki, gəlib bizi Cəbrayılın Böyük Mərcanlı kəndinə aparsın.

Atamdan mənə qalan 3 şey var:

1) Anam, bacım, qardaşım;

2) Atamın ən sevdiyi babamın şeirini ona demək;

3) Sinəyə taxılan Heydər Əliyev döş nişanı.

Mənim ürəyim bir dəfə şirniyyat istəyirdi. Yaxındakı mağazada həmin şirniyyatı soruşsam da, tapa bilməmişdim. Həmin şirnini də ürəyim çox istəyirdi. Evə gələndə o şirniyyatdan alması üçün atama zəng etdim. Lakin atam telefona cavab vermədi. Çünki atam əvvəlcədən demişdi ki, işlə əlaqədar ola bilsin, telefona baxa bilməsin. Həmən gün atama zəng çatmamasına baxmayaraq, axşam atam evə gələndə gördüm ki, ürəyim istəyən şirniyyatdan alıb gətirib mənə. Evdə hamımız təəccüblə bir-birimizə baxdıq. Atamdan soruşanda ki: "Ata, bəs bu şirniyyatı ürəyim istədiyini hardan bilib aldın?" Atam da gülümsəyib dedi ki: "Başqa şey alırdım. Gördüm, şirni istidi, təzə bişib, mən də aldım ki, siz yeyəsiniz".

Bir dəfə Xocalı soyqırımına aid məktəbdən şəkil istəmişdilər. Nə qədər cəhd etsəm də, bu şəkli tam alındıra bilməmişdim. Balaca qardaşım da körpə olduğu üçün anam mənə bu işdəköməklik edə bilməmişdi. Mən də bu şəkli tamamlaya bilmədiyim üçün çox məyus idim. Atam məni yatmağa yola salanda dedi: "Yusif, gecdi, yorğunsan, sən get yat, səhər oyanıb bir daha çəkməyə çalışarsan". Atamın bu sözləri məni rahatlatmışdı. Səhər yuxudan ayılıb gördüm ki, masanın üstündə həmin çəkməyə çalışdığım şəkil var. Anamdan bunun necə belə olduğunu soruşdum. Anam mənə dedi ki, axşam sən yatandan sonra atan bu şəkil üstündə 1 saat yarım çalışıb və ortaya belə bir rəsm çıxıb. Çox sevinmişdim.

Mənim 4 yaşım olarkən atam mənə oyuncaq robot almışdı. Mənə deyirdi ki, işlətmə, uşaqlığından yadigar saxla, böyüyəndə baxıb uşaqlığını xatırlayarsan. Atam dediyi kimi edirdim. Lakin atam müharibədə olanda o robotu açıb baxdım. Robot normal işləyirdi. Amma bir gün hərəkət etdiyi zaman anidən dayandı. Düşündüm ki, yəqin batareyası bitib. Yeni bir batareya qoydum, amma gördüm ki, robot xarab olub. Daha sonra anlamışam ki, robot dayanan vaxt elə atam orda şəhid olduğu vaxtla üst-üstə düşübmüş.

Atam üçün çox narahat idim. Bilirdim ki, atam Vətəni canından çox istəyirdi. Mənə demişdi ki, sağ gələcəm, amma sağ yox, şəhid olaraq gəldi. Atam çox igid, mərd və güclü biri idi. Atam evə gec-gec gəlirdi. Atam dünyadan köçsə də, qəlbimizdən köçməyib. Bir sözlə, atam mənim hər şeyim idi.



# Nurzadə Kənan

## (Şəhid baş leytenant Nurzadə Rövşən) 12 yaş

Atamla bağlı xatirələrimi bölüşmək istəyirəm sizinlə. Müharibə başlayanda atam könüllü getdi cəbhəyə. 16 oktyabr 2020-ci il tarixində. Mən həmin gündən həyətə çıxa bilmədim. Dostlarım dəfələrlə gəlsə, çağırsa da, getmirdim. İstəyirdim evdə olum, atam hər dəfə zəng eləyəndə səsini eşidim. Heç fikrimdən çıxmır atam gedən gün.

Mən, babam və böyük qardaşım onu yola saldıq. Atam çox qürurluydu həmin günü. Atam ehtiyatda olan zabit idi. Babam danışırdı ki, hələ atam 9-cu sinifdə oxuyanda qaçmışdı evdən Ağdama, döyüşmək üçün. Yolda onu saxlayıb qaytarmışdılar.

- Altı zabit ilə həmin gün gedəndə oxunan siyahıda atamın soyadı çıxmadı. Getməyə də bilərdi, atamın seçimi var idi. Amma o Vətəni seçdi. Dedi: "Qala bilmərəm, mən orda lazımam. Siz möhkəm olun".

Gedəndən hər gün zəng vururdu. Atamın çox vətənpərvər olduğu onun instaqram səhifəsindən məlumdur. Keçən il Ramazan bayramında səhifəsində qeyd etmişdi: "Şuşada bayram namazı qılmaq niyyətiylə". Bu il Şuşada bayram namazı qılındı...

Atam mənimlə çox vaxt keçirirdi. İş vaxtından sonra onun işçiləri ilə birlikdə gedib futbol oynayırdıq. Mən atamla evdə boks məşqi də edirdim. Axşamlar atam nə qədər yorğun olsa, yenə də bizimlə velosiped sürməyə gedirdi. Mən o günlərimçün darıxıram. Mən atamçün darıxıram. Mən atamla fəxr edirəm, onunla qürur duyuram.

Şəhidlər ölməz, Vətən bölünməz!

# Əlizadə Günəş
## (Şəhid kiçik çavuş Əliyev Araz)

11 yaş

Mən Əlizadə Günəş - şəhid qızıyam. Mənim atam II Qarabağ müharibəsində şəhid olmuşdur. Atam ilə fəxr edirəm, çünki o, vətən uğrunda şəhid olub.

Biz Beyləqan rayonunun Kəbirli kəndində yaşayırıq.

Atam həmişə mənə deyirdi ki, çalış yaxşı oxu. Bir gün məni yanına çağırıb dedi: "Günəş, qızım, böyüyəndə nə olmaq istəyirsən?" Mən də dedim: "Həkim olmaq istəyirəm, ata". Dedi: "Lap yaxşı, amma yadında saxla, hər şey oxumaqdan ibarət deyil. Gərək tərbiyəli olasan. Elə adam var ki, oxuyub, amma tərbiyəsi yoxdur. Elə adam da var ki, oxumayıb, amma tərbiyəlidir. Çalış, həm oxuyasan, həm də tərbiyəli olasan". Atamın dediyi bu sözlər hələ də yadımdan çıxmayıb. Mən atamı çox sevirəm. Biz iki bacıyıq. Kiçik bacımın adı Şəfəqdir. O da, mən də atamız üçün çox darıxırıq. Bəzən elə bilirəm, sanki atam gələcək. Amma fikirləşib görürəm ki, gəlməyəcək ...

Əziz ata, hər zaman qəlbimdə qalacaqsan. Səni sevirəm. Qızın Günəş.



# İbrahimov Abdülhəsən
# İbrahimova Səma
## (Şəhid gizir İbrahimov Zamanət)

5 yaş
3 yaş

Biz Naftalanda olurduq. Atam hər dəfə evə gələndə məni parka aparırdı, biz orda velosiped sürürdük. Atam mənə velosiped də almışdı. Elə onu sürməyi də atam öyrətmişdi. Parkda maşın da sürürdüm atamla. O, işdən gələndə balaca bacım Səma üçün kukla, mənim üçün də robot maşın alırdı. Hə, bir də şirniyyatlar alırdı. Mən robot maşınları çox sevirəm, atam da bunu bilirdi, ona görə də mənə robot maşınlar alırdı. O bizi Yeni il şənliklərinə aparırdı, orda Şaxta baba ilə şəkillər çəkdirirdik. Birlikdə bərbərə də gedirdik.

Evimizdə bayraq vardı, atam mənə həmişə bu bayrağı öpdürürdü. Daha sonra o, işə getdi. O vaxt biz - mən və bacım ağladıq, yalvardıq, dedik ki: "Ata, bizi də apar", amma o bizi aparmadı. Dedi ki: "İşə gedirəm, qoy gedim, işdən gəlib sizi gəzməyə aparacam". Sonra o məni və bacımı çoxlu öpdü və qapını örtüb getdi. Mən anamın köməyi ilə pəncərəmizdən boylanıb atamı son dəfə çağırdım və əl etdim, o da mənə əl etdi və getdi...

Sonra atamla telefonda danışdım. Mənə dedi ki: "Anaya və bacıya yaxşı bax, sizi çox sevirəm... "

Daha sonra biz kəndə gəldik, amma atam bizimlə gəlmədi. Mən anamdan atamı soruşanda, anam dedi ki, atam qəhrəman olub. Mənim atam qəhrəmandı, mənim atam Azərbaycan bayrağı oldu... "

# Hacızadə Əli

## (Şəhid mayor Hacıyev Ramid)

8 yaş

Mən atamı çox sevirəm, fəxr edirəm ki, elə igidin oğluyam. Atam çox mehriban idi, heç vaxt bizə kobud davranmazdı. Həmişə istəyirdi ki, bizimçün hər şeyin ən yaxşısı olsun, bayramlarda məni hərbi hissəyə aparır, orda əsgərləri ilə tanış edirdi.

Mən atamın yanına gedəndə çox sevinirdim, həmişə ad günlərində bizi gəzməyə aparırdı. Yay tətilində məzuniyyət götürüb bizi Zaqatalaya istirahətə aparırdı, bəzən işdən gələndə həyətdə bizimlə futbol oynayardı.

Amma çox vaxt işinə görə günlərlə evə gələ bilmirdi, gələndə də çox gec gəlirdi, biz yatmış olurduq. Bizi öpərək şəkil çəkdirirdi və anama deyirdi ki, şəkli səhər bizə göstərsin, biz bilək ki, atamız gəlmişdi.

Mən həmişə onunla fəxr edəcəm və çalışacam ki, onun istədiyi kimi övlad olum. O, həmişə çalışırdı ki, biz yaxşı oxuyaq, mən də onun istədiyi kimi yaxşı oxuyub gələcəkdə savadlı bir həkim və yaxşı bir insan olacam. Həmişə atamın adını yaşadacam, bacılarım Yağmur, Dəniz və mən atamçün çox darıxırıq. Yaxşı ki bizim elə atamız olub!

Ata, səni çox sevirəm!



# Mehdizadə Əkrəm

## (Şəhid baş miçman Mehdizadə Mərdan)

10 yaş

Mən şəhid Mehdizadə Mərdanın oğluyam. 10 yaşım var. Atam mənim hər şeyim idi. Mən onu dünyalar qədər çox istəyirdim. Atam da bizi - məni və bacımı çox istəyirdi. Həmişə bizimlə oynayırdı. Bizi gəzməyə aparırdı. Biz gözəl vaxt keçirirdik. Atam müharibəyə gedəndə bizə demədi. Çünki istəmirdi biz narahat olaq. Onunla tez-tez telefonda danışırdıq. Hər dəfə danışanda deyirdi: "Sizi çox istəyirəm, sizsiz darıxıram".

Bir də mənim və bacımın dərslərimizlə maraqlanırdı. Deyirdi: "Ananızı incitməyin. Mən tezliklə qayıdacam. Yenə sizinlə birgə olacam". Amma, çox heyif, atam gəlmədi. Ancaq mən ondan küsmədim, çünki atam Vətənimiz üçün, bizim üçün canından keçdi, şəhid oldu. Mən atamla həmişə fəxr etmişəm ve edəcəm də.

Canım atam, rahat uyu, mən sənə layiq övlad olacam. Dərslərimi yaxşı oxuyub sənin adını ucaldacam, şəhid övladı adına layiq. Vətənimizə xeyirli övlad olacam. Anam da, bacım da mənə əmanətdi. Mən onları gözüm kimi qoruyacam. Sənə söz verirəm, ata!

# Süleymanzadə Emiliya
## (Şəhid mayor Süleymanov Emin)

13 yaş

Atam haqqında xatirələrim çox olmasa da, zəngindir. Atam mənim bu həyatda əvəzedilməz varlığım idi . Hər dəfə evə gəlişi bir başqa idi, bayram hesab edirdik həmin günü. Vaxtı çox az olurdu. Amma buna baxmayaraq, bacardığı qədər boş vaxtını bizə sərf edirdi. Dərslərimizlə maraqlanırdı. Həmişə sözü o olurdu ki, cəmiyyətdə layiqli yerimizi tutmağı bacaraq. Deyirdi ki: "Dərslərinizi daha yaxşı oxuyun". Atam çox mədəni insan idi, sakit, mehriban xarakteri var idi, lakin həm də ciddi idi. Amma həm də zarafatcıl idi, bizi çoxlu güldürürdü.

Atam 10 ilə yaxın Murov dağ silsiləsində N saylı hərbi hissədə xidmətdə olub. Uşaq olsam da, yaxşı xatırlayıram. Qış fəslində lap çox qar yağardı dağlara, o zaman biz qartopu oynayardıq. Əllərimiz üşüsə də, atamla birlikdə Qar adamı düzəldirdik, əlbəttə ki, onun vaxtı olanda.

Atamın xidməti çox zəngindir. O, Aprel döyüşlərində də iştirak etmişdi, o vaxt əsgərləri ilə sağ-salamat qayıdıb gəlmişdi. Atam peşəkar artillerist idi. II Vətən müharibəsində peşəkarlığına arxayın olub döyüşlərə qatılmışdı. Zabit idi. Biz onun yolunu gözləyirdik. Amma onun əsgər yoldaşları gəlmişdilər, dedilər ki, 9 noyabrda Şuşa, Daşaltı istiqamətində gedən döyüşlərdə uca bir səslə: "Uşaqlar, özünüzü müdafiyə edin", - demiş, sonra da əsgərlərinə, torpağına canını fəda etmiş və şəhidlik zirvəsinə ucalmışdı. Atamla birgə çox arzularımız vardı, amma heyif, yarım qaldı.



Mən atamla həmişə fəxr edəcəm və hər zaman da ona layiqli övlad olmağa çalışacağam.

Mən bilirəm ki, bütün şəhidlərimiz Azərbaycanın qürur mənbəyidir!

Ata, mən səninlə fəxr edirəm !



# Cavadov Aqil

## (Şəhid MAXE - çavuş Cavadov Yalçın) 13 yaş

Mənim atam həmlə taborunun manqa komandiri olub. II Qarabağ müharibəsində Ağdam, Cəbrayıl, Füzuli uğrunda döyüşüb və Füzulidə şəhidlik zirvəsinə ucalıb. Onun üçün çox darıxıram...

Biz atamla gözəl vaxt keçirirdik, onun vaxtı olanda futbol, voleybol oynayırdıq . Həmişə bərbərə atam aparırdı məni. Amma indi tək gedirəm. Müharibəyə gedəndə, səhər saat 5-də məni yuxudan oyatdı, qardaşımı, bacımı, anamı mənə tapşırdı və dedi ki, onlardan muğayat olum. Mən o günü, atamın səsini və sözlərini heç vaxt unutmaram. Mən onun zirvəsinə layiq övlad olacağam, bunu özümə borc bilirəm, onun mənə tapşırdıqlarını yerinə yetirəcəm.

Mən igid, qəhrəman atamla fəxr edirəm!



# Əlizadə Nuray

## (Şəhid polkovnik-leytenant Əliyev Atəm) 13 yaş

Mənim atam II Qarabağ müharibəsində iştirak edib. Murov dağında öz taboru ilə döyüşlərə qatılıb və orda şəhid olub. Mən atam üçün çox darıxıram.

Atam çox mehriban və mülayim idi. O, evə gec-gec gəlirdi. Gələndə isə həm mənimlə, həm də qardaşım Vaqiflə çox yaxşı vaxt keçirirdi. Birlikdə gəzməyə çıxırdıq. Evdə rəsm çəkirdik. Biz atamla qürur duyuruq. Atam istəyirdi ki, mən həkim olum, Vaqif isə iqtisadçı olsun. Biz tez-tez atamın qəbrini ziyarət edirik. Anam deyir ki, biz gərək atama layiq övlad olaq. Ona görə də qardaşımla birgə gecə-gündüz çalışırıq, dərslərimizi əla oxuyuruq. Söz vermişik, atamın arzusunu yerinə yetirəcəyik. Mən Tibb Universitetinə qəbul olanda yenə gedəcəyəm qəbir üstünə. Deyəcəm ki: "Ata, bax gəlmişəm, üzüağ gəlmişəm, sənin arzunu yerinə yetirib gəlmişəm!" İnşallah, o günü - atamın arzusunu həyata keçirdiyimiz günü görəcəyəm. Biz atamın adını həmişə uca tutacağıq.

Mən fəxr edirəm ki, belə bir qəhrəmanın qızıyam.

# Babayeva Mələk (Şəhid mayor Babayev Rahib)

11 yaş

Mənim atam ikinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərərək şəhid oldu. Əsgər yoldaşlarının danışdığına görə, atam öz əsgərlərini xilas etmiş, lakin özü şəhid olmuşdur. Onsuz çox darıxıram, üzülürəm, hər gün ağlayıram ... Atamsız yaşamaq bizə çətindir. Mənim atam çox mehriban, qayğıkeş ata idi. Hər bir istəyimizi, hər arzumuzu yerinə yetirirdi. Hər zaman fəxr edəcəm ki, mən Rahib Babayev kimi qəhrəmanın qızıyam. Bizim atamla birlikdə çox arzularımız var idi. Onların heç birini həyata keçirə bilmədik. Mənim atam bizdən uzaqda - Murovda xidmət edirdi. Biz onu hər istədiyimiz vaxtda görə bilmirdik. Atam evə az-az gəlirdi, lakin evdə olduğu müddətdə bizimlə keçirə bilmədiyi bütün günlərin əvəzini çıxırdı. Birlikdə vaxtımız əyləncəli keçirdi.

Atam həmişə bizim üzümüzü güldürürdü. O mənim üçün qaranlığı işıqlandıran nurlu bir işıq idi. Evə çox gec-gec gəlirdi, mən ondan doymurdum. O məni və qardaşlarımı güclü, qorxmaz, cəsur və vətənpərvər görmək istəyirdi. Bayrağı, Vətəni sevməyi mənə atam öyrətdi. Bizim birlikdə qurduğumuz xəyallar, arzular yarımçıq qaldı. O mənə söz vermişdi, mən böyüyəndə onunla birlikdə Parisə gedəcəkdik. Heyif ki qismət olmadı. O bizimlə əylənməyi, oynamağı çox sevirdi. Evə gələndə günün hansı vaxtı ürəyimizdən nə keçirdisə, elə o an yerinə yetirirdi. Bizimlə vaxt keçirməyi, səyahət etməyi çox sevirdi. Məni həkim, qardaşlarımı hərbçi görmək arzusunda idi. Həmişə deyirdi: "Siz böyüyənə qədər işğal altında olan torpaqlarımızı azad edəcəyik. Siz çox gözəl günlər görəcəksiz".



İndi mənə atamdan çoxlu şirin xatirələr qalıb ... Keçən il məni qışda Şahdağa, yayda isə Göygölə aparması heç vaxt yadımdan çıxmayacaq. Mən ondan ötrü çox darıxıram. Amma çalışıram, ağlamayım, mən ağlasam, atamın ruhu narahat olar. Şəhidlər ölmür, atam daim bizim yanımızdadır. Mən bunu hiss edirəm. Atam torpaqlarımızı düşməndən xilas etdi, özü isə şəhidlik zirvəsinə ucaldı. Mən atamın yarımçıq qalan arzularını həyata keçirmək üçün yaxşı oxuyacam, ali təhsil alacam, atama və Vətənimə layiqli övlad olacam. Onunla birlikdə qurduğumuz xəyalları gerçəkləşdirmək üçün əlimdən gələni edəcəyəm. Atam mənim gələcəyimə çox ümidlə baxırdı. İnanıram ki, mən onun ümidlərini doğruldacağam. Allah bu arzularımı həyata keçirməyim üçün mənə kömək olacaq.

# Əzizov Məhəmməd

## (Şəhid baş leytenant Əzizov Elgün)

6 yaş

Mənim atam ikinci Qarabağ döyüşləri zamanı qəhrəmanlıq göstərmişdi. Deyirlər ki, o öz əsgərini xilas edib. Amma heyif ki, özü şəhid olub. Mən atamı itirdiyim üçün çox üzgünəm, amma həm də atamla fəxr edirəm.

Anam deyir ki, mən gərək pis olmayam, ağlamayam və üzülməyəm. Axı mən şəhid oğluyam! Gərək kişi kimi olam! Müəllimim də deyir ki, gərək atamla fəxr edəm və qürur duyam. Anam bir də onu deyir ki, mənim atam çox möhtəşəm bir ata olub. O bütün boş vaxtlarını mənimlə və bacılarımla keçirib.

Bizim çox gözəl günlərimiz olub. Atam hara gedərdisə, məni də özüylə aparardı, heç atamdan ayrılmazdım, hətta məni bir neçə dəfə öz iş yerinə aparıb əsgərləri ilə tanış etmişdi. Atamla oyunlar oynayardım, ən çox da gizlənqaç oynayardıq. Həmişə atam gözlərini yumar, mən gizlənərdim. Atam da özün elə aparardı ki, guya məni tapa bilmir...

Çox xatirələrimiz oldu atamla. Son gördüyümdə atamdan soruşdum: "Ata, hara gedirsən?" Dedi ki: "Oğlum, atalarımızın bizə qoyduğunu biz sizə qoymayacağıq, bacılarını və ananı sənə əmanət edirəm, məndən sonra evin kişisi sənsən...". Sonra da getdi ... Bir daha da qayıtmadı ... Sonra eşitdim ki, atam şəhid olub ...

Mən onu çox sevirdim ... Amma deyirlər ki, o daha gəlməyəcək ...



# Ayxan İsmayılov

## (Şəhid İsmayılov Orxan)

7 yaş

Mənim adımı anam qoyub. O deyir ki, atamın adına yaraşdığı üçün mənə bu adı seçib. Atam mənim həyatdakı ən çox istədiyim dəyərli varlıqdı. Mən ailəmizin balacasıyam, ona görə də atam mənim nazımla daha çox oynayırdı. Deyirlər, mən bir az ərköyünəm. Bəlkə də, elədi, çünki atam mənim istədiyim oyunları oynayır, istədiyim oyuncaqları alırdı...

İndi isə atam yoxdur, bir daha da gəlməyəcək. Atasız mənə çox çətindi, çünki daha mənimlə atam kimi oynayan yoxdu... Biz qardaşımla atamın bizə öyrətdiyi oyunları oynayırıq, amma çox heyif ki, atam yanımızda deyil.

Atam haqqında hamı danışır. Deyirlər ki, o, mərd, cəsur, igid bir insan olub. O hər zaman bizə Vətənin bizim üçün necə dəyərli olduğunu deyirdi. Atam qardaşıma və mənə deyirdi ki: "Dərslərinizi yaxşı oxuyun, Vətənimizə, xalqımıza layiqli oğullar olun". Vətəni anamız qədər sevməyi bizə atam öyrətdi. Bizə deyirdi ki: "Lazım gələrsə, Vətən üçün canımızdan da keçməliyik".

Atam özü bunu elədi, yəni canından keçdi. O, şəhid oldu, ona görə ki, istəyirdi, Vətənimiz, xalqımız firavan yaşasın. Müharibə başlayandan cəmi 5 gün keçmişdi ki, biz atamın şəhid olmaq xəbərini eşitdik. Deyirlər ki, o, Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Atam hərbçi deyildi, müharibənin başladığını bilib könüllü olaraq, bizi belə fikirləşmədən orduya yazılmışdı. İndi atamın şəkillərini hər yerdə görürəm, bu zaman gah kədərlənirəm, ağlamaq məni tutur, gah da qürurlanıram. O zaman istəyirəm ki, şəklə baxan hər kəs bilsin ki, o mənim atamdır! Qoy hər kəs bilsin ki, mənim atam bütün Azərbaycanın qəhrəmanıdır. Mən atamla fəxr edirəm!

# İsmayılov Zöhrab

## (Şəhid İsmayılov Orxan)

8 yaş

Atam mənə babamın adını qoyub, babamın da adı Zöhrabdı, ona görə də atam məni heç vaxt öz adımla çağırmırdı. Həmişə "Ata" - deyirdi. Nənəm deyir ki, mən atama çox oxşayıram, atam kimi hərəkətlər edirəm, onun kimi danışıram, xarici görünüşümdə də atama oxşayıram. Mənim atam dünyanın ən yaxşı atası idi. Lənətə gəlmiş ermənilər atamı bizdən aldı. Amma bu o demək deyil ki, atam bizim yanımızda deyil. Anam deyir ki, atamın ruhu hər zaman bizim yanımızdadır, amma biz onu görə bilmirik. Atam bizimlə çox gözəl vaxt keçirirdi, bizimlə oyunlar oynayır, istədiyimiz oyuncaqları bizə alırdı.

Atam çox cəsur, mərd və vətənpərvər insan olub, vətəni sevməyi o bizə öyrədib. O hər zaman bizə deyirdi ki, Vətənimizə, xalqımıza layiqli övladlar olaq. Vətən bizim anamızdı, biz Vətənimizi sevməli, qorumalı və lazım gələrsə, canımızdan da keçməliyik. Atam bunu gözünü bələ qırpmadan elədi. Vətən müharibəsinin 5-ci günü Cəbrayil rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı, cənnətə qovuşdu. Atamın şəhid olacağını heç vaxt düşünməmişdim, çünki müharibə olacağını bilmirdim. Atam hərbçi deyildi, müharibə başlayanda könüllü olaraq orduya yazılmışdı.

Mən atamla fəxr ədirəm. O, tək mənim yox, bütün Azərbaycanımızın fəxridir.



# Qasımov Əlirza

## (Şəhid mayor Qasımov Abbas)

7 yaş

Mənim atam qəhrəmandır. Bunu hamı deyir. Çünki o, müharibənin ilk şəhididir. Mən atamla fəxr edirəm və onu çox sevirəm. Elə istəyirəm ki, atam yenidən yanıma qayıtsın. Anam deyir ki, atamın ruhu daim yanımızdadır. Həmişəki kimi evdə gəzir, amma biz onu görə bilmirik. Yenə də mənim ən böyük arzum odur ki, atamın ruhu təzədən öz bədəninə qayıtsın. Hərdən istəyirəm ki, mənim sehirli çubuğum olsun, o zaman mən çubuğumla elə edərdim ki, atamın ruhu öz bədəninə qayıdardı...

Mən atam üçün çox darıxmışam... O çox vaxt işdə olurdu. Hətta həftələrlə rayonlarda olurdu deyə evə gələ bilmirdi. Evdə olmayanda bizimlə görüntülü danışırdı. Deyirdi ki: "İşim qurtaran kimi, gələcəyəm evə". Mən onun yolunu səbirsizliklə gözləyirdim. O gələndə elə bil bayram olurdu. İndi də birdən atamın şəhid olması yadımdan çıxır, elə bilirəm ki, o yenə rayondadı, işini bitirib gələcək ...

Çox şeyi mənə atam öyrədib. Məsələn, anam deyir ki, mənə saymağı birinci atam öyrədib. Atam mənə "atam" deyirdi. Çünki özü də atasız böyümüşdü və mənə öz atasının adını qoymuşdu. İndi isə mən həm övladsız, həm də atasız qaldım...

Kaş bir gün gözümü açıb görəydim ki, atam gəlib ...

# Qasımov Hüseyn
## (Şəhid mayor Qasımov Abbas)

5 yaş

Mən şəhid oğluyam. Anam deyir ki, şəhid oğlu olmaq şərəflidir. Ona görə də ağıllı uşaq olmalıyam, anamı incitməli deyiləm. Məktəbə gedəndə yaxşı oxumalıyam. Atam çox vaxt işdə olur, işini qurtaran kimi evə gəlirdi. Amma indi daha gələ bilməyəcək, çünki şəhidlər göydə olurlar, onlar evə gəlmirlər. Mən də bilirəm, atam bir də evə qayıtmayacaq ...

O evdə olanda həmişə mənimlə oyunlar oynayırdı. Demək olar ki, hər gün gələndə bizə oyuncaq alırdı. O məni çox istəyirdi, mən də atamı çox istəyirəm. Mənə hər şeyi birinci atam öyrədirdi. Bizi tez-tez gəzməyə aparırdı. Mən atamın yolunu gözləyirəm. Bilirəm, o qayıdacaq. Qardaşım isə deyir ki, qayıtmayacaq, atamız şəhiddir. Amma mən bilirəm, bilirəm ki, atam qayıdacaq. Gecələr tez yatıram ki, yuxuda atamı görüm ...

Mən çox darıxıram, istəyirəm, atam tez gəlsin ...



# Tağızadə Nərmin
## (Şəhid gizir Tağızadə Cahid)

7 yaş

Hamı deyir ki, mənim atam xüsusi təyinatlı hərbçi olub! Mən gərək atamla fəxr edəm həmişə. Atamı çox sevirəm. O, şəhid olub, həm də qəhrəmancasına. Atam çoxlu erməni öldürüb, lap kinolardakı kimi. O, müharibəyə gedəndə bizimlə görüşməyə gəlmişdi, qardaşımla mənə dedi ki: "Ananızın sözünə baxın, ağıllı olun, dərslərinizi yaxşı oxuyun". Mən də dərslərimi yaxşı oxuyub polis olacam. Atama layiq olacam.

Mən məktəbdə müsabiqələrə qoşulurdum, onda atam çox sevinirdi, mənlə fəxr edirdi. İndi məktəbimizdə də hamı bilir ki, mən şəhid qızıyam. Müəllimimiz dərsdə sinif yoldaşlarıma dedi, sinif yoldaşlarım da mənə xüsusi hörmət edirlər, axı mən şəhid qızıyam! Biz atamın arzuladığı kimi olacağıq. Atamla fəxr edirəm. Bilirəm ki, o da məni görür və fəxr edir.

Mən dərsdən sonra boş vaxtlarımda atamın və bayrağımızın rəsmini çəkməyi sevirəm. Atam bizi Şəhidlər xiyabanına aparmışdı. O vaxt demişdi ki: "Şəhidlərimizi tanımaq, ziyarət etmək borcumuzdur". İndi o özü də şəhid oldu ... Bilirəm ki, şəhidlər ölmür, bizimlədi, demək, atam da ölməyib, yanımızdadı. Mən Şəhid Tağızadə Cahidin qızıyam. Atamı çox sevirəm. Onun üçün çox darıxıram. Atamla qürur duyuram. Allah şəhidlərimizə rəhmət eləsin!

# Tağızadə Nihad
## (Şəhid gizir Tağızadə Cahid)

6 yaş

Atam ermənilərlə döyüşüb şəhid olub. O bizə hər şey qazanıb. Anam deyir ki, atam çoxlu erməni öldürüb! Əgər mən orda olsaydım, atamın yanında olsaydım, ona kömək edərdim, mən öldürərdim düşmənləri! Qovardım onları!

Atam evdə olanda məni dostlarıyla gəzməyə aparırdı. O, davaya gedəndə bizə dedi ki, anaya qulaq asın, ağıllı olun, dərslərinizi yaxşı oxuyun. Mən istəyirəm ki, böyüyəndə atam kimi komandir olum. Onda mənim də öz əsgərlərim olacaq. Böyüyəndə özümə "Toyota" maşını da alacam.

Atamı çox sevirəm. Mən atamı çox gözlədim, gözlədim, amma o cəmi bir dəfə gəldi, sonra daha gəlmədi. Mən də böyüyəndə atam kimi torpaqlarımızı qoruyacam, sonra şəhid olacam. Onda atamın yanına gedəcəm, onu orda görəcəm, çox görəcəm...



# Rəşidova Dərya
## (Şəhid baş gizir Rəşidov İlham)

11 yaş

Atam Rəşidov İlham Yaşmada XTQ də baş gizir olub. Anam deyir ki, mənim atam hərbi xidmətdə olduğu zaman yaxşı xidmət edib, igidlik göstərib, ona görə də medal alıb, fəxri fərman alıb. Onlar hamısı evdədir, biz onları qurür hissi ilə qoruyub saxlayırıq.

Atam Aprel döyüşlərinin də iştirakçısı olub. O vaxt döyüşdən sağ-salamat qayıdıb gəlmişdi. Biz o qədər inanırdıq ki, bu müharibədən də atamın salamat qayıdacağına, çox gözləyirdik, amma olmadı.

Mənim atam çətin və gərgin iş şəraitində çalışırdı, amma buna baxmayaraq, hər zaman bizim yanımızda olub və bizə xüsusi sevgi, qayğı göstərib. O, vətənpərvər bir igid idi, bizi də belə vətənpərvər böyüdüb. Mən inanıram ki, şəhidlər ölmür, demək, atam da ölməyib! Onun ruhu daim bizimlə olacaq, anamı və bizi qoruyacaq. Mən atamla fəxr edirəm. O daim mənim qəlbimdə yaşayacaq. Mən onun arzusunu yerinə yetirəcəyəm. Sadəcə heyifsilənirəm ki, bu yaşımda atamı itirdim. Atam həmişə çalışırdı ki, vaxtını bizimlə keçirsin, elə də olurdu. Həftənin bazar gününü çox sevirdim, çünki atam evdə olurdu, bizi gəzməyə aparırdı.

Allah heç bir övladı atasız etməsin. Mənim atam dünyanın ən yaxşı atası idi. Mən həmişə də qürur duyacam onunla. Mən atama şeir də həsr etmişəm, o şeir belədir:

Ey ulu Tanrı.
Nə vaxtdır, axtarır gözüm atamı,
Əmi də, dayı da susub dinməyir.
Atasız göynəyir qəlbimin başı.
Aylardı, qurumur gözümün yaşı.
Nəyimə gərəkdi dünyanın varı.
Gedirəm gəzməyə xəyallarımda,
Danışıb gülürük yuxularımda.
Aldadır özümü duyğularım da ...

İlahi, nə olar, yardım et mənə ...
Yalnız bircə dəfə, tək bircə dəfə,
İstərəm, bir dəfə görüm atamı.
(Rəşidova Dərya İlham qızı)





# Rəşidli İlhan

## (Şəhid baş gizir Rəşidov İlham)

9 yaş

Mənim atam baş gizir idi. Anam deyir ki, atam düz 20 il Vətənə xidmət edib. II Qarabağ müharibəsində Vətən uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. Mən atamla fəxr edirəm. Atam arzu edirdi ki, mən ali təhsil alım, inşallah, mən atamın arzusunu yerinə yetirəcəyəm, ALLAH mənə kömək edəcək.

Bilirəm ki, buna görə yaxşı oxumalıyam, çox çalışmalıyam. Hələlik oxuyuram, inşallah, universitetə qəbul olub ali təhsil də alacağam. İşləyib anama kömək edəcəyəm. Çalışacam ki, anam çox yorulmasın.

Mən atamı çox istəyirəm və onu hər zaman qəlbimdə yaşadacağam. Mənim atam Vətənpərvər bir igid idi, məni də belə böyüdüb. Mən, inşallah, atama layiq bir övlad olacağam.

# Məmmədov Tuncay
## (Şəhid kapitan Pərviz Məmmədov)

7 yaş

Atam üçün çox darıxıram, həmişə işdən gəlməyini gözləyirdim, yorğun olsa da, mənimlə oynayardı. Biz onunla yastıq davası edirdik, kompüter oyunları oynayırdıq. O, çətin yerləri mənim üçün keçirdi, mənə kömək edirdi. Atam heç bir zaman məni danlamazdı, o mənə "Atam" deyərdi.

Mən istəyirəm ki, tez böyüyüm, çünki onun yerinə keçmək istəyirəm. Deyirlər ki, mənim atam ən yaxşı komandir olub. Atamın nə arzusu var idisə, mən həyata keçirəcəyəm, nə istəyibsə, hansı maşını sürmək istəyibsə, mən onu alacağam. Atamın ən böyük arzusu mənim hərbi prokuror olmağım idi, inşallah, mən söz vermişəm ki, hərbi prokuror olum.

Amma atam şəhid olandan mənim bəxtim gətirmir, az bəxtim gətirir. Bəxtim onun yanında gətirərdi. Atam həmişə deyərdi: "Erməni ölər, leş olar, biz ölərik, şəhid olarıq".

Atam məni görür, bilirəm. Axırıncı dəfə mənimlə danışanda dedi: "Oğlum, sən mənimlə qurur duyacaqsan"....

İndi də mən deyirəm: "Ata, mən səninlə qürur duyuram, yaxşı ki, mənim atam sənsən!"



# Mikayilov Ağaseyid
## (Şəhid baş leytenant Mikayilov Ramiq)

5 yaş

Mən atamla qurur duyuram. O, dünyanın ən gözəl, qayğıkeş atasıdı. Atam mənim qəhrəmanım, hər şeyim! Atam çoxlu erməni öldürüb, sonra da şəhid olub, lap kinodakı kimi. Atamın mənimlə bağlı arzuları böyük idi, lap böyük. Həmişə mənə deyirdi ki: "Ağam, bacararsan". Anam deyir ki, atam məni çox sevirdi, həm də mənə çox güvənirdi. Mən atamın yanında olanda özümü böyük adam kimi hiss edirdim. Çünki atam mənimlə tam fərqli davranır və ayrı cür danışırdı.

Mən böyüyüb məktəbə gedəndə yaxşı oxuyacam, müəllimin sözünə baxacam. Çünki ən böyük arzum budu ki, həkim olum. Mən yaxşı həkim olacam, elə edəcəm ki, heç kim şəhid olmasın, yaralıları sağaldacam, qoymayacam ölsünlər. İstəyirəm, heç kimin atası şəhid olmasın, öz uşaqlarının yanına gəlsin. Mənim atam da ... Hərdən elə bilirəm ki, atam yanımdadır, səsini eşidirəm ...

Nolar, ata, gəl ...

# Həmidov Ayxan
## (Şəhid Həmidov Vasif)

5 yaş

Mənim atam mənim qəhrəmanımdır, həm də təkcə mənim yox. Anam deyir ki, atam bütün Azərbaycanın qəhrəmanıdır. Onu hamı tanıyır.

Mən istəyirəm, atam gəlsin, amma bilirəm, o daha gəlməyəcək ... Atam mənim üçün nə istəsəm, "yox" deməz, alardı. İşdən gələndə yorğun olsa da, mənimlə oynayır, deyib gülürdü. Atamın mənimlə bağlı çox xəyalları vardı ...

Deyirdi ki: "Səni karateyə qoyacam, dərslərini yaxşı oxuyub hakim olacaqsan". İndi karateyə gedirəm, amma atam aparmır məni. "Atam hardadır" - deyə gözüm çox axtarır onu. Çox darıxıram onsuz. Kaş sən yanımda olardın, ata. Anam deyir ki, sən çoxlu düşmən öldürmüsən. Ona görə də əvəzolunmazsan.

Ata, mən uşaqlara səndən danışmışam. Onlar hər dəfə məni görəndə istəyirlər, səndən danışım. Mən də danışıram, sənin erməniləri necə öldürməyindən, qovmağından... Yaxşı ki, sən mənim atamsan, sən yanımda olmasan da, hər zaman ürəyimdə və ağlımdasan. Mənim atam mənim üçün dünyanın ən yaxşı atasıdır. Ata, söz verirəm ki, sənin xəyallarını gerçəkləşdirəcəm.

Canım atam, sən yaddaşımdan silinməyəcək bir yerdəsən və ora mənim üçün ən gözəl və özəl yerdi.



# Zeynallı Zəynəb
## (Şəhid baş çavuş Zeynalov Cavid)

7 yaş

Mənim atam dünyanın ən gözəl atasıdı, mən atamla keçirdiyim hər günümçün çox darıxıram, hər dəfə ürəyimdən belə keçirirəm ki, kaş atam yenə gələ, yenə oynayaq. Mən hər gün atam işdən gələndə onunla "Yumdum, qaç" oynayırdım.

Atamı dünyada hamıdan çox istəyirəm. Atam mənə deyirdi ki: "Qızım, sən mənim sənətimi davam etdirərsən, həkim olarsan". Mən də atamın arzusunu yerinə yetirəcəm. Bilirəm ki, bununçun dərsimi yaxşı oxumalıyam. Mən hər dəfə qiymət alanda birinci atama deyirəm. Atam mənim üçün əvəzolunmazdı.

Mən atamla hər zaman fəxr etmişəm, hər zaman da fəxr edəcəm. Atamla yaşadığım, gəzdiyim yerləri, atamın mənə danışdığı nağılları heç bir zaman yadımdan çıxarmayacam.

Axı onu hamıdan çox sevirdim, hamıdan...

# Quluzadə Seymur (Şəhid Quluzadə Anar)

9 yaş

Mən atam haqqında keçmişdə danışa bilmirəm. O hər an, hər dəqiqə bizimlədir. Atasızlığı bizə yaşadan ermənilərə həmişə lənətlər oxuyuruq. Atamın mənə xüsusi məhəbbəti vardı. Deyirlər ki, mən onun uşaqlığına çox bənzəyirəm. Atam məndə özünü görürmüş ...

Atam düz 4 il ermənilərə qarşı döyüşüb. Yadımdadı, o heç bir dəfə də olsa, yaralanmadı. Anam xəstə olduğu üçün məcburən ordudan çıxdı. Lakin o xainlərin terror qurbanı oldu atam. İndi anam istəyir ki, atasızlığı bizə unutdursun. Amma mən heç vaxt o müharibəni və terror qurbanı olan atamı unutmaram, unutmayacam da! Unutmaq Vətəni sevməməkdi. Biz Vətənimizi də, atamızı da sevirik. Mən şəhid oğlu olduğum üçün fəxr edirəm.



# Quluzadə Mələk (Şəhid Quluzadə Anar)

9 yaş

Mənim yaşım azdı. Amma az olsa da, atam yaddaşıma həkk olub! Həm də elə həkk olub ki, illər keçsə də, onu unutmayacam. Atam bizi bu dünyada hamıdan çox sevərdi. O sevgini indi bizə hətta ən yaxınlarımız belə verə bilmir. Düzdü, hamı bizə qarşı mehribandı, nə istəsək, alırlar, amma atamı kim əvəz edə bilər ki?

Atam Vətəni də çox sevirdi, bizi sevdiyi kimi! Elə ona görə də özünü torpağa qurban verdi. O bizə Vətəni, torpağı sevməyi öyrədə bilmişdi. Həmişə deyirdi ki: "Əgər o murdarlar Tərtərin bir qarış torpağını alsalar, ürəyim partlayar".

Biz tez-tez qəbiristanlığa gedib atamın qəbrini ziyarət edirik. Mən orda atama dedim ki: "Ata, rahat yat, indi artıq bütün torpaqlarımız azaddır. Heyif, sən bu günü görə bilmədin. Amma çox sevdiyin balaların rahat yatır evində. Düzdür, sən yoxsan, amma evimizdə, məktəbimizdə azad, rahat, arxayın yaşayırıq".

# Məlikli Xədicə
## (Şəhid mayor Məlikli Aqil)

10 yaş

Mənim atamla çox xatirələrim olmayıb, amma bizim onunla çox gözəl günlərimiz olub. Atam bizim ad günlərimizdə belə yanımızda olmayıb. Təkcə mənim 6 yaşımdan başqa. Onda yanımda olub. Qardaşımın isə heç bir ad günündə olmayıb. O, bəzən işdən çox gec gəlirdi. Ona görə gecələr gizlicə bizim üzümüzdən öpür, sonra işə gedirdi.

Çox az hallarda atam işdən tez gəlirdi, o zaman bizimlə oyunlar oynayardı. Həmin günlər bizdə sanki bayram olurdu, o qədər sevinirdik, o qədər oynayırdıq ki! Bizimlə vaxt keçirdiyi zaman sanki uşaqlaşırdı atam. Anam deyirdi ki: "Bizim evdə 2 yox, 3 uşaq var, deyəsən". Bəzən atam anama deyirmiş ki, uşaqların yanında olanda da, onlar üçün darıxıram.

Dediyim kimi, atam bizimlə az vaxt keçirə bilirdi. Axı o hərbi zabit idi və çox vaxt işdə olurdu.

Atam həm də çox savadlı idi. Mən də onun kimi savadlı olmaq istəyirəm. Atama oxşamaq istəyirəm. Bilirsinizmi, niyə? Çünki atam və onun kimi zabitlər haqqında verilişlər hazırlamaq, onları tanıtmaq lazımdır. Bunu da demək istəyirəm ki, atam mənim həyatım idi. Həyatımda ən çox sevdiyim şəxs atamdı və hər zaman da elə olacaq!



# Mehdiyeva Ayşə
## (Şəhid baş çavuş Mehdiyev Surxay)

5 yaş

Atam işdən gələndə "Atacım" - deyib qabağına qaçırdım, boynunu qucaqlayardım hər zaman. Atam da məni qucağına götürüb qucaqlayırdı. O, namaz qılanda da yüyürüb boynuna çıxırdım. Mən nə istəsəm, onu atamın qulağına pıçıldayırdım. Atam da alıb gətirirdi.

Hərdən anamı incidəndə, anam da mənə hirslənəndə işdən gələn kimi atama deyirdim. Atam da zarafatla anamı çağırıb danlayırdı. Sonra da hamımız birlikdə gülərdik.

Yatmazdan əvvəl atam bizə həmişə nağıl oxuyardı. Axırıncı dəfə bizi gəzməyə aparmışdı, yol ilə gedirdik, Atama dedim ki: "Ata, sən heç bilirsən, hara gedirsən?" Gülməyə başladıq hamımız.

Qardaşım Zülfü səhərlər hamıdan qabaq oyanırdı, sonra da atamın başının üstünə gəlib onu yuxudan oyadardı. Bir dəfə müharibənin başlamasına az qalmışdı. Atam evə gəldi. O zaman Zülfü yenicə öyrənmişdi ata deməyi. Anam Zülfiyə "Ata" kəlməsini tez öyrənsin deyə tez-tez təkrar etdirirdi. Atam eşitsin istəyirdi. Anamın yanında demədi amma. Anam mətbəxə keçdikdən sonra Zülfi "Ata" - dedi. O vaxt atam da, biz də o bir kəlməyə çox sevinmişdik. Mən atamla qürür duyuram.

# Əsgərli Sevgi
(Şəhid baş leytenant Əsgərli Tural)

5 yaş

Mən dünyada hamıdan çox atamı sevirəm. Bilirsiz niyə? Çünki o, evdə olanda mən nə istəyirdimsə, hamısını edirdi. Mənlə oyun oynayırdı, məni özü yedizdirirdi, paltarımı geyindirirdi, çünki bunları ata eləyəndə mənə daha xoş olurdu, çox xoşuma gəlirdi.

Ata bizi tez-tez gəzməyə aparırdı. Çox vaxt işdə qalırdı, anam deyirdi ki: "Atan hərbçidir, ona görə işdə çox qalır". Amma onda da tez-tez zəng edirdi, görüntülü danışırdıq.

Mənim atamla bağlı ən yadda qalan xatirəm Naxçıvana getməyimiz idi. Birinci dəfə idi ki, anam olmadan atamla təkcə Naxçıvana getdim. Onda mən təyyarədən qorxdum, amma atam məni elə bərk qucaqladı ki, qorxum yox oldu, daha qorxmadım. Naxçıvanda atamla düz bir həftə çox gözəl vaxt keçirdim. Anamın icazə vermədiyi hər şeyə atam icazə verdi. Birlikdə parka da getdik, dondurma yedik, torpaqla oynadıq.

Mən atamı axırıncı dəfə 25 sentyabrda gördüm. Gecə gəldi, bizi oyatdı, çoxlu öpdü məni də, bacımı da. Cəmi 3 saat qaldı bizlə, sonra yenə qayıtdı işə. Sonra biz gəldik Bakıya, atam zəng elədi, danışdıq. O mənə dedi: "Səni çox istəyirəm, mamanı incitmə ..." Sonra bir də danışa bilmədik ...

Sonra mənim atam qəhrəman oldu və mən atamla hər zaman fəxr edəcəm.



# Həsənova Sevinc
(Şəhid çavuş Həsənov Fariz)

6 yaş

"Salam, Ata... Mənəm, sənin Sevincin... İlk göz ağrın... Sənə "ATA" olmağın ilk sevincini yaşadan Sevincin... Mən sənin 2 illik övlad həsrətinə son qoyan Sevincinəm.... Ürək sözlərimi söyləyə biləcəyim bir Atam yanımda olmadığı üçün, kağız parçasına köçürmüşəm sənə olan həsrətimi, sevgimi... Mən anamla sənə o hissi yaşadanda Allahım mənə dedi: "Mələyim, səni yer üzündəki Ata və Ana adlı mələyə hədiyyə göndərirəm, get onların qəlbinin göynəməsinə son qoy... Mən də sizin aranıza qatıldım... Nur gətirdim ailəmizə... Mən dünyaya göz açanda sən sevinərək anamın yanına gəldin, dedin ki: "Balamız dünyaya gələn an azan oxundu və narın yağış yağmağa başladı... Bərəkət və ruzi gətirəcək balamız... Yadındamı, ata? Adımı da özün seçdin... Mənim Sevincim, "Bizim Sevincimiz bu mələkdir" - dedin.

Atacan, anam çox əziyyətlər çəkdi, mənə və qardaşıma... Sən də dağlarda, düşmənlə üz-üzə mübarizə apararaq, yarı ac, yarı tox, biz ac qalmayaq deyə gecəni gündüzünə qatırdın... Anama deyərdin ki, mən də yetimliklə böyümüşəm, qoymaram, mənim gördüyüm zülmləri balalarım görsün... Günlərlə ayağın çəkmədən çıxmırdı, ayaq üstə yatırdın... Sən nə gözəl ATA idin... İşdən gələndə qabağına qaçırdım, sən də qollarını açırdın: "Gəl, ömrüm, günüm, pambığım", - deyirdin... Bilirdim ki, çantanda həmişə mənimçün sevdiyim çöplü şirə gətirəcəksən... Yanına çatanda şirəni çıxardırdın, deyirdin: "Pambığım, atanı öp, verəcəm..." Yanına qaçıb ça-

tana kimi ayağım ayağıma dolaşırdı... Hələ körpə idim axı... Yeriməyi təzə öyrənirdim... Sənin qollarından, əllərindən tutub yeriməyi öyrəndim.

ATA, çiynində gəzdirirdin məni, yadındamı? Səninlə birgə əlindən tutub ancaq bağçaya gedə bilmişəm... Axı qızlar atasına bağlı olur, anadan çox atasını sevirlər... Axşam düşən kimi gözlərim pəncərədə, qulaqlarım anamın telefonunda qalırdı ki, bu saat atam zəng edəcək ki, gəlirəm... Biz də çıxardıq yola, gözləyərdik atamızı.... Bir körpənin istədiyi bu yaşlarda ancaq oyuncaq, şirniyyat olar... Amma mən səni istəyirəm, Ata... Sən mənim əyləncəli günlərim idin... Uşaqlığım idin... Ağzımın dadı idin... Bir qızın atasına sevgisi bundan artıq ola bilməz ki... Bəs mənim əlimdən tutub, saçlarımı özün ağ bantla yığıb, birinci sinfə özün aparacağına söz vermişdin axı... Paltarlarımı özün seçəcəkdin, çantamı özün alacaqdın... Sonra da məni parka gəzməyə aparacaqdın... Qayığa mindirəcəkdin məni, ay Ata... Şəkil çəkdirəcəkdin mənimlə ki, qızımın birinci sinif xatirələri olsun. Niyə sözünü tutmadın? İndi mən məktəbə gedəndə uşaqların atası da yanında olacaq... Mənim isə gözlərim səni axtaracaq ki, bəlkə, hərbi geyimdə mənə sürpriz edəsən, gələsən... Hər kəs mənə "Bu qız Şəhid balasıdır", - deyə hörmət edəcək, amma ürəklərində: "Yazıq bir qızcığazdı, atasızdır", - deyə fağır kimi baxacaqlar... Həmin an gözlərim anama sataşacaq... Sənin şövqünlə dünyaya sevgi ilə baxan anamın ağlamaqdan gözünün nurunun itdiyini görəcəm... Mənə bildirməsə də, onun ürəyində dağ boyda dərd daşıdığını körpə ürəyim duyur, Ata....

Və mən yollara baxacam... Atamı gözləyəcəm... Gözlərim yaşaracaq, görəcəm ki, gəlmirsən... Göz yaşlarım anamın sənin Şəhidlik maaşınla aldığı paltarlarımı isladacaq... Sən həmişə bizim üzümüzün gülməyini istəyirdin, ay ATA... Amma özün də istəmədən bizi ağlar qoydun... Həyatda mənim hər şeyim olacaq, bilirəm... Amma heç kim Atamı mənə qaytara bilməyəcək... Kaş ki həyatda heç nəyim olmayaydı, bircə sən yanımda olaydın... Sənsiz heç nəyin mənası yoxdur, Atacan, sənin nəfəsindən başqa...

Amma üzülmə, Ata... Arzularını yerinə yetirəcəm, yaxşı oxuyacam, diş həkimi olacam. Sənə söz vermişdim ki, sənin dişlərini düzəldəcəm, amma qismət olmadı... Əsas odur ki, sən öz Sevincini ağ xalatlı həkim paltarında görəcəksən... Səni çox istəyirəm, mənim qəhrəman atam, mənim mərd Atam... Mənim yuxularımın qəhrəmanı ATAM ...

# Əliyev İsmayıl
## (Şəhid kiçik çavuş Əliyev Abbas)

9 yaş

Atam mənim qəhrəmanımdır. Mən atamla fəxr edirəm. Atamın şəhidlik xəbərini eşidəndə, yanımda kimsə atama "şəhid" deyəndə pis olmuşdum. Sonra anam, babam mənə atamın necə gözəl yerə köçdüyünü, şəhidliyin nə demək olduğunu başa saldı. İndi artıq pis olmuram, əksinə, fəxr edirəm kimsə mənə "şəhid oğlu" deyəndə.

Şəhidlər yaşayır. Düzdü, atamı görmürəm, amma bilirəm, cənnətdədi. O məni görür. Atam evdən çıxanda: "Mən gedirəm, artıq evdə kişi sənsən", - dedi. Ona gorə də mən böyümüşəm. İndi atam boydayam. Döyüşə girəndə də mənə zəng elədi: "Anana, nənənə yaxşı bax, onların sözlərindən çıxma", - dedi.

Atam mənim hər bir arzumu yerinə yetirirdi. Axırıncı gün də bir yerdə rayona getmişdik. Məni videoya çəkdi, şəkil çəkdirdik. Meşəyə girdik, orda ayı tələləri var idi. Mən bilmirdim. Əgər atam görməsəydi, mən tələyə düşəcəkdim. Həmin günümüz çox maraqlı keçdi, yaddaqalan oldu. Qayıdanda yolda atama zəng eliyib çağırdılar. Dedilər ki: "Təcili gəl". Başqa da nəsə dedilər, atam da çox sevindi. Mənə dedi ki: "Döyüşlər olacaq, torpaqlarımızı alacağıq, mən getməliyəm, əgər kimsə səndən soruşsa, de ki, atam qəhrəmandı, döyüşdədi". Sonra biz evə gəldik, mən atamı yola salmağa getdim. Üzünü elə axırıncı dəfə orda gördüm, o getdi. Sonra da şəhid oldu, qayıtmadı. Atam həmisə mənə deyirdi ki: "Özünə hər yerdə hörmət qazan". Mən atamla qurur duyuram. Hər yerdə də fəxrlə deyirəm: "Mən şəhid oğlu İsmayılam"



# Zeynallı Səfurə
## (Şəhid Zeynallı Müseyib)

9 yaş

Mənim adımı atam qoyub, öz anasının adıdır. Mənə həmişə "Səfurə" yox, "Sapış" deyirdi. Atamla xatirələrimiz çox azdı, çünki o həmişə işdə olurdu. Mən cəmi bir dəfə ad günümü atamla keçirmişəm, o da 6 yaşım olanda. Həmin gün atam mənə sarı rəngli paltar və sarı tort almışdı. Atam ancaq məzuniyyətlərə gələndə biz onunla doyunca vaxt keçirə bilirdik.

Bir dəfə atama zəng edib dedim ki: "Ata, velosiped istəyirəm". Heç bir gün keçmədi ki, atam anama pul yolladı, biz də gedib velosiped aldıq. Düzdü, mənim atamla xatirələrim çox azdı, amma onunla keçirdiyim hər saniyə gözümün qabağındadır.

Səni çox sevirəm, Canım atam. Kaş sən yanımızda olardın ...

# Qafarov Həsən

## (Şəhid Qafarov Zərbəli)

5 yaş

Mən atam üçün çox darıxıram. Biz atamla tez-tez gəzməyə gedirdik. İkimiz birlikdə maşın sürürdük. Mən atamla maşın sürməyi daha çox sevirdim. Çünki onda atam mənə maşın sürməyi öyrədirdi.

Atam mənə kiçik toy elədi. Mən toyda qəşəng rəqs edə bilim deyə məni rəqsə qoymuşdu. Toyum o qədər yaxşı olmuşdu ki. Hətta atam mənə surpriz də etmişdi, çox sevdiyim nağıl qəhrəmanlarını toya gətirmişdi. Atam mənim üçün çox gözəl toy etdi. Heç yadımdan çıxmır.

Mən atam üçün çox darıxıram, istəyirəm, yenə yanımda olsun. Bilirəm, o bizi göylərdən görür. Mən böyüyəndə atamın istədiyi kimi ağıllı oğlan olacam. Anamın sözünə baxacam. Dərslərimi yaxşı oxuyub polis olacam. Onda atam da sevinəcək.



# Qafarova Xalidə

## (Şəhid Qafarov Zərbəli)

5 yaş

Mən dədəmi çox istəyirəm, istəyirəm yenə evə gəlsin. Bizimlə çoxlu oynasın. Bizi gəzməyə aparsın. Amma anam deyir ki, dədəm bir də mən böyüyəndə, böyük qız olanda gələcək. Mən də onu gözləyəcəm. İstəyirəm ki, tez böyüyüm, dədəm də tez gəlsin. Mənim ad günümdə dədəm gələ bilməmişdi işdən, Demişdi ki: "Özüm gəlib keçirəcəm sənə ad günü". Amma sonra dədəm gəldi və mənə ad günü keçirtdi. Biz birlikdə tort kəsdik.

Mən dədəmi çox istəyirəm, lap dünya boyda.



# Mikayilov Nihat (Şəhid baş gizir Mikayılov Nahid) 13 yaş

Mənim atamla olan xatirələrim yerə-göyə, dağa-daşa, bir sözlə, bir ömür kitabına sığmaz. Atam bizim üçün elə bir ata olub ki, mən onunla sağlığında da, dünyadan köçəndən sonra da fəxr etmişəm. Bu, məlum məsələdir ki, hərbçilər evdən çox işdə olurlar.

Atam mənim hər ad günümdə olar və hədiyyəmi alardı. Bir dəfə isə belə bir hadisə olub: Ad günüm olan gün atama dedilər ki: "Bu gün işdə olacaqsan". Bu mənim üçün ən pis xəbər idi, çünki ən özəl günümdə atamın yanımda olmasını istəyirdim. Sakitcə bir qıraqda oturub ağlamağa başladım. Bir də gördüm ki,atam gəldi! Təsəvvür edə bilməzsiz, nə qədər sevindim! Bu mənim üçün ən dəyərli hədiyyə oldu.

Atam çox gözəl insan idi. Anam bəzi şeyləri bizə qadağan etsə də, atam icazə verərdi. Təbii ki, mənim atama olan sevgim elə atamın bizə olan övlad sevgisindən irəli gəlir. Onun məsləhətli sözləri qızıldan dəyərlidir. Təəsüf ki, sentyabr ayının 27-də səhər radələrində müharibə başladı. Müharibə başlamamışdan əvvəl 2 ay idi ki, hərbi səbəblərdən dolayı atam evə gəlmirdi.

Müharibə başlanandan 33 gün sonra atamla son danışığımız oldu. Səhər tezdən 6:30 radələrində atam ağır yaralanır, onu tez bir zamanda xəstəxanaya çatdırırlar, lakin həkimlərin göstərdiyi böyük səyə baxmayaraq, atam həmin gün şəhid olur. Atamın şəhid olması məni və ailəmizi çox ağlatdı.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!.



# Mikayılov Nicat (Şəhid baş gizir Mikayılov Nahid) 12 yaş

Mənim atam çox qəhrəman ata olub. Bizi hər uşaqlar günündə gəzməyə aparardı. Yay tətili olanda da biz atamla gəzməyə gedərdik. Hər ad günümüzdə atam evə gələrdi, hər bayramda evdə olardı. Atam bizə verdiyi sözü həmişə tutardı. Amma bir sözünü tutmadı. Demişdi ki, sənin 13-cü ad gününə gələcəm. Bilirəm, gəlməyəcək, amma mən hələ də onun yolunu gözləyirəm, çünki atamı çox sevirəm. Mən dərslərimi yaxşı oxuyuram, bundan sonra daha da yaxşı oxuyacam, atamın adına layiq olmalıyam. Lakin hərdən fikirləşəndə ki, daha heç vaxt atamı görməyəcəm, çox pis oluram.

Mənim çoxlu arzularım var. Hərdən düşünürəm: orta məktəbi bitirəcəm, son zəngim olacaq, amma atam yanımda olmayacaq ... İmtahan verib universitetə qəbul olacağam, atam mənimlə olmayacaq ... Universiteti bitirəcəm, yaxşı işim olacaq ... Sonra toyum olacaq, amma atam heç vaxt yanımda olmayacaq ... Mən bütün bunları atamsız yaşayacam ...

Bu məni çox üzür. Amma bilirəm. Bilirəm ki, atam hər zaman məni izləyir və izləyəcək. Cismən olmasa da, ruhən yanımda olacaq ... Çünki o məni çox sevirdi, mənim onu sevdiyim qədər ...

# İsmayılzadə Ömər (Şəhid mayor İsmayılov Natiq)

10 yaş

Mən atamla bağlı bir çox xatirələri bölüşə bilərəm. Atam əsl ata, əsl dost idi. O hər zaman bizim qayğımıza qalırdı. İşlədiyi müddətdə, yanımızda ola bilmədiyi vaxtlarda telefonla danışırdıq. Bizim dərslərimizlə, nə etdiyimizlə maraqlanırdı.

Bir dəfə atamla kənddə bağda gəzəndə mənə dedi ki: "Təmiz havadır, gəl idman et, görək neçə dəfə jim vura bilirsən?" Mənlə bərabər atam özü də idman etdi. Mənə bir çox şeyləri öyrətdi.

Mənə: "Hər zaman güclü ol, möhkəm ol, qorxunun üzərinə get", - deyirdi. Turnikdə dartınmağı, velosiped sürməyi, güləşi öyrətmişdi mənə. Yayda atam məzuniyyətə çıxanda bizi aparıb Qəbələnin bir çox gəzməli-görməli yerləri ilə tanış edirdi. Yadımda qalan ən maraqlı günlərdən biri də çaya getməyimiz olub. Mənim ayaqqabım ayağımdan çıxıb çaya düşdü. Atam onu çaydan çıxarıb mənə qaytarmaq üçün çay boyunca xeyli yol getdi.

Atam dərslərimlə də çox maraqlanırdı. Hər zaman: "Yaxşı oxu, gələcəyin parlaq olsun", - deyirdi.

Mənim ən böyük arzum həkim olmaqdır. Atam daima deyirdi ki: "Sən həkim olanda mən səninlə fəxr edəcəyəm. Sən hərbçinin həkim balası olacaqsan". Mən çalışacam ki, yaxşı oxuyum, xalqımıza savadımla yararlı həkim olum ki, atamın ruhu şad olsun.



# İsmayılzadə Gülər (Şəhid mayor İsmayılov Natiq)

7 yaş

Mənim atam çox yaxşı ata idi. Mən onu dünyalar qədər çox istəyirdim. Mənim atamla olan çoxlu xatirələrim var. Atam işləyəndə Murov dağında olduğu üçün dağdan düşə bilmirdi. Biz onu altı ay idi ki, görmürdük.

Bir gün anam məni bağçadan gətirəndə gördüm ki, qapıda kimsə məni qucağına götürdü, baxdım ki, atamdır! O gün çox sevinmişdim. O anı heç vaxt unutmayacağam.

Atam beş yaşım olanda mənə velosiped almışdı və sürməyi də öyrətmişdi. Atam yayda bizi çoxlu gəzintilərə aparırdı. Meşəyə gedəndə məni yelləncəkdə çoxlu yellətmişdi.

Yayda kənddə olanda atamla fındıq yığmağımız da yadımdadır. Onunla hər şey maraqlı olurdu. Atam bizi yayda şəlaləyə, çaya, parka aparırdı. Nə istəyirdiksə, edirdi bizim üçün. Mənim atam dünyanın ən yaxşı atası idi. Mən onu lap çox istəyirdim. Biz tətildən qayıdanda atam mənə çoxlu dəftərlər, rəngli qələmlər alırdı. Sentyabrın 15-də 1-ci sinifə gedəndə atam məni özü aparmışdı məktəbə. Hər səhər mən yuxudan oyananda atam deyərdi: "Gülər, oyan, səhər olsun, evimiz işıqlansın" ... Mən atamı heç vaxt unutmayacam ...

# İsmayılzadə Behbud və Davud

## (Şəhid mayor İsmayılov Natiq)

5 yaş

Biz 2020-ci ilin yayını unuda bilmirik. Demək olar ki, hər gün atamızın bizi yayda gəzməyə aparmağını xatırlayırıq. Atamız bizimlə gizlənqaç oynayırdı, həmişə də atamız gözlərini yumurdu, biz isə gizlənirdik. Atamız divanda uzanan kimi, biz onun üzərinə çıxıb onunla oynayırdıq. Biz atamızı dünyalar qədər çox istəyirdik.

Biz atamız üçün çox darıxırıq, istəyirik o gəlsin ...





# Əliyeva Xuşi

## (Şəhid kapitan Əliyev Fəzail)

8 yaş

Atam mənim qəhrəmanımdır. Mən atam ilə həmişə fəxr etmişəm. Onun üçün çox darıxıram. Atam məni çox sevirdi. Həmişə deyirdi: "Qızım, oxu, oxu, oxu. Çalış oxu, səni polis kimi görmək istəyirəm".

Heç vaxt atam mənim istəyimi yarımçıq qoymazdı. Hətta gecə saat 2 də olsa, istədiyimi tapıb, alıb gətirərdi. Atam həmişə deyirdi ki: "Qızım, sən çox xoşbəxt qızsan. Sən sevgi dolu ailədə böyüyürsən". Atam hətta anam ilə tanışlığından, onu necə incitdiyindən danışıb gülərdi. Anama yazdığı ilk məktublarından, ilk tanışlığından hər şeyi danışardı. Mən anam ilə atamın tanışlığını tam şəkildə bilirəm.

Allahdan çox arzulayıram ki, kaş atam olan illər geri qayıdardı. Mən atamın igid qızıyam, Atam həmişə belə deyirdi. Deyirdi ki: "Xuşi, dünya bir yana, sən bir yanasan". Mənim balaca qardaşım var. Onu atama çox qısqanardım. Atam da mənə deyirdi ki: "Xuşi, sən atanın ürəyisən". Atam məni "Xuşi xanım" deyə çağırırdı.

Bir gün parka getmişdik. Mən maşın sürəndə bilmədən maşınım gedib bir xanıma dəydi. Atam mənə dedi ki: "Qızım, qorxma, birinci dəfə sürəndə belə ola bilir". Sonra məni öpüb maşından çıxardı.

Mən həmişə xəyallarımda atamın balaca qızı olaraq qalacam. Mənim atam mənim qəhrəmanımdır. Səni çox sevirəm, ATA.

# Məmmədli Bahar
## (Şəhid Məmmədov Sadiq)

4 yaş

Bizim atamız dünyanın ən yaxşı atasıdı, həm də qəhrəmandı. Çox vaxt bizimlə birlikdə oyunlar oynayırdı. Mənim qəhrəman atam, biz ən çox birlikdə rəqs etməyi sevirdik. Anam deyir ki, atam müharibəyə getdi. Orda çoxlu düşmən öldürdü, qəhrəman oldu. Atam gəlib bizi Gəncəyə aparacaqdı, amma müharibə başladı. Atamız da getdi ermənilərі torpaqlarımızdan qovmağa. Orda çoxlu erməni öldürdü, əsl qəhrəman kimi döyüşdü, öz yoldaşlarını xilas etdi, amma özü şəhid oldu... 2 oktyabr 2020-ci ildə Murov dağında şəhid olub atamız... Gəlib bizi aparacaqdı oktyabrda, amma özü şəhid olaraq gəldi...

İndi isə biz iki bacı qabağımıza bir məqsəd qoymuşuq: Qəhrəman atamızın qəhrəman qızları olacağıq!



# Məmmədli Əsnad
## (Şəhid Məmmədov Sadiq)

6 yaş

Biz iki bacıyıq: mən və bacım Bahar. Bahar bağçadan, mən də dərsdən gələndən sonra ən birinci, atamızla oynadığımız oyunları oynayırıq, amma bu dəfə atam özü oturmur qarşımızda... Biz də atamın şəkillərini qoyuruq qabağımıza, ona baxa-baxa oynayırıq.

Ən çox birlikdə rəqs etməyi sevirik. Atam həmişə işdən gələndə axşamlar bizimlə birlikdə rəqs edirdi. Biz də həmin musiqiləri qoyub rəqs edirik. Bacıma deyirəm ki, biz rəqs edəndə atam bizi görür. Biz onu görməsək də, o bizimlə birlikdə rəqs edir, çünki anam deyib ki: "Şəhidlər ölmür..." Bunu hətta müəllimimiz də deyib!

Atamla yadımda qalan axırıncı danışığımızda mənə dedi ki: "Qızım, ananızın sözündən çıxmayın, bax mən burdan sizi izləyirəm, nə etdiyinizi görürəm, dərslərini yaxşı oxu, bacını da öyrət. Ata sizi çox sevir, lap çox, bunu da heç vaxt unutma, oldumu...?"

Hər kəsin atası qəhrəmandır, amma bizim Atamız bütün Azərbaycanın qəhrəmanı oldu, bizi "ŞƏHİD SADİQ MƏMMƏDOVUN QIZLARI" edərək zirvələrin ən yüksəyinə ucaltdı...

İndi mən də atama demək istəyirəm ki: "Ata, Baharla mən səni çox sevirik, lap çox! Sən bizim qəhrəmanımızsan. Sənə söz veririk, yaxşı oxuyacağıq, sənə layiq olacağıq ...

# Hacızadə Hicran (Şəhid mayor Hacıyev Elnur) 11 yaş

Mənim atam dünyanın ən mehriban, ən gözəl atası idi. Məni sevindirmək üçün əlindən gələni edirdi. Nə yaxşı ki, mənim atamla bağlı xoş xatirələrim var. Atam ön cəbhədə xidmət edirdi, ona görə də biz ondan ayrı qalırdıq. Mən Bakıda oxuyurdum, o isə hərbi hissədə qalırdı.

Yay tətillərində anamla mən atamın yanına gedirdik. Hətta bir dəfə atam məni özü ilə hərbi hissəyə aparmışdı. O, işlərinin dalınca gedib məni öz otağında qoydu. Onun üçün həm darıxdım, həm də tək qaldığım üçün qorxmuşdum. Sonra atam gəldi, mənim qorxduğumu görüb könlümü almaq üçün göl kənarına gəzməyə apardı. Orda çox gözəl bir gün keçirdik.

Atam üçün çox darıxıram. Həmişə Bakıya - bizim yanımıza gələndə, məni mütləq ya parka, ya kafeyə, ya da bibimgilə aparardı. Hər il ad günümdə mütləq mənim yanımda olurdu. Təəssuf ki, bu il ad günümü onsuz qeyd etdim, yəni atam olmadan... Atamın şəhid olması mənim üçün ağır itkidir. Mən atamı çox sevirəm və onunla fəxr edirəm.

Hərdən atam yuxularıma da gəlir, məni qucaqlayır, "darıxma" deyir ...

Heyif ki, atamı ancaq yuxularda görə bilirəm ...



# Əsədov Cəmaləddin (Şəhid baş leytenant Əsədov Əsəd) 13 yaş

Atam mənim idealımdı. Mən 44 günlük Vətən müharibəsi şəhidi, rayonumuzun fəxri Əsədov Əsədin oğluyam. Mən özümü, gələcəyimi onun simasında təsəvvür edirəm. O, gözəl insan, ideal ailə başçısı, qayğıkeş ata idi. Hər zaman bizə həyatın çox çətin və məsuliyyətli olduğunu öyrətməyə çalışır, bu yolda diqqətlə və səbrlə addımlamağı tövsiyə edirdi.

Atam bizim həyatımızı çox şən və maraqlı edirdi. O bizimlə bacardıqca çox vaxt keçirir, dərslərimizə necə hazırlaşdığımıza diqqət yetirirdi. Atamla bağlı xatirələrim olduqca çoxdur. Bu xatirələrin bir kitaba sığacağına inanmıram. İstərdim, atam yanımızda olsun və biz həyatımızın geri qalan hissəsini birlikdə yaşayaq. Amma bu mümkün deyil. Çünki o canını və qanını torpaqlarımızın bütövlüyü uğrunda qurban vermiş üç minə yaxın igidlərdən biridir.

Mən fəxr edirəm ki, elə atanın - Əsədov Əsədin oğluyam.

# Əsədov İslam
## (Şəhid baş leytenant Əsədov Əsəd)
## 12 yaş

Mən atamdan həmişə qürurla danışacağam, və fəxrlə deyəcəm ki: "Mən 44 günlük müharibədə zəfəri bizə bəxş edən qəhrəmanlardan biri şəhid baş leytenant Əsədov Əsədin oğluyam".

Atamla ömür yolumuz arzuladığım kimi uzun olmasa da, onunla birlikdə yaşadığımız qısa müddətdə çox gözəl xatirələrimiz var. İlk öncə, onu deyim ki, atam bizə çox bağlı biri idi. Məni, qardaşımı və bacımı hədsiz çox sevirdi. Bizə sevgisini heç vaxt göstərmirdi, amma bacım Selinə çox diqqət ayırırdı. Deyirdi ki: "Qızlar zərifdir, onları daha çox sevmək və qayğı göstərmək lazımdır. Oğlanlar isə gələcəyin kişiləridir, onlar gərək möhkəm olsunlar. Sevginin çoxluğu kişini zəiflədir". Bizə sevgisini büruzə verməməsinin səbəbini belə izah edirdi. Biz atamla istirahət günlərimizi çox gözəl keçirirdik.

Bəzən balıq tutmağa, bəzən də mövsümü olanda göbələk yığmağa gedərdik. Balıq tutanda tilova düşən hər balığa atam uşaq kimi sevinirdi. O qədər saf, məsum insan idi ki, ürəyinin gözəlliyi simasında əks olunmuşdu. Kaş gözümü yumub açanda atamı yanımda görəydim. Bircə dəfə, son dəfə qucaqlayıb doyunca ona sığınaydım.

Atamı çox sevirəm. O yaddaşımda 42 yaşında, gülərüz, mehriban, hamının hörmətini qazanan biri kimi qalacaq ...

Səninlə fəxr edirəm, ATA!!!



# Xəlilova Qunca
## (Şəhid kapitan Xəlilov Ruhin)
## 8 yaş

Mən atamla fəxr edirəm, nə yaxşı ki mənim elə atam var. Mənim atam bir qəhrəmandır. Heç kimin edə bilmədiyini mənim atam etdi.

Atam Ədliyyə Nazirliyində kapitan idi. Lakin buna baxmayaraq, müharibə başlanan kimi döyüşə yollandı. Əlbəttə, atam getməyə də bilərdi, ancaq getdi, həm də könüllü yazılaraq getdi. İsti otağını, ailəsini qoyub torpağa görə getdi. Belə ata ilə qürur duymaq lazımdır. Ona görə mən də atam kimi olacam, inşallah, mənim məqsədim yalnız atam kimi hüquqşünas olmaq, hüquqlarımızı qorumaqdır. Həmişə atam bizə belə deyib. Ona görə mən Xəlilova Qunca Ruhin qızı atamla həmişə qürur duymuşam, həmişə də qürur duyacam. Onun üçün nə qədər darıxsam belə. Mən hiss edirəm ki, atam bizim yanımızdadır, o bizi görür, göylərdən seyr edir, hər gözəl işlərimizi, uğurlarımızı görüb sevinir.

# Xəlilova Melisa
## (Şəhid kapitan Xəlilov Ruhin)

6 yaş

Mənim adım Melisadır, şəhid Xəlilov Ruhinin qızıyam. Mənim atamla bağlı çoxlu xatirələrim var. Biz atamla həmişə gözəl günlər keçirirdik. Atam mənə "Mənim idmançı qızım" deyirdi. Bilirsiz niyə? Çünki mən idmanla məşğul oluram. İndi mən yenə idmana davam edirəm. Atam istəyirdi ki, biz layihələrə qatılaq. Bizlə birgə o da sevinirdi. Bizim hər günümüz gözəl olurdu. Lap nağıl kimi ...

Mən gimnastika və rəqslə məşğul oluram. Atam bizi çox sevirdi. Hər axşam gələndə bizimlə oynayardı. Yorğun olsa da, o bizimlə birgə rəqs edirdi. Bizi həmişə gəzməyə aparırdı. O istəyirdi ki, bizimlə əylənsin.

Bizim ad günlərimiz atam olanda həmişə gözəl keçibdi. Axırıncı dəfə mənə çox gözəl ad günü elədi. Bu mənim atamla keçirdiyim axırıncı ad günüm oldu. Mən atam üçün çox darıxıram, istəyirəm o gəlsin. Mənim elə yaxşı atam var idi ki... Heyıf, mən o cür atanı itirdim.

Bizim xəyallarımız çox böyük idi. Çalışacam ki, atama nə söz vermişəmsə, hamısını yerinə yetirim. Mən düz 21 gün atam üçün dua elədim ki, gəlsin. Ancaq o gəlmədi ... Mən onda bildim ki, ALLAHA dua etmək nədir ... Anam mənə bayrağa bükülmüş qutunu göstərdi və dedi ki: "Ata burdadır, vidalaş atanla!" Onda bildim ki, atam yoxdu. Ondan sonra anamı incitməmək üçün bir daha "Atam hanı?" demirəm. Ancaq 21 gün "Ata" deyib ağladım, ona görə ki, mən atamın Melisası idim...



İndi mən gimnastika üzrə 1-ci seçilmişəm. Qalib olan kimi atamın qəbrinin yanına gəlib dedim ki: "Ata, bax, mən 1-ci oldum! Məktəbi qazandım, istədiyim özəl məktəbə qəbul oldum!" Bilirəm ki, atamın ruhu bunu eşidir və sevinir. İndi məni böyük məsuliyyət gozləyir.

Mən sənin qızınam, sənə layiq bir övlad olacam, inşallah! Ata, sənin qoyub getdiyin kresloda mən oturacam, buna inanıram. İnşallah, sən mənimlə həmişə qürur duyacaqsan, biz duyduğumuz kimi.

Mənim atam Ədliyyə Nazirliyinin kapitanı Ruhin Xəlilovdur. Onunla qürur duyuram. Fəxr edirəm, nə yaxşı ki mənim belə atam var. Qəhrəmanım mənim atam.

# Pənahlı Ümid
## (Şəhid Pənahov Bəhrəm)

8 yaş

Atamı çox istəyirəm, lap çox ... O hər gün işdən gələndə biz onu qarşılayırdıq. Onda onun üzündə elə gözəl təbəssüm olurdu ki ... Yadıma düşəndə mən onun o təbəssümlü simasını görürəm. Ata işdən yorğun gəlirdi, amma nə qədər yorğun olsa da, bizimlə gözəl vaxt keçirirdi.

Biz onunla cizgi filmlərinə baxırdıq. Gəzməyə gedirdik. Onun gözəl günləri bizimlə çox olub. Biz onunla fəxr edirik. O bizim qəlbimizdə yaşayıb, daim də yaşayacaq. O tək bizim yox, bütün Azərbaycanın qəhrəmanıdır.

Hərdən atam üçün lap çox darıxıram, hətta hərdən onun səsini eşidirəm sanki. Anamı incidəndə elə bilirəm, hardansa mənə baxır ...

Səni çox sevirəm, ata! Sənin istədiyin kimi ağıllı övlad olacam, buna söz verirəm.



# Pənahlı Rəsul
## (Şəhid Pənahov Bəhrəm)

6 yaş

Mən atanın ən ərköyün balası idim. Atam mənimçün hər nə istəsəm, edirdi. Heç kəsi mənim xətrimə dəyməyə qoymurdu. Mənə hər dəfə deyirdi ki, səni qəhrəman, igid oğul kimi görürəm. Düzdü, atam yanımda yoxdu, amma olmasa da, mən hər gün onunla danışıram. Çünki qəhrəmanlar ölmür, əbədi yaşayır, mənim də atam əbədi yaşayacaq.

Mən onunla fəxr edirəm. Mən də ona layiqli övlad olacam. Qəhrəmanlar unudulmur, hər zaman ürəklərdə yaşayır. Mənim atam da mənim ürəyimdə həmişə yaşayacaq.

# Rəhimov Əlövsət
## (Şəhid kiçik çavuş Rəhimov Nurlan)

9 yaş

Mən atamın sevimli övladlarından biri Əlövsətəm. Atam qəhrəman, igid idi. O Vətənini bizdən çox sevdi, ona görə də şəhid oldu. Mən onun üçün çox darıxıram, bacımla atamız haqqında danışırıq, amma anama deyə bilmirəm, çünki anam o saat ağlayır, həm də çox ağlayır. Mən atamı ad günümdə çox gözlədim, gəlib mənə planşet alacaqdı. Çünki mən ona söz vermişdim ki, dərslərimi yaxşı oxuyacam, o da mənə söz vermişdi ki, planşet alacaq. Amma atam gəlmədi. Bir daha da gəlməz, bilirəm.

Mənim atam hər istədiyimi mənə alırdı, özü ilə hər yerə gəzməyə də aparırdı. Atamı ildə cəmi bir ay görərdim. Onun üçün çox darıxardım, amma deyə bilməzdim, çünki fikir edərdi.

Atam məni həmişə hərbçi, general-mayor görmək istəyib. Çünki özünün ən böyük arzusu idi hərbçi olmaq. Oldu da, amma ondan daha da uca zirvəyə yüksəldi, şəhid oldu ...

Mən atamla həmişə fəxr etmişəm, indi də fəxr edirəm. Atam mənim qəhrəmanımdır. Onun üçün çox darıxıram.



# Rəhimli Səidə
## (Şəhid kiçik çavuş Rəhimov Nurlan)

6 yaş

Atam 5 yaşımda mənimlə idi, bizi gəzməyə apardı. Mənə ən gözəl istədiyim oyuncağı aldı. Mən onu dünyalar qədər çox istəyirdim. Onun bir nazı var idi, "Mənim cuppulu qızım" deyərdi mənə, məni çiynində gəzdirərdi.

Atam mənə velosiped sürməyi öyrətmişdi. İndi sürəndə atamı xatırlayıram, onun üçün çox darıxıram. Təkcə mən yox, anam da, elə hey ağlayır, gözünün yaşı bir-birinin ardınca axır üzünə. O da darıxır, bilirəm.



# Alıyev Abbas
## (Şəhid gizir Alıyev Vahid)

5 yaş

Mənim atam şəhid olub. Anam deyir ki, atam qəhrəman kişi idi. Atamın adı şəhid Gizir Alıyev Vahiddir. Mən də onun oğluyam. Mənim qəhrəman atam müharibədə çoxlu erməni öldürüb, qəhrəmanlıq göstərib, sonra da şəhid olub. Anam deyir ki, ata zirvəyə ucalıb, yəni şəhidlik zirvəsinə, lap göyə.

Atam çox mehriban idi, bizim qayğımıza qalırdı. Hər gün işdən gələndə yorğun olurdu, amma bizlə oynayırdı. Vaxt tapıb bizimlə əylənirdi, deyirdi, gülürdü, zarafat edirdi.

Mən atamsız çox darıxıram. O həmişə mənə deyirdi ki, mənim oğlum dərslərini yaxşı oxuyub polis olacaq. İnşallah, atamın bu yarım qalan arzusunu həyata keçirəcəm. Atam həm gizir idi, həm də tank sürənlərin komandiri. Müharibə zamanı Füzulidə vuruşub, orda igidlik göstərib, sonra da şəhidlik zirvəsinə ucalıb.

Ata, biz səninlə fəxr edirik!



# Rəşidli Amin
## (Şəhid gizir Rəşidov Tural)

9 yaş

Mənim atam xüsusi təyinatlı qüvvələrin giziri Rəşidov Turaldı. Atam Balakən rayonunda anadan olub. Mən atamı çox istəyirəm. Mənim əkiz qardaşlarım var. Fərid və Fazil. Atam bizim həmişə qəhrəman kimi, igid kimi böyüməyimizi istəyirdi.

O həmişə bizi idman zalına məşq eləməyə aparırdı. Biz tətildə dəniz kənarına istirahətə getmişdik. Atam bizə həm üzməyi, həm də balıq tutmağı öyrədirdi. Atam çox qəhrəman döyüşçü idi. O Vətənimizi çox sevirdi. Biz də Vətənimizi çox sevək deyə bizə başa salırdı.

Biz atamız üçün çox darıxırıq. O bizim hər şeyimizdir. Atam bütün Azərbaycanın və bizim qəhrəmanımızdır.

# Cəfərova Zümrüd 11 yaş

## (Şəhid gizir Cəfərov Etibar)

Mənim atamla olan çox xatirələrim var. Atam bizi çox sevirdi. Mən hər zaman atamdan soruşurdum: "Ata, ən çox kimi sevirsən?" O da deyirdi ki: "Qardaşını və səni". Atam bizim ən yaxın dostumuz idi. Biz onunla birlikdə olanda çox sevinirdik. Evə gec gəlsə də, yorğun olsa da, bizi yuxudan oyadıb, bizimlə söhbət edirdi.

Ad günlərimizdə ilk olaraq atam bizi təbrik edirdi. O bütün boş vaxtlarını bizimlə keçirirdi. Biz tez-tez gəzməyə gedirdik. Yadımda qalan xatirələrdən biri - biz Ağstafa rayonunda yaşayırdıq. Mənim ürəyim qarpız istəmişdi. Atam iş vaxtı rayona qarpız almağa getmişdi. Hərbi polis onu saxlamışdı. Onda atam demişdi ki: "Qızım üçün qarpız almağa gəlmişəm". Biz hər zaman bunu xatırlayıb gülürdük.

Atam bizimlə olanda çox xoşbəxt olurduq. O mənim və qardaşımın ali təhsil almasını çox istəyirdi. İndi biz onun bütün yarımçıq qalan arzularını həyata keçirmək üçün əlimizdən gələni edəcəyik. Mənim atam qəhrəmandır. Mən fəxr edirəm ki, şəhid Cəfərov Etibarın qızıyam.

Mən səninlə qürur duyuram, ATA. Sən hər zaman bizimləsən!



# Həsənzadə Melissa 6 yaş

## (Şəhid baş çavuşu Həsənov Tofiq)

Mən şəhid Həsənov Tofiqin qızıyam! Atamın yoxluğunu qəbul etmirəm, etməyəcəm də. Çünki o özü bizim yanımızda yoxdu, amma ruhu həmişə bizim yanımızdadı, eşidir, görür! Mən darıxanda atamın şəklini qucaqlayıb ona demək istədiyim sözləri deyirəm, eşitmək istədiklərimi danışıram.

Tez-tez atam mənim yuxuma gəlir. Novruz bayramı olanda sabahı mən yuxuda gördüm ki, atam mənim əlimdən tutub yaşıl çəmənlikdə gəzirik. Atamın bir əlində böyük gül dəstəsiylə anama tərəf qaçırıq! Yuxudan oyandım, ağladım, çünki yuxum o qədər həqiqətə bənzər idi ki, oyandığım üçün ağladım.

Biz sonra rayona - atamın məzarını ziyarətə getdik. Uzaq olduğu üçün tez-tez gedə bilmirik. Bu yaxında yenə məzarına getmişdik. Həmin gecə gördüm ki, atam məni bərk-bərk qucaqlayıb öpür, nənəmgilin evində yatırıq, anama danışdım. Hamı çox təsirləndi. Mənə dedilər ki, atan gecə səninləymiş. Atamla o qədər gözəl günlərimiz, xatirələrimiz var ki, danışsam, bir kitaba sığmaz.

Atam bizimlə uşaq kimi oyunlar oynayırdı. Bizi anam yedizdirə bilmirdi, atam elə gözəl nağıllar danışırdı ki, onunla yemək yeməyi sevirdim. Yay məzuniyyətlərində bizi gəzməyə rayonlara aparırdı. Balıq tutmağa gedirdik, o bizim bütün istədiklərimizi edirdi.

Atam hər il bizim ad günümüzü bir fərqli qeyd edərdi. Mütləq bizə sürprizlər edərdi. Mənim 4 yaşım olan gün atam

əyninə klon paltarı geyib gəlmişdi. Biz birinci onu tanımadıq, axırda atam güldü, gülüşündən tanıdıq. Başındakı maskasını çıxardıq, qucaqladı bizi. Bu il atamsız ilk ad günüm olacaq. 5 yaşımı da restoranda qeyd etmişdi. Orda dostlarım və mənim üçün əyləncə təşkil etmişdi. Qardaşımın ad günündə isə axşama özünü çatdırmışdı və bizim onunla son ad günü görüşümüz olmuşdu. O gün - 25 avqust günü son dəfə süfrəyə oturub yemək yeməyimiz oldu! Sonra atam 25 sentyabrda gəldi, gecə bizi yuxudan oyatdı, öpdü, qucaqladı. 2 saatdan sonra da getdi ... Bilsəydim, heç atamın əlini buraxmazdım, qoymazdım getsin...

Canım atam, gedərkən mənə boyunbağı verdi və dedi ki: "Bunu atandan yadigar saxlayarsan. Mən o boyunbağını ömürboyu saxlayacağam.

Mən atama söz vermişəm ki, dərslərimi yaxşı oxuyacam və savadlı bir həkim olacam, insanlara faydalı olmaq üçün. Balaca qardaşım deyir ki, daha sizin atanız mən olacam. Arada məni vurur, amma atam heç məni vurmazdı. Mənim atam dünyanın ən gözəl, ən mərhəmətli, ən açıqürəkli, mehriban, gülməli atasıydı. Mən onu çox sevirəm, həmişə də sevəcəm. Nə yaxşı ki, mənim atam Tofiqdi. Mən də onun kimi bir qəhrəmanın qızıyam.



# Əliyev Abbas (Şəhid Əliyev Tural)

## 6 yaş

Mənim 6 yaşım var. Atam şəhid olub. Mənim onunla bağlı çox xatirələrim var. Atam hər işdən gələndə qardaşıma və mənə oyuncaqlar alıb gətirərdi. Qardaşımla biz onun hər işdən gəlişini səbirsizliklə gözləyirdik. Atam işi ilə bağlı hər gün evə gələ bilmirdi, amma gün ərzində tez-tez zəng vurub bizlə danışırdı. O bizi hədsiz dərəcədə çox istəyirdi. Atam hər yeni ildə məni və qardaşımı parka aparardı, amma bu Yeni il atamsız keçdi.

Atam hər evə gələndə bizi əsgər salamı ilə salamlayardı. Bizə gələcəyin əsgərləri deyərdi, mən böyüyəndə hərbçi olacağam, atamın yolunu davam etdirəcəyəm. Anamız hər zaman bizə deyir ki: "Vətənimizi çox sevin, çünki atanız bu Vətən üçün, bu torpaq üçün, bu millətimiz üçün şəhid oldu. Gələcəkdə hamı azad yaşasın deyə canından keçdi. Canını bu millət, bu torpaq üçün fəda etdi". Atam müharibə başlamamışdan 2-3 gün qabaq evə gələndə mənə bayraq alıb gətirmişdi. Bayrağı mənə öpdürüb gözümün üstünə qoymuşdu.

Mən fəxr edirəm ki, belə bir iginin oğluyam, mən də böyüyüb atam kimi dövlətimizə layiqli bir oğul olacağıma söz verirəm. Qoy bayrağımız hər zaman yüksəklikdə dalğalansın. İndi atamız yanımızda olmasa da, bilirəm ki, ata hər gün cənnətdən bizə baxır.

Canım ATAM, Şəhid ATAM!

# Axundzadə Zərifə

## (Şəhid baş gizir Axundov Mirzə)

7 yaş

Atamı çox görmürdüm, həmişə Vətən keşiyində dururdu. O evə gələndə bütün vaxtını bizə həsr edərdi, onunla oyunlar oynayardım, məni gəzintiyə aparardı, dərslərimlə məşğul olardıq. Onunla keçən vaxtlar qısa olsa da, çox maraqlı idi. Evdə çox qala bilmirdi, hər gəlişində uzağı bir həftə qalardı. Atam gedəndə çox darıxırdım. O da bunu bilirdi, ona görə tez-tez zəng edər, mənimlə danışardı, mənə yenə gələcəyini, yenə gəzintiyə aparacağını deyərdi. Mən də səbirsizliklə atamın yolunu gözləyirdim.

Mən bilmirdim ki, bu dəfəki gediş atamın son gedişidir. Amma atam elə uca bir məqama yüksəldi ki, hər kəs ora yüksələ bilmir. Mən atamla fəxr edirəm. Ona layiq bir qız olmağa çalışıram. Bunun üçün dərslərimə fikir verirəm, yaxşı oxuyuram.

Mən bütün şəhidlərimizlə fəxr edirəm. Atamla isə qürur duyuram, onu çox, lap çox sevirəm.



# Nəzərov Uğur

## (Şəhid Nəzərov Emin)

6 yaş

Mənim atam şəhid kəşfiyyatçı Emin Nəzərovdur. Mənim atam çox Vətənpərvər idi. Bizi çox sevirdi, lakin Vətənini daha çox sevirdi. Atam bizə hər zaman Vətəni və anamızı sevməyi öyrədirdi. Çünki deyərdi ki, ana Vətən deməkdir. Mənim ən böyük arzum atamı bir dəfə görməkdir, çünki mən atam üçün çox darıxıram. Onun üçün ağlayıram. Onda anam deyir ki: "Sənin atan qəhrəmandır, o bizi göylərdən seyr edir"

Atamla o qədər arzularımız var idi ki, hamısı yarımçıq qaldı. İndi isə ən böyük arzum atamı biranlıq da olsa, görmək və qucaqlamaqdır. Atamın arzusu məni polis görmək idi. Mən də çalışacağam ki, atamın arzusunu həyata keçirim. İstəyirəm ki, atam da mənlə fəxr etsin, necə ki, mən atamla fəxr edirəm.

Ata, sən rahat ol, İnşaallah, o gün gələcək. Ancaq çox pis oluram ki, bütün bunlar sənsiz olacaq. Kaş bizimlə birgə olardın, yanımızda olardın.

Atam mənə kiçik toy etmək istəyirdi. Bir gün dedi: "Gedirəm döyüşə, əgər sağ gəlsəm, balam, Canım oğlum, Uğurum, sənə ürəyimcə toy edəcəm". Ancaq atam o arzusunu həyata keçirə bilmədi.

Canım atam, sənin üçün çox darıxıram. Mən fəxr edirəm ki, elə bir qəhrəmanın oğluyam.

Atam mənim qəhrəmanım,
Ucalıb göylərə adın.
Mən atamla fəxr edirəm,
Ucaldacam Emin adın.

# Nəzərli Nur
## (Şəhid Nəzərov Emin)

5 yaş

Mənim 5 yaşım var. Atam çoxdan evə gəlmir. Anam deyir ki, ata qəhrəmandı, o artıq göydə yaşayır. Ona görə də daha gəlməyəcək. Ata bizə göydən baxır, nə etdiyimizi görür. Amma mən atam üçün çox darıxıram. İstəyirəm, o gəlsin, daha göydə yaşamasın. Bizim yanımıza gəlib bizlə bir yerdə yaşasın.

Ata evdə olanda mənə deyirdi ki: "Qızım, böyüyəndə dərsini yaxşı oxuyarsan, həkim olarsan, kim xəstə olsa, onu sağaldarsan". Mən də gözləyirəm, daha az qalıb məktəbə getməyimə. Dərsimi yaxşı oxuyanda ata gələcək.

Ata, nolar, tez gəl. Sənin üçün çox darıxıram. Uğur deyir ki, sən qəhrəmansan. Biz də gərək səninlə fəxr edək. Səni çox sevirəm, ata!



# Vəlişova Xatirə
## (Şəhid çavuş Vəlişov Zahir)

13 yaş

Mən atamla hər zaman fəxr edirəm. Onunla bağlı çox xatirələrim var. Atam bizi və biz də atamızı çox sevir, onun hər axşam işdən evə gəlişini səbirsizliklə gözləyirdik. Atam bir neçə gün evə gəlməyəndə çox darıxırdıq. Deyirdik, görəsən, ataya nə olub ki, evə gəlmədi. Atamın qapıdan içəri girməyi bizim üçün bir dünya idi. O güləndə bizim də üzümüzdə güllər açırdı.

Keçən il 1 May günündə atam bizi əvvəl meşəyə, sonra parka gəzməyə apardı. O heç vaxt heç nədən yorulmazdu, hər zaman istəyirdi ki, evdə qalan günlərini bizimlə keçirsin. O istəyərdi ki, həmişə bizim yanımızda olsun, biz də onun yanında olaq. O bizdən ayrı qala bilmirdi, biz də onsuz qalanda çox darıxırdıq. İşə gedəndə tez-tez bizimlə əlaqə saxlayırdı, deyirdi ki: "Qızım, qaqana de, darıxmasın, inşaallah, axşam yanınıza gələcəm, yenə bir yerdə olacağıq, birgə danışıb-güləcəyik".

Həmin gunlər atam əvvəlki kimi bizim yanımıza gələ bilmirdi. Amma bizdən narahat idi, ona görə də bizimlə əlaqə saxlayırdı. Deyirdi: "Qızım, siz mənimlə fəxr eləyin ki, mən sizi tək qoymuram, tezliklə gələcəm!" Biz də hər zaman atamızla fəxr edirdik.

Ata, sən hər zaman yanımızda olmasan da, qəlbimizdəsən. Biz bu sözləri hər zaman deyirik, biz fəxr edirik ki, bizim belə bir qəhrəman atamız var. Mən fəxr edirəm ki, Vəlişov Zahirin qızıyam.

Ata, sənin yerin ürəyimizdədir, hələ də biz sənin uca boyunla qapıdan içəri girişini gözləyirik. Uca səsinlə yenə bizi çağırmağını istəyirik.

Biz atamın arzularını gerçəyə çevirəcəyik. Onun sönən ocağını biz yandıracağıq. Mən atama layiqli övlad olacağam. Atamın adını hər zaman ucaldacağam...





# Ömərov Elçin

## (Şəhid baş gizir Ömərov Elvin)

6 yaş

Mənim Hənifə adlı bir bacım da var. Atam bizi - bacımla məni tez-tez gəzməyə aparardı. Bizi çox sevərdi. Mən atamın yanında olanda ən xoşbəxt adam olurdum. Axırıncı dəfə sentyabrın 6-da atamızla birlikdə gəzməyə getdik, həm də hamımız, bütün ailə bir yerdə. Orda atam bizə o qədər diqqət, qayğı göstərdi ki, dünyalar bizim oldu. Həmin gün şəkillər də çəkdirdik çoxlu. O şəkillər İndi də durur.

Amma sonra müharibə başladı. Atam da döyüşə getdi. Oktyabr ayının 10-da şəhid oldu. Yalnız kürəyində bir güllə yarası, ürəyində güllə dəliyi var imiş. Sonra da atamı dəfn etdilər. Onda bizə o qədər adam gəlmişdi ki ...

Bacımla biz sorma konfetləri çox sevirdik. Atam da hər gün evə gələndə bizə sorma konfetlər alıb gətiriirdi.

Mən daha "sorma" konfet istəmirəm, heç vaxt da istəməyəcəm. Atamın gəlməsini istəyirəm. Səninçün çox darıxıram, ata, nəolar, gəl ...

# Əmrahova Zərda

## (Şəhid baş çavuş Əmrahov Emin) 13 yaş

Mən Ağstafa rayonunun Qırılı kəndində atam, anam, bir bacım və iki qardaşımla birgə yaşayırıq. "Yaşayırıq" - deyirəm, çünki atam ölməyib, sadəcə, şəhid olub və hamı da deyir ki: "Şəhidlər ölmür!" 13 ilin hər gününə aid xatirəmiz var atamla.

Mən atamın ilk övladıyam. Aramızda xüsusi bir bağlılıq var idi. Hərbiyə işə çağırıldığı gün evimizdə toy-bayram etmişdik. Atam sevincindən hər birimizi qucağına alıb evdə gəzdirmişdi. Dərslərimlə xüsusi məşğul olurdu. Nə qədər işi olur olsun, vaxt tapıb valideyn iclaslarında həmişə iştirak edirdi. Sinfimizdə məndən başqa atası hərbçi olan yox idi. Hər dəfə o məktəbimizin qapısından hərbi formada daxil olanda məni xüsusi bir fərəh bürüyürdü. Fəxr edirdim onunla. Axı mənim atam hərbçi idi!

Axşamlar işdən evə gələndə bacı-qardaş hər birimizin ondan xüsusi istəyi olurdu. Və atam evə gələndə mütləq istədiyimiz şeyi alıb gətirirdi.

Bəzi vaxtlar günlərlə evə gələ bilmirdi. Özü gələ bilmirdi, amma bizi görmək üçün darıxır, ona görə də evə taksi göndərib bizi iş yerinə apartdırırdı. 5 dəqiqə də olsa, bizi görüb geri göndərirdi. Atamın bu həyatda ən çox bağlı olduğu şey ailəsi idi.

Təhsil almağımız onun üçün çox vacib idi. Ona görə də həmişə anama deyirdi ki, nə olur olsun, övladlarıma təhsil verəcəm. Ola bilər ki, atam cismən yanımızda deyil, amma



biz onun bu istəyini mütləq yerinə yetirəcəyik. O da göylərdən bizə baxıb fəxr edəcək. bizim onunla fəxr etdiyimiz kimi.

Mən də atam kimi Vətənə, millətə xeyirli Vətəndaş olacam.

Yanımızda olmadığı üçün kədərlənirəm. Amma həm də şəhid övladıyam, bununla qürur duyuram, başım dik, alnım açıqdır. Axı biz neçə-neçə qəhrəman Eminlərin sayəsində rahat yatırıq.

Bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirəm!



# Quluzadə Ümid
## (Şəhid çavuş Quliyev Kamran)

6 yaş

Mən atamı çox az görmüşəm, amma biz atamla çox gözəl zamanlar keçirirdik. Atamla keçirdiyim vaxtlar çox dəyərlidir, mən onu heç vaxt yadımdan çıxarmayacam. Atamın vaxtı olan kimi biz - atam, anam, bir də mən qohumlarımızın evinə qonaq gedirdik. İndi isə atam daha yoxdur, bir də heç vaxt gəlməyəcək...

Belə çıxır ki, o günləri bir də yaşamayacağam. Bunu fikirləşəndə çox pis oluram. Anlayıram ki, mənim üçün bütün həyatın anlamı atam imiş ...

Atamla anam mənim həyatımda ALLAHIN mənə verdiyi ən gözəl hədiyyədir. Atam yanımızda olmasa da, mən onun varlığını hər zaman hiss edirəm. Atamla olan xatirələrim bitməz, tükənməz. Nə qədər yazsam, az edər, çünki o xatirələr kiçik cümlələrə sığmaz.

Sadəcə bunu deyə bilərəm ki, Atam yanımda olmasa da, mənim hər zaman qürur mənbəyimdir. Böyüklərin dediyi kimi, Atam ölməyib, hər zaman sağdır.

Çünki Şəhidlər ölməz...



# Ağayev Orxan
## (Şəhid baş gizir Ağayev Zülfü)

11 yaş

Mənə "Atam haqda xatirələrim"i yazım, - deyirsiz. Siz bunun nə qədər ağır olduğunu bilirsiz? Hələ doya bilmədiyim atamdan necə keçmiş zamanda danışım axı? Onun ölümünü qəbul edə bilmirəm axı ... Gözlərim yolda hər gün onu gözləyirəm axı ... Hər dəfə qapı döyüləndə gələnin atam olduğunu düşünürəm axı ...

Mənim atamla gözəl günlərim çox olub. Məsələn, atam işdən tez gələndə həyətdə oturub çay içərdik. Axşam evə gələndə belə çayı çöldə içərdik. Atam ancaq bazar və şənbə günləri evə günorta gələndə məni gəzməyə aparırdı. Hara getsə, məni öz yanından əskik etmirdi. Hər yerə mənimlə gedərdi, elə bir gün olmazdı ki, mənsiz bir yerə getsin. Nə istəsəm, onu alıb gətirərdi. Mənim üçün hər yeri gəzib, axtarar, axır ki istədiyimi tapıb alar, gətirərdi. Atamla olan günlərim unudulmaz günlərdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin...

# Musazadə Ülvi

11 yaş

(Şəhid baş kəşfiyyatçı Musayev Sahib)

Mən 16 il XTQ-nin Yaşma hərbi hissəsində baş kəşfiyyatçı işləmiş Musayev Sahibin oğlu Musazadə Ülviyəm.

Atam haqqında xatirələrimi günlərlə danışsam, bitməz. Mənim atam çox mülayim, ailəsini, Vətənini çox sevən bir insan idi. 36 illik ömrünün 16 ilini hərbidə qulluq etmişdir.

Atam, demək olar ki, çox vaxt təlimlərdə, işdə olurdu. Evə gəldiyi vaxtda sanki evimizə günəş doğurdu. Evimizə şənlik, sevinc sanki atamla birgə gəlirdi. Evə yorğun gəlməsinə baxmayaraq, həmişə dərslərimizlə maraqlanar, günümüzün necə keçdiyini soruşardı. Boş vaxtlarında mənimlə, bacımla müxtəlif oyunlar oynayar, dərslərimizdə köməklik göstərərdi. Məzuniyyət veriləndə atam bizi həmişə gəzməyə aparardı. Azərbaycanımızın bütün dilbər guşələrini gəzdirər, bilmədiklərimiz barədə məlumat verərdi.

Elə bil atamın ürəyinə dammışdı şəhid olacağı. Bir dəfə bacım atama belə bir sual verdi: “Ata, Qarabağı nə vaxt alacaqsız, biz nə vaxt gedib gəzəcəyik o torpaqları?” Atam bacıma dedi: “Biz gedib Qarabağı alacağıq, adımız tarix kitablarına düşəcək”. Mən də, bacım da atasız çox darıxırıq. Amma bilirəm ki, atam ölməyib, şəhid olub. Şəhidlər ölmür. Atamın ruhu həmişə başımızın üstündədir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



# Hümbətli Aqşin
# Hümbətli Aylin

7 yaş

5 yaş

(Şəhid kiçik çavuş Hümbətov Şahin)

Mənim 7 yaşım var. Bacım Aylinin isə 5 yaşı var. Biz hər gün anamla bərabər atamı yadımıza salırıq, onunla keçən xoş xatirələrdən danışırıq. O xatirələrdən ki, onların əvəzini dünyaları versələr də, qaytara bilməz, heç nə əvəz edə bilməz.

Atam bizim təkcə atamız deyildi, o bizim həm də ən yaxın dostumuz idi. Atamla hər şey başqaydı, hər şey çox gözəl idi. Amma İndi atam yoxdur, hər şey keçmişdə qaldı, yarıda qırıldı. Atamlı günlər üçün çox darıxıram.

Heç yadımızdan çıxmaz, atam işdən gələn kimi yorğun olsa belə, bizimlə oynayardı, bizim qayğımıza qalardı. Onunla o qədər xoş xatirələrimiz olub, elə gözəl günlər keçirmişik ki, saydıqca qurtarmaz, bitməz. Onunla gəzməyə getməyimiz, velosiped sürməyimiz, futbol oynamağımız, dondurma yeməyimiz, teatra getməyimiz, dənizdə çimməyimiz, bir sözlə, atam ilə hər şey gözəl idi.

Düzdü, anam çalışır ki, yenidən həmin günləri bizə yaşatsın, amma olmur, çünki ailəmiz yarımçıq qaldı, atam şəhid oldu. Mən bilirəm ki, şəhidlər ölməzdir, atam bizə göydən baxır, amma istəyərdim ki, hamının atası kimi mənim də atam yanımda olsun. Atam bizim qürur mənbəyimizdir, onunla fəxr edirik. Böyüyəndə mən də atam kimi hərbçi olub, şəhidlərimizin, qazilərimizin intiqamını almaq istəyirəm.

Ucalıb şəhidlik zirvəsinə sən,
Xalqının qüruru, həm fəxri oldun.
İndi hamı deyir, Şahinə əhsən,
Can verib Vətənə sən də vuruldun !
ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!





# Məmmədli Məryəm
## (Şəhid baş çavuş Məmmədov Sahib)

7 yaş

Mənim adım Məryəmdir. 7 yaşım var. Həyatda ən çox istədiyim insan atam, ən çox sevdiyim şey isə atamla vaxt keçirmək idi. Çünki o bizlə bir yerdə olanda hər şey çox gözəl və əyləncəli olurdu. Çoxlu deyib, gülürdük. Bizi parka aparırdı. Orda maşınlara minirdik. İşdən gələndən sonra sürpriz edib, bizi gəzməyə aparırdı.

Hər bazar günü olanda o istəmirdi ki, evdə vaxt keçirək. Bizi gəzdirirdi, maraqlı vaxt keçirirdik. Atamla sonuncu ad günümü 6 yaşım tamam olanda keçirdim. O mənə oyuncaq almışdı. Mənim atam mənim qəhrəmanımdı. İndi isə o, şəhid olub. Mən onunla fəxr edirəm.

# Hüseynli Leyla
## (Şəhid baş gizir Hüseynli İlqar)

15 yaş

Leyla özü danışa bilsəydi, nələr yazardı, bilmirəm, mən anası olaraq Leylanın dilindən deyirəm ki, atası üçün çox darıxır.

Leyla bizim ilk övladımızdır, ağır autizim xəstəsidir, nitqi yoxdur. Başqa uşaqlar kimi "ana", "ata" deməsini eşitməsək də, bir valideyn olaraq Leylanı başımızın tacı kimi saxladıq. Qız uşağı olduğu üçün bəzənməyi, dırnağına lak çəkməyi xoşlayırdı.

Bir gün atası evdə olan vaxt lakı götürüb gəldi, atasına uzatdı ki, açsın. Əvvəl ağzını, sonra da əllərini uzatdı atasına ki, lak çəksin. Sonra özü atasının dırnaqlarını laka boyadı, həmin vaxt hərbi hissədə həyəcan siqnalı verdilər və sıra baxışı oldu. İlqardan soruşublar: "Bu nədi, dırnaqların niyə belədi?" Cavab vermişdi ki: "Qızım edib". Xatirələrimiz çoxdu, danışmaqla, yazmaqla, bitmir.

Mən bu gün Leylanın baxışından, gözlərindən oxuyuram atası üçün darıxdığını ... Nə deyə bilərəm ki ... ALLAH cəmi şəhidlərimizə rəhmət eləsin ...



# Hüseynli Hüseyn və Həsən
## (Şəhid baş gizir Hüseynli İlqar)

5 yaş

Həsən və Hüseyn - bizim 5 yaşımız var. Biz atamızı çox görə bilmədik, amma onu çox istəyirik. Anamız deyir ki, artıq 8 ay keçib, amma hələ də atamız gəlib çıxmayıb, biz onun yolunu gözləyirik. Kaş yenə zəng edib danışa bilərdik.

Düzdü, anamız da bizimlə oynayır, lap atamız kimi. Amma atam başqa cür idi ... O bizə nə istəsək, alırdı, bizi parka aparırdı, çoxlu maşın alırdı. Biz atamız üçün çox darıxmışıq, istəyirik, daha gəlsin. Hamının atası var, bizim niyə atamız yoxdur? Niyə gəlmir? Axı müharibə qurtarıb, bəs niyə gəlmir?

Hər gün axşam yatanda atamız haqqında düşünürük, ən çox yadımızda qalan axırıncı dəfə getdiyi gündür. Bizə "gələcəm" dedi, amma gəlmədi. Biz də böyüyəndə atamız kimi güclü olacağıq, çünki atamızın tankı var idi, bizim də tankımız olacaq. Amma biz atamız kimi getməyəcəyik, getsək də, yenə gələcəyik!

# Məmmədova Aylin 6 yaş
# Məmmədova Selin 5 yaş
## (Şəhid mayor Məmmədov Xəyal)

Atam şəhid olanda bacımın 4, mənim isə 5 yaşım var idi. Atamın işinə görə biz Füzulidə yaşayırdıq. Atam hər axşam işdən gələndən sonra bizi maşınla gəzdirirdi. O, maşın sürəndə mən onun qucağında otururdum, o da mənə maşın sürməyi öyrədirdi. İşdən nə qədər yorğun gəlsə də, bizimlə oyunlar oynayırdı.

Hər bayramda, hər ad günlərimizdə atam yanımızda idi və biz çox xoşbəxt idik. Gecə saat neçə olur olsun, biz nəsə istəyəndə atam gedib bizə alırdı. O bizə tez-tez sürprizlər edirdi. Keçən yay atam bizi dənizə apardı, orda mənə üzməyi öyrətdi. Atam qarı çox sevirdi, qar yağanda biz sevinirdik. O bizə qardan böyük bir adam düzəltmişdi, qartopu oynamışdıq. Atam müharibəyə gedəndə biz onunla telefonda danışdıq. O söz verdi ki, tezliklə gələcək, yenə də bizi gəzməyə aparacaq. Amma o şəhid oldu, gələ bilmədi. Anam deyir ki, atam göydədi, Allahın yanında. O bizi görür.

Mən atamı çox sevirəm, onunla qürur duyuram. Yaxşı ki, mən belə bir qəhrəmanın qızıyam. Biz səni sevirik, ATA! Kaş mənim yuxuma gələsən. Sənin üçün çox darıxmışam.



# Yusubova Ayan 5 yaş
## (Şəhid leytenant Yusubov Elzar)

Mənim adım Ayan, 5 yaşım var, mən atamı çox sevirəm, lap çox. Atam işdən gələndə qapı döyülən kimi qaçırdım qapının ağzına, atam içəri girən kimi tez qucağına atılırdım, qucaqlaşırdıq, onun işdən gələn vaxtlarında nənəmlə, anamla həyətdə gözləyirdim, bəzən isə parkda oynayırdım. O da işdən gələndə gəzirdik, sonra evə gəlirdik. Amma atam ön xətdə işləyəndə onu görmürdüm. Hər gün anamla birgə dua edirdim ki, atam gəlsin, bizi də aparsın.

Atam zəng vuranda mən nazlanırdım, danışmırdım, anam telefonu tuturdu qulağıma. Atam dediyirdi ki: “Ata qurban, ata qurban”. Sonra da mən deyirdim ki, “Həəəə, darıxmışam, nə vaxt gələcəksən?” Deyirdi ki: “Mələyim, gələcəm, səni Beyləqana gətirəcəm”. Amma gəlmədi, məni də Beyləqana aparmadı, atam şəhid oldu. Allah babanın yanına getdi .... Mən atamı çox sevirəm.

# Qənbərova Nazlı

## (Şəhid Qənbərov Bilal)

## 4 yaş

Atam yadıma həmişə mehriban, üzügülər, ucaboylu gəlir. O mənim ən yaxşı oyun yoldaşım idi. Mən hələ yaxşı danışmayanda bizim ikimizin xüsusi bir "dilimiz" vardı. Nənəm zarafatla onu: "NazBiloş dili" adlandırırdı. Biz bu dildə danışanda hamı gülürdü, atam şəhid olandan sonra evimizdəkilərdən çoxu mənə təsəlli olsun deyə atamın əvəzinə mənimlə o dildə danışmaq istəyirlər, amma heç kim bunu bacarmır ...

Atam məni gəzməyə aparırdı, cəbhəyə getməmişdən bir gün qabaq anamla məni götürüb gəzməyə getdik. Planşet aldı mənə, o planşet atamdan qalan son yadigardı mənə... O gün atamın bizi apardığı restoran yadımdadı. Bu yaxınlarda nənəmlə anam məni ora apardılar. Mən qırmızı xalça ilə örtülmüş pilləkənləri görən kimi dedim: "Biz bura atamla gəlmişdik". Sonra qabağa düşüb getdim, atamla oturduğumuz masanın yanına getdim: "Bax biz burda atamla oturmuşduq" dedim. Anamla nənəm ağladılar. Mən onda atamın şəhid olmasını, onu bir daha görməyəcəyimi bilmirdim... Elə hey atamın yolunu gözləyirdim. Hər qapımız döyüləndə "Atam gəldi" deyə qapıya qaçırdım... Sonra anam məni onun məzarına apardı ... Mən atamın yeni evinin orda olduğunu bildim ... O gündən atamı qəlbimə köçürdüm, onunçün darıxanda şəkli ilə danışıram, deyirəm: "Ata, daha qəlbimdən çıx, axı mən səni görmək istəyirəm".

Sonra başa düşdüm ki, daha atam heç vaxt gəlməyəcək. Və mən İndi bilirəm ki, mənim atam bir qəhrəmandır. Anam deyir ki: "Sən qəhrəman qızı kimi ən yaxşı, ən ağıllı qız olmalısan..."



# İsmayılzadə Əsnad

## (Şəhid baş gizir İsmayılov Camal)

## 10 yaş

Mən İsmayılzadə Əsnad Camal qızıyam. Vətən müharibəsi qəhrəmanı Camal İsmayılovun qızıyam. 3-cü sinifdə oxuyuram, mənim 10 yaşım var.

Mən atam üçün çox darıxıram. Hər gün, hər gecə onu fikirləşirəm. Atamla oynamaq, gəzməyə getmək, birgə süfrə arxasında oturmaq ... Hər şey o qədər gözəl idi ki.

Müharibə atamı bizdən aldı, mən istəmirəm, bir də müharibə olsun. Çünki uşaqlar atasız qalır. Mən atamı çox sevirdim. O işdən yorğun gəlsə də, bizimlə evdə oyunlar oynayırdı, bizi gəzməyə aparırdı. Nə istəyirdiksə, yerinə yetirirdi. Mən onun nazlı qızıydım ...

Atam istəyirdi ki, biz yaxşı oxuyaq, dil öyrənək, səviyyəli olaq.

Bizi bacımla üzgüçülüyə də yazdırmışdı. Biz yarışlarda iştirak edirdik, hətta medallar da qazanmışdıq. Atam istəyirdi ki, biz bacımla xaricdə təhsil alaq.

Mən çox darıxsam da, atam yanımda olmasa da, onun arzularını yerinə yetirməyə özümə söz vermişəm.

Mənim qəhrəman atam, səninlə fəxr edirəm.

# İsmayılzadə Əsmət
## (Şəhid baş gizir İsmayılov Camal)

11 yaş

Mən Vətən müharibəsi qəhrəmanı Camal İsmayılovun qızı Əsmətəm. 5-ci sinifdə oxuyuram.

Atamla çox gözəl xatirələrim var. 2020-ci il sentyabr ayının 19-da 11 yaşım oldu. Atam evə sürprizlərlə, tortla gəldi və bizi restorana apardı. Biz orada çox gözəl vaxt keçirdik, yedik-içdik, güldük-oynadıq, çoxlu şəkillər çəkdirdik. İndi o şəkillərə baxdıqca atamın gözlərinin dərinliyindəki o hüznü, o intizarı görürəm. Elə bil ki, atam bizimlə axırıncı dəfə bir yerdə olacağını bilirmiş.

Atam tez-tez təlimlərdə olurdu. Axı o hərbiçi idi. Vaxtının çoxunu işdə olurdu. Atam evdə olanda çox sevinirdik. O bizimlə oyunlar oynayırdı, dərslərimizlə maraqlanırdı. Çoxlu oyuncaqlarımız olmasına baxmayaraq, bizə nağıl qəhrəmanlarının evciklərini qururdu.

Atam məzuniyyətə çıxan kimi bizi Azərbaycanımızın bütün gəzməli-görməli yerlərinə aparırdı. Özünün getdiyi bütün yerlərdən bizə çoxlu hədiyyələr gətirərdi.

Hərdən fikirləşirəm ki, daha onunla dağlara çıxmayacam, xizəklə sürüşməyəcəm, dənizə getməyəcəm, əyləncə mərkəzlərinə, bulvara, parka getməyəcəm, daha döyülən qapını atama açmayacam, daha onun mehriban "qızım" deyən səsini eşitməyəcəm... və daha nələr...

Bunları fikirləşmək istəmirəm. Deyirəm: "Heç nə istəmirəm, mənim qəhrəman atam, səninlə yol getmək belə gözəl idi. Sənin arzuladığın kimi övlad olmağa söz verirəm, mənim fateh atam.



# Abbaslı Siruz
## (Şəhid leytenant Abbaslı Teymur)

9 yaş

Mənim atam qəhrəmandır. Onun üçün çox darıxırıq. Mən onu çox sevirəm. O bizimlə tez-tez vaxt keçirirdi, birlikdə oyunlar oynayırdıq. Bizi gəzməyə aparardı. Qardaşımla mənə velosiped sürməyi də atam öyrədib.

O bizi çox sevirdi, bizimlə qürur duyurdu, İndi isə biz atamızla qürur duyuruq. Atam mənə demişdi ki, səndən yaxşı güləşçi olacaq, ona görə də səni güləşə yazdıracam. Çünki biz atamla evdə həmişə məşq edirdik. O, işdən yorğun gəlsə də, bizim ilə vaxt keçirməyi çox sevirdi. Mənim atam, həmçinin hərbi çox gözəl bilirdi. Həmişə bizə əsgərlik illərinə aid xatirələrini danışardı. Bizə deyərdi ki,Vətənimizi hər kəsdən çox sevməliyik. Həmişə qorumalıyıq. Mən atamın oğlu olduğum üçün fəxr edirəm. Yaxşı ki, mən qəhrəman övladıyam.

# Abbaslı Feyruz
## (Şəhid leytenant Abbaslı Teymur) 10 yaş

Mənim atam igiddir. Mən onu çox sevirəm, onunla qürur duyuram. Çünki o bir qəhrəmandır. O çox mərd, ağıllı və xeyirxah insan idi. Çalışırdı ki, hamıya kömək etsin.

O, anamı və bizi çox sevirdi. Həmişə bizim qayğımıza qalırdı. Onun qəlbi də özü kimi təmiz idi. İşdən gec gəlməyinə baxmayaraq, axşam bizimlə vaxt keçirmədən, bizi öpmədən yatmazdı. Bəzən işdən gec gələndə biz yatmış olurduq, ancaq o gəlib bizim otağımızda bizi öpərdi. Bizi hamıdan çox sevirdi.

Atam həm də çox Vətənpərvər insan idi, həmişə Qarabağ haqqında danışardı. O qədər Vətənini sevirdiki, həmişə müharibə olmasını arzulayırdı. O qədər Vətənpərvər idi ki, bizim atasız qalacağımızı bilə-bilə, Vətən uğrunda canından keçməyi üstün tutdu. Vətən onun üçün hər şey idi. Bizə Vətənimizi sevməyi də o öyrədib. Mən atamla fəxr edirəm. Yaxşı ki, onun kimi qəhrəmanın oğluyam.



# Meybullayev Yusif 9 yaş
# Meybullayev Nurulla 10 yaş
## (Şəhid Novruzov Aqşin)

Şəhid Novruzov Aqşin Şahin oğlu bizim dayımız olub. O, 1998-ci il avqustun 15-də Bakı şəhərində doğulub. 13 oktyabr 2020-ci ildə Kəlbəcərdə gedən döyüşlərdə şəhid olub. Onun doğma səsi hələ də qulağımdadı. Mehriban çöhrəsi, şirin gülüşü gözümün önündən çəkilmir. Tez-tez bizə gələrdi. Hər gəlişi bizim üçün bayram idi. O bizim üçün bir nümunə idi. Çox qayğıkeş idi.

Həm qardaşıma, həm də mənə çox diqqət ayırırdı.

Bacımla oynamağını isə heç unuda bilmərəm, onu qucağına alıb atıb-tutur, balaca Humeyra isə üzünə baxıb gülürdü. Dayım deyirdi ki: "Halal olsun bu uşağa, heç qorxmur".

Bəli, o qorxaqları sevmirdi. Təhsilini başa çatdırandan sonra bütün ailəmiz onun təhsilini Türkiyədə davam etdirəcəyini düşünürdü. Öz istəyilə öncə Vətənə xidmət etməyi seçdi. Düşünürdük ki, tez gedib qayıdacaq. Heç vaxt inanmazdım ki, onu gördüyümüz son günləri yaşayırıq. Xidmətdə olduğu müddətdə dəfələrlə telefonla danışırdıq. Sonuncu zəngdə səsi yorğun gəlirdi. Biz sonralar öyrəndik ki, o günü yaralı halda bizimlə danışıbmış, amma bunu bildirməyib. Elə şəhid olduğu gün də döyüşə yaralı olduğu halda qatılıb, bunu anamızdan eşitmişik. O günü isə biz heç vaxt unuda bilmərik. Günorta qəfil evə zəng gəldi, nənəm telefonu açdı, danışdı, həyəcanlı bir şəkildə anama verdi. Anama nə dedilərsə, anam ayağı yalın çölə atıldı, yoxa çıxdı.

Atamın nənəsi bizi cəld geyİndirdi, biz də nənəmgilə gəldik. Bütün həyət adamlarla dolu idi və qapının üzərində

bayraq asılmışdı. Anladım ki, o, şəhid olub. Axşam isə cənazəsini evə gətirdilər, o günlər çox ağır günlər oldu ...

Onun üçün çox darıxırıq, yoxluğu ilə heç vaxt barışa bilməyəcəyik. Amma düşünürəm ki, Allah onu elə bir zirvəyə ucaltdı ki, o zirvə hər kəs üçün deyil. Biz qardaşımla hər ikimiz də dayımızla fəxr edirik!



# Məmmədli Çimnaz

## (Şəhid gizir Məmmədli Rüfət)

5 yaş

Salam, mənim adım Çimnazdı. Mənim 5 yaşım var. Mən qəhrəman şəhid gizir Məmmədli Rüfətin qızıyam. Mənim atam qəhrəmandı. Atam müharibə zamanı qəhrəmancasına şəhid olub. Atamın dostları, iş yoldaşları mənə atam haqda danışırlar. Onlar deyirlər ki, mənim atam çox qoçaq və cəsur bir döyüşçü olub. Mənim atama döyüş zamanı "Əjdaha" deyiblər, ona görə ki, o, əjdaha kimi döyüşürmüş, heç nədən və heç kimdən qorxmurmuş.

Anam deyir ki, Şuşanı düz 28 il idi ki, ermənilər almışdı. Atam da Şuşanı azad edib, orda çoxlu erməni öldürüb. Sonra özü də Şuşada şəhid olub, həm də qəhrəman kimi. Ağır olsa da, atamla fəxr edirəm.

Atamla keçirdiyim hər gün mənim üçün qiymətli idi. Bir günü heç vaxt unutmaram. Atam, qardaşım, anam və mən birlikdə parkda gəzirdik. Orda geçirdiyimiz o gözəl gündə atam avtomatla tir atdı, mənə hədiyyə qazandı, o hədiyyə heç vaxt yadımdan çıxmayacaq.

# Məmmədli Vidadi
## (Şəhid gizir Məmmədli Rüfət)

5 yaş

Salam, mən Ağstafa rayonunun, Saloğlu kəndindən olan şəhid Məmmədli Rüfətin oğluyam. Adım Vidadidir. Mənim atam gizir olub. Mənim adımı atam qoyub. Atam çox şən, mehriban, gülərüz idi. Bizimlə vaxt keçirməyi sevirdi. Biz də atamla bir yerdə çox əylənirdik.

Atamın vaxtı olanda bizi gəzməyə aparırdı. Atam üçün çox darıxıram, amma bilirəm ki, o bizi görür, çünki atam şəhadətə ucalıb, öz cənnətindən bizi izləyir. Mənim atam qəhrəmandı, çünki o heç vaxt heç nədən qorxmazdı, atam həmişə mənə deyərdi: "Vidadi, sən mənim kişi balamsan, tez böyü, anana və bacına arxa, dayaq ol, mən İndi bir arzuyla böyüyürəm. Atamın dediyi həmin arzu. Tez böyüyüb anama və bacıma kömək olacam..

Atamla hər gün maraqlı idi. Bir gün var ki, onu hər zaman xatırlayıram. Atamın mənə maşın sürməyi öyrətdiyi günü. Bir yerdə çox əylənmişdik. Atam haqqında danışmaq mənim üçün həm çətin, həm də qürurvericidi. Mən atamla fəxr edirəm...



# Cabarzadə Xalid
## (Şəhid Cabarzadə Cavid)

13 yaş

Mən, Xalid Cabarzadə şəhid Cavid Cabarzadənin qardaşıyam. Qardaşım Cavidlə fəxr edirəm. Hər zaman da fəxr edəcəm. Cavid çox mehriban, deyib-gülən bir oğlan idi. Hər zaman birlikdə gözəl vaxt keçirirdik. Mən onun üçün çox darıxıram. Kaş yenə bizimlə ola.

Cavid kəşfiyyatda snayperçi idi. Hətta Aprel döyüşlərində də qəhrəmanlıqla iştirak etmişdi. Bununla yanaşı, Vətən müharibəsində də iştirak etdi. Aprel döyüşlərindən sağ-salamat qayıtsa da, Vətən müharibəsindən qayıda bilmədi. Qardaşımla telefonda danışanda: "Bura çox gözəl yerdi, Xalid. Səni də bura gətirəcəm", - deyirdi. Mənim üçün darıxdığını deyirdi.

Hər dəfə hansısa rayonu işğaldan azad edəndə sevincək halda bizə xəbər verirdi. Qardaşım Füzuli, Xocavənd, Qubadlı, Cəbrayıl rayonlarında gedən döyüşlərdə iştirak etmişdir.

24 oktyabr 2020-ci ildə Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olmuşdu. Mənimlə son danışığı 23 oktyabr tarixində gecə oldu. "Özünüzə yaxşı baxın, - dedi, - hər şey yaxşı olacaq". Hətta bizdən halallıq da aldı.

Noyabrın 5-də biz qardaşımın şəhid olduğunu bildik və həmin gündə də 2-ci Fəxri Xiyabanda dəfn elədik. Qardaşım ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur.

# Sadıqova Nuray (Şəhid baş çavuş Sadıqov Ruslan) 9 yaş

Mən Sadıqova Nuray Şuşa şəhidi Sadıqov Ruslanın qızıyam. Biz ailədə üç uşağıq. Bacım Sadıqova Aylin, qardaşım Ruslan və bir də mən. Qardaşım Ruslan atamın adını daşıyır. Mən onları çox sevirəm. Atam evimizin nəfəsiydi, o getdi, sanki nəfəsimiz kəsildi. Amma nə qədər atamsız çətin olsa da, anam əlindən gələni edir ki, biz rahat olaq, yaxşı yaşayaq.

Anam həmişə atamı yüksək qiymətləndirərdi. Azyaşlı olmağıma baxmayaraq, atama verilən dəyər və hörmət gözümün qarşısından getmir. Ailəmiz çox gözəl idi. Kaş həmişə belə gözəl qalaydıq. O getdi və hər xoş anımız da onunla getdi. Hərdən mən özümü çox qınayıram, çünki atamın döyüşə getdiyini mən bilmirdim. Çox sevinirdim ki, atamın boya-başa çatdığı evinə gedəcəyəm.

Evimizə hər hansı bir yardım gətiriləndə, deyirəm: "Ana, kaş atamızı gətirəydilər ..." Biz onu cismən itirmişik, amma ruhən həmişə yanımızdadır. Atam cənnətində, inşaallah, rahatdır. O bizim üçün hər şey idi.

İşdən gələndə nə qədər yorğun olsa da, bizimlə oyun oynayardı. Ən çox oynadığımız oyun isə gizlənqaç idi. Bu zaman anam da bizə qoşulardı. Çox əyləncəli olardı. O günlərə yenidən qayıtmağı çox istəyərdim. Bizi parka aparardı, hər dəfə işdən gələndə əlidolu gələrdi. Atamın ən çox sevdiyi şey vurma cədvəli idi. Hər gün işdən gələndə məndən soruşurdu. Düzdü, onda onu sevİndirə bilməsəm də, İndi çalışıram, bütün dərslərimdə irəli gedim. Dərslərimi yaxşı oxuyum ki, o da baxıb sevinsin. Mənim atam, gözlərin arxada qalmasın.

Mən də, Aylin də, Ruslan da böyüyüb sənə, Azərbaycanımıza layiqli övladlar olacağıq. Nə qədər bizə çətin olsa da, sənin adına layiq şəxsiyyətlər olacağıq. Mən atamı itirmişəm, Anamı da itirmək istəmirəm.

Həmişə Allahıma yalvarıram ki, bizim atamız yoxdur, bizi anamsız eləmə. Anamın canına sağlamlıq ver ki, bizi ürəyi istədiyi kimi böyütsün. Anam bizim üçün çalışır, əziyyət çəkir, nə yaxşı ki, anam var. Anam da olmasaydı, biz nə edərdik...

Kaş şəhidlər olmadan Qarabağımızı bizə qaytaraydılar. Kaş heç bir ailə dirəksiz, heç bir ailə başsız qalmayaydı. Analar, atalar oğulsuz, gəlinlər ərsiz, körpələr atasız qalmayaydı.

Şəhidlər ölməz.

# Nadirova Arzu
## (Şəhid baş çavuş Nadirov Elçin)

9 yaş

Mənim 9 yaşım var, şəhid Nadirov Elçinin qızıyam. Mənim bir də qardaşım var - Zaur. Biz atamızı çox sevirik, onun üçün çox darıxırıq. Atamız bizimlə fəxr eləyirdi, biz də atamla fəxr edirik.

Atam işdən yorğun gəlirdi, amma bizə yorğunluğunu bildirmirdi. Bizi gəzməyə aparırdı. Hər bazar günləri birlikdə piknikə gedirdik, orda atam bizimlə top oynayırdı, gülürdük, əylənirdik. Gəzməyə getməyən günlərdə evdə bizimlə vaxt keçirirdi.

Atam bizimlə nəfəs alırdı, biz də atamla nəfəs alırdıq. Atam məni "aşkım" deyib çağırırdı. Qardaşıma isə "Qaqaş" deyirdi. Atam bizim dərslərimizə baxırdı, istəyirdi ki, yaxşı oxuyaq. Biz də çalışırdıq ki, sinifdə birinci olaq. Biz "5" alan kimi atama zəng edirdik, atam telefonu "Aşkım!" deyib açırdı. Mən də atama deyirdim ki: "Bu gün "5" almışam!" Atam da: "Afərin mənim aşkıma!" - deyirdi. Qardaşım isə hazırlığa gedir. Qardaşımın dəftərinə müəlliməsi ulduz şəkli yapışdırırdı, qardaşım da atama zəng edib deyirdi. Atam da qardaşıma deyirdi: "Afərin, qaqaşsan". Hər həftənin 5-ci günü bizi məktəbə atam aparırdı, biz o gün çox sevinirdik. Biz səhər axşam yeməyimizi atamla birlikdə yeyirdik, biz çox xoşbəxt idik.

Avqustun 26-sı mənim ad günüm idi. Atam mənə ad günü keçirdi və mənə sevimli ayıcıq aldı. Mən çox sevindim və ayıcığı çox sevdim, oyuncaq ayımla birgə şəkil çəkdirdim.



O gün atamın hədiyyəsini qucaqlayıb yatdım. Səhər oyandım, atam işdən evə gəldi, bizi qucaqladı, öpdü və təlimə getdi.

Biz bilmirdik ki, atamız gec gələcək. Günlər keçdikcə biz atamız üçün çox darıxdıq, hər danışanda pis olurduq. Hər danışanda soruşurduq ki: "Ay ata, nə vaxt gəlirsən, biz çox darıxmışıq axı?" Atam da deyirdi: "Siz dərsinizi yaxşı oxuyun, "5" alın, mən tez gələcəm və gəlib qiymətlərinizə baxacam".

Sentyabrın 19-u atam bizə sürpriz elədi. Qapını döydü, mən açdım, gördüm ki, atam, yanında da qardaşım. Mən atamı qucaqladım və çoxlu öpdüm. Çünki atam gələndə qardaşım həyətdə oynayırdı. Biz atamızın gəlişinə çox sevindik. Sentyabrın 20-si atam getdi, biz çox üzüldük. Sonra biz atamızın Füzulidə şəhid olması xəbərini eşitdik, çox pis olduq, çox ağladıq. Biz qəhrəman atamızla fəxr edirik. Biz atamızla keçirdiyimiz gözəl günlər üçün, atamız üçün çox darıxırıq. Biz fəxr edirik ki, Nadirov Elçinin övladlarıyıq.

# Alıyev Rəhim
## (Şəhid mayor Alıyev Elçin)

# 6 yaş

Mən Rəhim Elçin oğluyam. Atam Alıyev Elçin şəhid olub. Anam deyir ki, atam ehtiyata buraxılmış zabitlərdən biri, həm də artilleriyaçı idi. Atam həm də mayordu. O, Şuşa şəhərində ermənilərlə döyüşüb, onları öldürüb, sonra özü də orda şəhid olub. Atamla çox xatirələrim var. Mən axırıncı xatirələrindən danışacam.

Mən balaca olan vaxtlarda atam hərbçi işləyəndə rayonlarda qalırdıq. Hər il bir rayonda olurduq. Atam ehtiyata buraxılandan sonra Sumqayıt şəhərində yaşayırıq. İndi mənim 6 yaşım var. Bizim ailəmiz 3 nəfərdən ibarətdir. Atam, anam və mən. İndi anamla mənəm. Bir də atamın divardakı şəkilləri.

Atam uşaqları çox sevərdi. O, Vətəninə, torpağına bağlı ataydı. Mən də böyüyəndə atam kimi Vətənpərvər, qəhrəman, ailəsevər oğlan olacam. Atam boş vaxtlarında mənimlə əylənərdi, oynayardı, gəzməyə aparardı. Birlikdə maşın sürərdik, mənə istədiyimi alardı. Keçən il mart ayının 27-si mənim ad günümdə atam böyük ekskavator oyuncağı almışdı. İşdən gələndən sonra bizi Bakıya gəzməyə apardı. Biz Qız qalasında olduq. Şəhəri gəzdik, bulvarda olduq. İyun ayının 1-də atam mənə səhər-səhər sürpriz etdi. Zəng etdi ki, düşün həyətə. Gördüm ki, sevdiyim velosipedi alıb. Sürməyi də öyrətdi. Sonra axşam bizi bulvara apardı. Velosipedi də apardıq. Gəzdik, əyləndik, velosiped sürdük, bir yerdə oturub yemək yedik, şəkillər çəkdirdik. Onda çox xoşbəxtt idim. Çünki atam da, anam da yanımdaydı.



Sonra biz Oğuz rayonuna istirahətə getdik. Ora çox sərin olur. Bir həftə atamla rayonda qaldıq. Dağları, çayları gəzdik. Şəlaləyə getdik. Dayımgildə qalırdıq. Atamı hər yerdə çox istəyirdilər. Avqust ayında atamla dənizə getdik. Qumla oynadıq, dənizdə çimdik. Atamla dəniz kənarında maşın sürdük. Çoxlu şəkillər çəkdik. Biz evə dönəndə axşam idi.

Sentyabr ayında atamla alış-verişə getdik. Atam mənə məktəb paltarı, məktəb ləvazimatları - hər şey almışdı. Həm də anamla atam sevinirdi. Axı mən məktəbə gedəcəm. Atam mənə "Yaraşıqlı oğlum" deyirdi. Atam demişdi ki, məni məktəbə özü aparacaq. Oktyabr ayının 1-də məktəb başladı. Amma anamla getməli oldum. Atama səhər zəng gəldi ki, getməlidirlər. Mən çox ağladım. Dedim: "Ata, məktəbə sən apar məni". Onun döyüşə getməyindən xəbərim yox idi. Amma anam çox ağlayırdı. Atama yalvarırdı ki, getməsin, bizi tək qoymasın. Atam anamı sakitləşdirə bilmirdi. Anama dedi ki: "Hər şey yaxşı olacaq".

Atam döyüşə getdi, mənsə məktəbə. Ama bizim heç kefimiz yoxuydu. Anama baxırdım, yol uzunu ağlayırdı. Mən də heç nə deyə bilmirdim. Sonra atamla danışmağa başladıq tez-tez. Atam hər zənginə söz verirdi ki, gələcək.

Axırıncı zəngi noyabr ayının 2-də oldu. Anamla çox danışdı. Mənlə də danışdı. Günorta saatlarında atam yenə zəng etdi. Bu dəfə mənimlə çox danışdı. Həmişəki kimi mənə söz verdi. Atam: "Erməniləri süpürə-süpürə gedirik. Məndən nigaran qalmayın. Hər şey yaxşı olacaq, dedi, dualarınızı əsirgəməyin. Sən mənim ciyərparəmsən, ürəyimsən, Canımsan".

Mən atamı telefonda öpdüm, sagollaşdıq. Amma o zəngdən sonra bir daha atamın səsini eşitmədim. Anam atamı hər yerdə axtarırdı. Anam çox qorxurdu. Bir neçə gündən sonra səhər tezdən anamın qışqırığına oyandım. Bir az sonra bizdə çoxlu adamlar vardı. Sonra anam mənim paltarı-

mı geyİndirdi. Hava həm soyuq idi, həm də yağış yağırdı. Anam telefonda qışqıra-qışqıra kimlərləsə danışırdı. Mən nə olduğunu bilmirdim. Bizi maşınla apardılar. Dedilər ki, bura ŞƏHİDLƏR olan yerdi. Sonra atamın şəklini gördüm. Anam ancaq ağlayırdı. O mənim suallarıma cavab vermirdi. Yanımdakı dayı dedi: "Atan şəhid olub". Dedim: "Atam ölüb?" Dedilər ki: "Yox, Şəhidlər ölmür". Onda bildim ki, atama heç nə olmayıb.

Atam Şəhiddi.. Çoxlu ermənilər öldürüb. Qəhrəmanlıq edib, şəhid olub. Anam deyir ki, atam CƏNNƏTDƏDİ. O gələ bilmir. Amma bizi görür, eşidir. ALLAH baba sevdiyi bəndələri öz yanına aparır. Anam çox ağlayır, mən də deyirəm: "Ana, bilirəm, atadan küsmüsən, küsmə, o gələcək. Atam bizi heç vaxt atasız qoymaz. Gələndə birdə getməyə qoymarıq".

Amma mən atam üçün çox darıxıram, hər gün yuxuda görürəm, onun paltarıyla yatıram, onun mənə axırıncı aldığı oyuncaq maşınla yatıram. Atamı çox gözlədim. O gələndə evimizdə nə olubsa, hamısını danışacam. Mən hər gün atamı anamdan istəyirəm. Anam mənə cavab vermir. Məni qucaqlayıb ağlayır. Bilirəm, anam da çox darıxır. Mən atama söz verdiyim kimi, anamı incitməyəcəm, ona qulaq asacam, onu darıxmağa qoymayacam, onu ağlamağa qoymayacam.

Biz atamızı çox sevirik, onu həmişə gözləyəcəyik. O bizim ürəyimizdədi. Mən atamla fəxr edirəm. Mən söz verirəm ki, mən də atam kimi Vətənimi, torpağımı, anamı sevəcəm. Mən elə etməliyəm ki, atamın ruhu da şad olsun. Canım atam, mən səni sonuna qədər sevəcəm, sən mənim ürəyimdəsən. Sənin RƏHİMİN ...



# Allahverdiyev Bəxtiyar

## (Şəhid baş leytenant Allahverdiyev Babək)

## 7 yaş

Mən Allahverdiyev Bəxtiyar Babək oğluyam, 7 yaşım var və birinci sinifdə oxuyuram. Mən atamla bağlı xoş xatirələrimi sizlərlə bölüşməkdən qürur hissi duyuram. Mən atamı çox istəyirəm, atama çox bağlı idim, atam da bizə. Atam da ən çox mənə bağlı idi, məni çox istəyirdi. Atam mənə öz atasının adını qoyub. Həmişə mənə deyirdi "Mən sənin atanam, sən də mənim atamsan". Atam hər zaman mənə deyirdi: "Özünü uşaq kimi aparma, sən kişisən, sən gələcəyin hərbçisisən". O, çox istəyirdi ki, mən də onun kimi hərbçi olum. Ona görə də hər zaman mənə öz peşəsindən sevə-sevə danışardı.

Atamın işdən gələcəyi vaxtı səbirsizliklə gözləyirdim, o, heç vaxt əliboş gəlməzdi evə, həmişə bizə sevdiyimiz şeylərdən alırdı. Nə qədər yorğun olsa da, evə gələn kimi ilk işi bizimlə oynamaq olurdu, bizi boynunda gəzdirirdi. Atam heç vaxt bizim xətrimizə dəymirdi. Qardaşımla məni çox istəyirdi. Mənə deyirdi: "Heç vaxt qardaşınla dalaşma, onu çox istə, o sənin dostundu". Atam o qədər yaxşı insan idi ki, onun haqqında nə qədər danışsam, azdı. Mən atam üçün çox darıxıram. "Kaş ki, atam yanımda olaydı",- deyirəm. Bilirəm, o qayıtmayacaq. Mən çox üzülürəm ki, atamız yanımızda yoxdu. Amma mən üzülsəm də, fəxr edirəm ki, mənim belə qəhrəman atam var.

Mən də böyüyəndə atam kimi hərbçi olub Vətənimin keşiyində duracağam.

# Məmmədsalahova Aylin
## (Şəhid Məmmədsalahov Kazım)

6 yaş

Mənim atam əsl qəhrəmandır. Mənim atam mənim xatirələrimdə həm əsl qəhrəman, həm də əsl insan kimi qalıb. Atamın diqqəti hər zaman mənim üzərimdə olardı. Mənim balaca bacım vardı. Atamdan 3 il əvvəl vəfat etdi. Bacımın vəfatından sonra atam həmişə mənim həkim olmağımı istəyirdi.

Hər zaman mənimlə birlikdə xoş günlər keçirərdi. Boş vaxtlarda məni gəzməyə aparardı.

Anam, atam və mən hər zaman xoşbəxt yaşayardıq. İndi atam yoxdur... Atamdan bizə qalan ancaq şirin xatirələri oldu. Bir də mənimlə bağlı arzuları. Atamın yarımçıq qalmış arzularını həyata keçirmək İndi mənim borcumdur.

Hər şeydən öncə, mən atam kimi olacam. Həm yaxşı adam olacam, həm də həkim olacam. Uşaq həkimi. Qoy heç bir uşaq xəstələnməsin. Çünki bunu atam istəyirdi. Məni həmişə "Gələcəyin həkimi", "Bacı" və "Alik" deyə çağırırdı. İndi atamın səsindən, qayğısından ötrü darıxıram. Atam həmişə deyərdi ki: "Ananın sözündən çıxmaq olmaz, çalış, yaxşı insan ol".

Atam məni tez-tez gəzməyə aparardı. Hər gəzməkdən gələndə mənə oyuncaq alardı. Sonra da evə çatan kimi atam, anam və mən oyuncaqlarımla oynayardıq.

İndi atamsız çox çətİndir. Anamla mən oynayanda atamsız darıxıb ağlayıram. Anamsa həmişə deyir ki: "Ağlama, qızım, atan cənnətdən bizə baxır".

# Hacıyeva Nigar
## (Şəhid kapitan Həsənov Əsəd)

11 yaş

Mən sizə öz qəhrəmanım, şəhid kapitan Həsənov Əsəd haqqında danışmaq istəyirəm. O öz Vətənini çox sevirdi. Bizim hamımızı da çox sevirdi. O, çox qayğıkeş bir ata idi. Yadımdadı, məzuniyyətə gələndə bizi gəzməyə aparardı. Bizim ən çox sevdiyimiz yer park idi.

Atam bizi karuselə mİndirirdi. Əyləncəli maşınlara minirdik. Bizə dondurma alırdı. Çay süfrəsində şirniyyata qonaq edirdi. Çoxlu şəkil çəkdirərdik. Atama deyəndə ki, bizimlə qal, deyirdi ki: "Mən getməliyəm, məni Vətən gözləyir, ordakı əsgərlər də mənim balalarımdır. Biz torpaqlarımızı azad etməliyik ki, siz balalar azad yaşayasınız".

Mənim haqqında danışdığım insan əslində mənim dayım, həyatda isə mənəvi atam idi.

O, heç vaxt mənə atasızlığı hiss elətdirmirdi. Mən ona "ata" deyə müraciət edirdim. Mənə deyirdi ki: "Sən mənim böyük qızımsan". Onun iki azyaşlı körpəsi Vətənə əmanət qalıb. Qızının adı Mələk, oğlunun adı isə Hüseyndir. Atam Mələyə nə alırdısa, eynisini də mənə alırdı.

Mən kamança sinfində təhsil alıram. Bir çox müsabiqələrdə yüksək yerlər tutmuşam. Mənim uğur qazanmağımda atamın böyük dəstəyi olub. Hər dəfə yer tutanda hədiyyələrlə məni sevindirirdi. Son dəfə də demişdi ki: "Sənə bahalı telefon alacam". Ancaq müharibə bu arzusunu da ürəyində qoydu onun.

Atam döyüşlərdə düşmənə çox ağır zərbələr vurmuşdu. Çoxlu sayda erməni texnikasını dağıtmış, yüzlərlə hərbçini məhv etmişdi. Təəssüf ki, mənfur düşmən gülləsi atamı bizdən aldı. O, qəhrəmancasına həlak olaraq şəhadətə yüksəldi. İtkisi nə qədər ağır olsa da, o bizim qürurumuzdur. Çünki bu gün bizim torpaqlarımız düşməndən azad olunub, qələbə çalınıb.

Biz fəxr edirik ki, atam qalib ordunun qalib şəhididir. İndi hamımız şəhidlərin əziz xatirəsini uca tuturuq. Hamımız onların qarşısında borcluyuq. Şəhidlər tariximizin qan yaddaşıdır.

# Kazımlı Aydan

## (Şəhid baş leytenant Kazımov Kamran) 9 yaş

Sənsizliyin acısı qəlbimi o qədər yandırdı ki, yeganə təsəllim Vətənimiz üçün, azadlığımız üçün döyüş meydanında göstərdiyin qəhrəmanlıqlar oldu. Adın çəkiləndə gözlərim dolur, qəhər məni boğur. Bilməzdim ki, taleyimə şəhid övladı olmaq yazılacaq.

Atasızlıq dünya boyda dərd olub gözlərimdən süzüldü. Mən sənin qızın olduğum üçün fəxr edirəm, bilirəm ki, sən məni və qardaşımı canından çox sevirdin. Amma uğrunda şirin canından keçdiyin Vətəni hər kəsdən çox sevdin, hətta bizdən də.

Bilirsən, ata, yoxluğunda bir bacım da gəldi dünyaya. Adını Kamrana qoyduq. Amma o xəbərsizdi sənin qəhrəmanlığından. Qardaşım və mən səninlə nə qədər fəxr etsək də, yoxluğuna inanmırıq. Hələ də yolunu gözləyirik, Canım atam.

Söz verirəm ki, sənin adına layiq övlad olacam, yarım qalmış arzularını mən həyata keçirəcəm. Sənin kimi qəhrəman olacam. Yaşadığımız müddətdə xatirən hər zaman bizə əziz olacaq. Canım atam, ən böyük arzun məni polis görmək idi, İnşaallah, arzunu yerinə yetirəcəm.



# Əliyeva Alsu

## (Şəhid çavuş Əliyev Timur) 6 yaş

Mən Vətən müharibəsi qəhrəmanı Timur Əliyevin qızıyam. Atam Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Mənim 6 yaşım var.

Atamla bağlı o qədər xatirələrim var ki. Mənim atam çox mehriban, gülərüz, məni və bacımı canından çox sevən ATA idi. Anam mənə deyirdi ki: “Sənin adını atan qoyub”. Hələ anamla atam nişanlı olanda atam həmişə deyirmiş ki, “Əgər qızımız olarsa, adını Alsu qoyacam”. Atam əvvələr adımı sevirmiş, sonralar isə özümü sevdi. Atam həmişə işdən gələrkən anama zəng eləyib, məni çağırır, sonra deyərdi: “Atasının gözəlinə nə alım?” Mən də istədiklərimi sayardım.

Mən onsuz çox darıxıram. Ağlayanda anam deyir: “Ağlama, atan bizi görür, o da sənsiz ağlayir”. Mən bilirəm, Allah mənim atamı sevdiyi üçün yanına - cənnətə aparıb.

Mən atamla qürur duyuram, fəxr edirəm ki, Timurun qızıyam. Mənim ad günüm avqust ayının 22-də olur. O gün mən çox xoşbəxt oluram, çünki atam həmin gün mənim yanımda olur. Ad günümdə həmişə üstündə şəklim olan tort alardı. Vaxt keçdi, avqust ayının 23-ü bacım doğuldu. Bacımın 2 yaşı var. Atam həmişə deyərdi ki: “Allah mənə eyni vaxtda açan 2 çiçək verib”.

Atam bizi həmişə gəzməyə apardı, bizim ilə vaxt keçirməyi sevərdi. Mən fikirləşəndə ki, daha atamı qucaqlaya bilməyəcəm, onun o gül üzünü görə bilməyəcəm, mənə daha “Balaca anam” deməyəcək, ürəyim ağrıyır.

Ata, sənə söz verirəm ki, sənin istədiyin kimi ağıllı, savadlı, Vətənini, atasını, anasını, bacısını sevən övlad olacam. Mənim qəhrəman atam. Aylar, illər keçəcək, biz böyüyəcəyik, amma atamızı həmişə canımızdan çox sevəcəyik. Mənim cənnətdə olan atam. Anamın diliylə desəm: "Mənim cənnət qoxulum".





# Cəfərli Cabbar 5 yaş
# Cəfərli Hüseyn 4 yaş
## (Şəhid kapitan Cəfərli Həmid)

Cəfərli Cabbar və Hüseyn. Biz qəhrəman atanın övladlarıyıq. Atamız bizi çox sevirdi. Atamız işdən gələndə yorğun olurdu, amma yenə də bizimlə oynayardı, böyük gimnastik topumuz var idi. Atam həmişə bizimlə böyük topla oynayardı.

Atamız bizi əyləncə mərkəzinə aparırdı. Ən çox yadda qalan isə əyləncə mərkəzi olub. Biz atamızı çox sevirik. Biz onunla həmişə fəxr edəcəyik.

# Nadirli Məryəm-Xanım (Şəhid kiçik çavuş Samir Nadirov)

6 yaş

Mən 2015-ci il fevralın 4-də anadan olmuşam. İndi hazırlığa gedirəm. Mən atamı çox istəyirəm. Atama bağlı bir qızam. Atamla olan xatirələrimi sizinlə bölüşürəm. Atam hər gün işdən evə gələndə məni velosipedlə həyətdə gəzdirirdi, parka aparırdı.

Parkda oynayırdım, karuselə minirdim, atam məni yelləyirdi, velosipedlə gəzdirirdi. O məni çox sevirdi. Mənə deyirdi ki: "Səni futbola qoyacam". Mən də atama dedim: "Ata, inşaallah, pulun olanda məni futbola qoyarsan, mən də futbol oynayaram". Evdə də olanda futbol oynayıram. Atam mənə həm də deyirdi: "Sən böyüyəndə əsgərliyə gedərsən". Çünki mən əsgər olmağı sevirəm. Ona görə də əsgər olacam.

Mənim atam işdən evə gələndə qapıya qaçırdım. Anam qapını açan kimi atam evə girir və mənə deyirdi: "Totu, düz dur, hərbi salam ver və salamlaş atayla". Mən də elə salamlaşırdım. İndi də qəbir üstünə hər dəfə gedəndə hərbi salam verib salamlaşıram atamla. Sonra gətirdiyimiz gülləri qəbrin üstünə düzürəm.

Mənim bir qardaşım da var. Adını atam qoyub. Uşaqlıqda anası ona o adı qoymaq istəyirmiş. Amma atam öz adını qardaşıma qoydu: Nadirov Emil Samir oğlu. 2019-cu il mayın 31-də anadan olub. İndi 2 yaşı var. O, atamızı az gördü. İndi evdə şəkillərini öpür, "Ata" deyir. Atamıza doymadan o çıxıb getdi. Amma biz atamızla fəxr edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Nur içində yatsınlar.



# Qurbanəliyeva Nəzrin (Şəhid baş gizir Qurbanəliyev Tapdıq)

11 yaş

Mən atamı çox istəyirdim. Atam da məni və qardaşımı çox sevirdi. Mənim atamla çoxlu xatirələrim var. Atam mənə həmişə "Bir dənəm" deyirdi. Atam çox mehriban, zəhmətkeş idi.

Mən balaca olanda atam mənə ad günlərimdə gəlincik alırdı. Atam işdən gələndə bizi qucaqlayıb bağrına basırdı. Mən ən çox atamın məni bağrına basıb qucaqlaması üçün darıxmışam. Mən atamı o qədər çox istəyirəm ki, onu sözlərlə ifadə etmək mümkün deyil.

Mən fəxr edirəm ki, belə qəhrəman bir insanın qızıyam. Mən atama layıq bir övlad olacağam. Atamın əziyyətini yerdə qoymayacağam.

Mən atamla fəxr edirəm, həmişə də fəxr edəyəcəyəm!

# Əlizadə Salman
## (Şəhid Əliyev Aydın)

5 yaş

Mən Əlizadə Salman Aydın oğluyam. Atam mənim üçün dünyada tayı-bərabəri olmayan bir insandı. O mənim üçün dünyanın ən dəyərli varlığıdır. Mən onun qayğılarını, oynamaqlarımızı, gəzməyə getməklərimizi, atamın mənlə keçirdiyi bütün gözəl günlərini geri qaytarmaq istəyirəm. M ə - nim atam çox mehriban, qayğıkeş bir insan idi. Qardaşımla, mənimlə oynayardı. Atamı itirmək mənim üçün çox çətİndi, İndi mən atamsız yarımçıq biriyəm. Mən İndi atasızlığı qardaşımla oynayanda hiss edirəm. Kaş yanımızda olaydı, kaş bizi tək qoymayaydı.

Mən atamla fəxr edirəm! Nə yaxşı ki mənim qəhrəman atam var, böyüyəndə o alçaq ermənilərdən atamın qisasını alacam!



# Musibova Nilay
## (Şəhid kapitan Musibov Veysəl)

5 yaş

Atamla xatirələrim çoxdur, çünki vaxtı olduqca o vaxtı bizə sərf edirdi.

Mənim 3 yaşlı bir qardaşım var. Atamla mən həmişə gəzməyə gedirdik. Mən daha çox parka getməyi sevirəm. Atam məni yelləncəkdə yelləndirdi, mənimlə birgə maşına minirdik. Vaxtı olduqca məni harasa aparmağa can atırdı.

İşdən evə gəldikdə qardaşım, atam, mən gizlənqaç oynayırdıq. Bu bizim evdə ən sevdiyimiz oyun idi. Gecələr qardaşım yatdıqdan sonra atamla dondurma yeyirdik. Birlikdə meyvə saatı edirdik.

Biz hərbi şəhərcikdə qalırdıq, maaş vurulanda evə birgə bazarlıq edirdik. Ən sevdiyim isə qış aylarında bazardan balıq almaq idi. Hər gecə məni atam yatırardı, mənə nağıl danışardı, bəzən isə nağılları özündən qurardı. Rəngləri, heyvanların adını, əşyaların adını, şeirləri (xoruz, keçi, cücələrim, dovşan və s. haqqında) atamla birlikdə öyrənirdik. Bayramlarda atam bizi hərbi hissədə hazırlanan tədbirə aparardı. Yeni ildə də yolkanı atam ilə birlikdə qurardıq.

Atam məni dünyalar qədər sevirdi, anam hirslənəndə sığınacaq tək yerim atamın qucağı idi. Atam mənə heç hirslənməzdi. Mənə ən böyük sevgini verən adam atamdı. Yanımda olmasa da, onun sevgisini unutmayacağam. Atamın yanımda olmasını, geri dönməsini çox istərdim. O mənim qəhrəmanımdır. Mən fəxr edirəm ki, Musibov Veysəlin qızıyam.

# İsmayılov Xəyal

## (Şəhid kiçik çavuş İsmayılov Sakit)

14 yaş

Biz ailədə dörd nəfər idik. Atam, anam, bacım və mən. Atam hərbçi olduğu üçün hər zaman bizimlə olmurdu. Amma bir yerdə keçirdiyimiz zamanlarımız da oldu. Atam hər gün işdən qayıdanda bacımla və mənlə vaxtını keçirirdi, oyunlar oynayırdıq. Bacımın və mənim həmişə istəklərimiz olurdu və atam hamısını yerinə yetirirdi.

Atamın da istəyi o idi ki, bizim təhsilimiz yaxşı olsun və mən bu istəyi yerinə yetirəcəyəm. İnşaallah, atama layiq bir övlad olacağam. Bacım balaca olduğu üçün atam hər gələndə onu parka aparırdı. Bəzən elə olurdu ki, atam günlərlə evə gələ bilmirdi, həmin vaxtlar gələndə həmişə mənim dərsimə baxırdı. Rus dili dərsimdə mənə çox kömək edirdi. Atam çox həssas idi. Ən çox da təmizlik işində məni səliqəsiz gördükdə tez əsəbləşirdi, lakin atamın ən bağlı olduğu şey ailəsi və işi idi.

Atam işində çox məsuliyyətli idi və bizi də hər zaman düşünürdü, kaş belə olmayaydı. Atam hər zaman yenə yanımızda olaydı. Amma mən fəxr edirəm ki, atam torpağımız uğrunda canından keçən, adı ilə tarix yazan bir qəhrəmandır və mən də onun oğluyam.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



# Pənahov Ömər

## (Şəhid çavuş Pənahov Elməddin)

6 yaş

Mən atamı çox sevirəm. Atam mənim ürəyimdi. Mən onun üçün çox darıxıram, mənim atam qəhrəmandır. Mən atamla qucaqlaşıb yatırdım.

Atamla çoxlu şəkil çəkdirirdim. Atam mənə tez-tez kabab çəkirdi, mən kababı xoşlayırdım. Atam işdən saat 8-də gəlirdi, qaqamla atamı gözləyirdik, atam gələndə çox sevinirdik. Maşına minirdik, mahnı qoyub oynayırdıq. O günümüz üçün çox darıxıram. Mən atamla fəxr edirəm. Atam döyüşə gedəndə bizi çoxlu-çoxlu qucaqladı, öpdü. İndi mən atamın qəbri üstünə gedəndə ona gül aparıram. Atam üçün darıxıram...

# Pənahov İlkin
## (Şəhid çavuş Pənahov Elməddin)
## 8 yaş

Mən atamı çox istəyirəm. Keçən il 1 İyun Uşaqlar günü atam qaqamla məni parka aparmışdı. Orda bizi maşına mindirdi, nə istədik, aldı, çoxlu gəzdik.

Atam bizi çox istəyirdi. Mənə "oğul balam" deyirdi. Hər gün axşam saat 8-i gözləyirdik. Atam gələndə çox sevinirdik, onunla günümüz xoş keçirdi. Həmişə mənim dərsimlə maraqlanırdı, deyirdi: "Yaxşı oxu". Mən də hər gün dərslərimi yaxşı oxuyurdum, atam gələndə danışırdım. Sonra atamla oynayırdım. Atam mənə çoxlu oyuncaq maşın almışdı, o maşınları saxlayıram.

Atam döyüşə getdiyini bizə demədi, gəldi, bizi çoxlu öpdü, qucaqladı və dedi: "Mən evdən çıxanda evin kişisi sənsən".

Atam üçün çox darıxıram. Atam mənə dedi: "Ananın sözünə qulaq as". Mən də anamın sözünə baxıram. Mən atamla fəxr edirəm. Onunla telefonla danışanda dedi: "Oğul balam, 32 erməni vurdum". Mən də dedim: "Vur, atam mənim". İndi deyirəm: "Böyüyüm, atamın qisasını alacam!"

Mən atama söz vermişəm, general olacam. Mən qəhrəman Elməddinin oğluyam, hamıya da elə deyirəm.

Atam mənim ürəyimdi. O mənə demişdi: "Gələcəm", amma gəlmədi..



# Qafarzadə Pərviz
# Qafarzadə Gülay
## (Şəhid baş çavuş Qafarzadə Elnur)
## 12 yaş
## 9 yaş

Atam aramızdan gedəni aylar keçib, ürəyimin ağrısı isə keçmir, günü- gündən daha da güclənir.

Yaşımın kiçik olmasına baxmayaraq, dərdim böyükdü. Havalar istilənib, bu havada daha çox darıxıram sanki. Atam isti aylarda bizi gəzməyə aparardı, qoymazdı darıxaq.

İndi biz də onu tək qoymuruq, hər gün qəbrinin üstünə gedirik. Biz təkcə atamızı itirmədik, uşaqlığımızı, xoşbəxtliyimizi itirdik. Gecələr Allaha dua edirəm, yuxuma gəlsin, ürəyimdəkiləri deyim ona. Deyim: "Ata, sən getdiyin gündən yarımçıq qalmışıq, nə olar qayıt".

Amma bilirəm, o qayıdan deyil ... Biz böyüyürük, hər şeyimiz var, təkcə atamdan başqa ... Bir tək o yoxdur yanımızda ... Əlbəttə, həyatda atamın adına layiq olacağıq, ali təhsil alacaq, bacarıqlı mütəxəssis də olacağıq, amma bütün bunlar atamsız olacaq ... Bunu düşünəndə çox pis oluram ...

Ata, kaş yanımızda olardın, hər uğurumuza bizimlə birgə sevinəydin ...

Kaş ...

# Noçuyev Uğur
## (Şəhid kapitan Noçuyev Surxay)

5 yaş

Mənim atam...

Mənim atam Vətən müharibəsinin qəhrəmanıdır, kapitandır. Noçuyev Surxay. Onu hamı tanıyır. Atam Vətən müharibəsində düz 44 gün döyüşüb, qanıyla, canıyla tarix yazıb, düşmən üzərində qələbə qazanıb, torpaqlarımızı işgaldan azad edib! Atam təkcə mənim yox, bütün Azərbaycanın qəhrəmanı olub.

Mənim atamla xatirələrim çox azdı, çünki atam şəhid olanda 4 yaşım var idi. Həm yaşım az idi, həm də atamın işi elə idi ki, evə az-az gəlirdi. Ona görə atamı az görürdüm, amma atam vaxt tapan kimi evə gəlirdi, onda ilk işi mənimlə oynamaq olardı, o qədər fərqli, maraqlı oyunlar oynayardıq ki! İndi o oyunları heç kim atam kimi oynaya bilmir, atam evə gələndə sevincimin həddi-hüdudu olmurdu. Qonşu uşaqları pəncərədən çağırırdım ki, "Gəlin, baxın, mənim də atam gəlib, evdədi", - deyirdim, tez atamın üstünə qaçıb qucaqlayırdım.

Atamı o qədər az görürdüm ki ... Anam deyir ki, atam işdən gələndə mənim üçün bir neçə günün oyuncağını alar, anama verib deyərmiş ki: "Bunları gizlət, mən işdən evə gələ bilməyəndə, Uğur mənim üçün darıxanda çıxart, ver, de ki: "Atan sən yatanda gəlmişdi, sən yatmışdın deyə oyuncağını yastığının yanına qoydu və səni çoxlu öpdü gizlicə, sən bilmədin". Canım atam, yenə səni görmək istəyirəm, çox darıxmışam, bacım Fidan o qədər şirİndi ki, amma sən heç görə bilmədin, telefonda sənə Fidan haqqında danışardım, sən də ürəkdən gülərdin.

Yadındadı, ata, sən işdən gələndə papağını həmişə mənim başıma qoyardın, İndi də mən sənin kimi papağımı bacımın başına qoyuram. Anam dedi ki, sən Allah babanın yanında - cənnətdəsən, mən də anama dedim ki: "Mən də hərbçi olacam". Anam səbəbin soruşdu, dedim ki: "Mən də Allah babanın yanına gedəcəm, axı atam ordadır ..." Anam başa saldı ki, bir gün atanın yanına gedəcəyik, amma hələ atanın adını yaşatmalıyıq, onun arzularını biz reallaşdırmalıyıq, axı ata bizə fəxr ediləsi ad qoyub getdi, biz mərd, qeyrətli, qəhrəman atanın övladlarıyıq.

Canım atam, səninlə fəxr edirik, qürur duyuruq, sənin adına layiq böyüyəcəm, sənin kimi Azərbaycana böyük xidmətim dəyəcək, qəhrəman insan kimi yetişəcəm, nə yaxşı ki, sən bizim atamız oldun.

# Məmmədli Sevinc
## (Şəhid Məmmədov Elvin)

5 yaş

Mən qəhrəmanlar şəhəri olan Biləsuvardanam. Bu rayonun şəhidi çavuş Məmmədov Elvinin qızıyam. Adım Məmmədli Sevincdir, 5 yaşım var. Mənim atam çox mehriban, ailəcanlı bir insan idi. Onunla olan xatirələrim az olsa da, çox gözəl idi. Mən onun balaca sarı kəhrəba qızı idim. Atam məni "Kəhrəba balam" deyə səsləyərdi, mənə oyuncaqlar alar, evə gələndə mənlə oynayardı. O məni çox sevər, əzizləyərdi.

Atam imanlı biri idi, mənə Vətən sevgisini, Allaha olan sevgini öyrədirdi. Mən atamı çox sevirəm, onun üçün darıxıram. Anam deyir ki, Atam Allahın yanında - cənnətdədi. O bizi görür.

Atamın arzusu məni ağ xalatda həkim kimi görməkdi. Çalışacam, onun arzusunu yerinə yetirim. Ruhun şad, məkanın cənnət olsun, cənnət qoxulu atam, səninlə fəxr edirəm, qəhrəman atam!



# Zakirova Yağmur
## (Şəhid baş leytenant Zakirov Elvin)

13 yaş

Mən baş leytenant Zakirov Elvinin qızı Zakirova Yağmur.

Mənim 13 yaşım var. Atam 44 günlük Vətən müharibəsinin şəhididir. Baş leytenant Zakirov Elvin. Atamla bağlı xatirələrim çoxdur. O, ailəsini çox sevən biri idi. Lakin Vətəni daha çox sevir, bir hərbçi kimi hər an işinin üstündə olurdu. Ona görə zamanını evdən çox işdə keçirirdi. Evdə olduğu vaxtlarda bizimlə əylənməyi, birgə yemək yeməyi, dərslərimizlə maraqlanmağı unudulmaz anlarımız olurdu.

Atamla ən çox alış-verişə getməyi sevərdik. O mənim bu dünyada hər sözümü çəkinmədən deyə biləcəyim dostum idi. Onunla hər zaman fəxr edirəm. Atam mənə "Qara qızım" deyərək səslənirdi. Hər kəs öz valideyni ilə fəxr etməlidir.

Mənim atam şəhiddir. Şəhidlər isə görünməz qəhrəmanlardır, istər bu dünyada, istər o dünyada. Atamla fəxr edir, qürur duyuram. Bütün həyatım boyu onun adına layiq olmağa çalışacağam.

# Dursunov İsa (Şəhid kapitan Dursunov Fərid) 10 yaş

Kiçik ürəyim olsa da, böyük xatirələr içində yaşayan bir qəhrəmanın oğlu Dursunov İsa Fərid oğluyam. Mənim 10 yaşım var. Qax rayonunda yaşayıram.

Atamdan nə qədər danışsam, azdır. Atamla o qədər gözəl günlərimiz olub ki, o qədər gözəl anlarımız olub ki, yazmaqla qurtarmaz. Atam çox qayğıkeş və ailəcanlıydı. Bizi çox sevirdi, Vətənini, torpağını, millətini çox sevirdi. Sevdiyini də canından keçərək isbat etdi.

Atamla ən yadda qalan anımızı sizinlə paylaşacam. Atam balıq tutmağı, çimməyi çox sevirdi. Bir gün atamla hovuza çimməyə getmişdik. Mən üzməyi bilmirdim, bütün uşaqlar üzürdü, mən yox. Atam mənə dedi: "Sən də bacararsan". O qədər dedi ki, mən də özümü atdım suya, hovuzun dibinə kimi düşdüm, qorxurdum, amma atama arxayın idim. Suyun üzərində çırpına-çırpına qalmışdım, gözümü açdım, bir də gördüm, atamın qucağındayam. Atam mənə sudan qorxmamağımı öyrətdi. Ondan sonra həmişə atamla Kür çayına çimməyə və balıq tutmağa gedirdik.



# İsmayılova Ləman (Şəhid baş gizir İsmayılov Vüsal) 10 yaş

Mən İsmayılova Ləman Vüsal qızı 2011 ci il noyabr ayının 29-da Oğuz rayonunun Xalxal kəndində anadan olmuşam. Mənim atam hərbçi idi, baş gizir vəzifəsində çalışırdı. Atam çox gözəl insan, qayğıkeş bir ata olub bizə. Biz onun işdən evə gəlməyini həmişə səbirsizliklə gözləyirdik. Atamla bağlı xatirələrim az yadımda qalıb, çünki atamın vaxtının çox hissəsi işdə keçirdi. O məni və qardaşlarımı çox sevirdi, nə istəsək, edirdi. Atam qardaşımla mənə həmişə deyirdi ki: "Dərslərinizi yaxşı oxuyun". Biz də həmişə yaxşı qiymət alırdıq, atam da sevinirdi.

Bir dəfə mən atama həkim olmaq istədiyimi bildirdim, atam dedi ki: "Yaxşı oxusan, hər şeyə nail olacaqsan". İnşaallah, mən də yaxşı oxuyub həkim olacam. Atamın adına layiq bir övlad olacam. Oxuduğum məktəbdə atamın qəhrəmanlığı haqqında çox danışırlar və mən də bu sözləri eşidib atamla qürur duyuram. Atam oktyabr ayının 2-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabr ayının 4-də torpağa tapşırılıb.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

# Əlizadə Zəhra (Şəhid mayor Əliyev Asiman)

9 yaş

Mən Əlizadə Zəhra mayor Əliyev Asimanın qızıyam. Mənim 9 yaşım var. Atamla birlikdə cəmi 9 il yaşadım. Atam haqqında o qədər xoş xatirələrim var ki... Hansını sizlərə danışacağımı çox çətin seçirəm.

Keçən il yayda atam bizi Zaqatalanın Kebeloba kəndinə istirahətə aparmışdı. Günlərimiz ele gözəl keçirdi ki ... Bütün günü atamla birlikdəydik. Axı biz atamı işlərinin çoxluğundan tez-tez görə bilmirdik. Orada atam bizi məhşur bir şəlaləyə apardı. Şəlalənin keçilməz, çətin yolları vardı. Anamla biz o yolları keçməkdə çətinlik çəkirdik. Atam deyirdi ki: "Qorxmayın, ardımca gəlin, aşağıda cənnət var". Bacımla biz yolları keçə bilmədik. Atam birimizi belinə, birimizi qucağına alıb bizi aşağı endirdi. Həqiqətən də, aşağıda cənnət var idi.

Atamı çox qısa vaxtda itirsəm də, o mənim ürəyimdə bir ömür yaşayacaq. Atam mənim qəhrəmanımdı...





# Əlizadə Nilay
## (Şəhid mayor Əlizadə Asiman)
## 10 yaş

Mən Əlizadə Nilay Asiman qızıyam. 10 yaşım var. Atam məni "Yekə qızım" deyə çağırırdı. Onun məndən gələcəyə dair o qədər gözləntiləri vardı ki ... Atam məni həkim görmək istəyirdi. İşinin ağırlığına baxmayaraq, tez-tez oxuduğum məktəbə gələr, dərslərimlə, ümumiyyətlə, məktəbin bütün problemləri ilə maraqlanardı.

Atam təbiəti, yaşıllığı sevərdi. İkimiz birlikdə çoxlu ağaclar əkmişik. O ağaclara İndi də qulluq etməyi sevirəm. Çünki hər birində atamın əl izi var. Bir də sizlərə bir şeyi danışacam. Əgər mən həkimliyə qəbul olsam, elə həmin gün atam mənə qırmızı rəngdə maşın alacağına söz vermişdi. Hər dəfə də zarafatla deyərdi: "Birdən işdi, qəbul olmasan, sənə oyuncaq maşın rulu alacam". Çalışacam ki, atama verdiyim sözü tutum.

Mən atam haqqında keçmişdəki kimi danışmağı sevmirəm, çünki o, hər zaman mənim yanımda və ağlımdadı.

Mən fəxr edirəm ki, atam kimi bir qəhrəmanın qızıyam.



# Ağazadə Aysu
## (Şəhid mayor Ağayev Ramil)
## 14 yaş

Mən diviziya qərargah rəisi mayor Ramil Ağayevin qızı Ağazadə Aysuyam. Mənim 14 yaşım var.

Atam bizimlə oyun oynamağı çox xoşlayırdı. Hər dəfə işdən gələndə birlikdə oyunlar oynayırdıq. Atam həmişə anamla söhbət edərkən: "O mənim qızım deyil, dostumdur", - deyirdi və bu, həqiqətən də, belə idi. Mən atamla fəxr edirəm.

Bir dəfə Yeni il günü idi. Atam bizi yığaraq işlərinin çox olduğundan Yeni il axşamında yanımızda ola bilməyəcəyini demişdi. Biz isə çox pis olmuşduq, atamızın yanımızda olmasını çox istəyirdik. Axşam yeməyində adətimiz üzrə anam masanın üstünə dördüncü boşqabı da, yəni atamın boşqabına qoydu. Sanki atamın gələcəyini bilirdi. Yemək yeməyə əyləşəndə birdən qapı döyüldü. Qapını bacım və mən açdıq. Atamı qapının ağzında görəndə çox sevİndik. Onun gəlməsi bizə xoş bir sürpriz oldu.

O vaxt heç ağlımıza da gəlməzdi ki, bu Yeni il bizim birgə keçirdiyimiz sonuncu Yeni ilimizdir.

# Ağazadə Zəhra

## (Şəhid mayor Ağayev Ramil)

13 yaş

Bir dəfə Yeni il günü idi. Atam bizi yığaraq işlərinin çox olduğundan Yeni il axşamında yanımızda ola bilməyəcəyini demişdi. Biz isə çox pis olmuşduq, atamızın yanımızda olmasını çox istəyirdik. Axşam yeməyində adətimiz üzrə anam masanın üstünə dördüncü boşqabı da, yəni atamın boşqabını da qoydu, sanki atamın gələcəyini bilirdi. Yemək yeməyə əyləşəndə birdən qapı döyüldü. Qapını bacım və mən açdıq, atamı qapının ağzında görəndə çox sevindik.

Atamın gəlməsi bizə xoş bir sürpriz oldu. Amma nə biləydik ki, keçirdiyimiz bu Yeni il sonuncu birlikdə keçirdiyimiz Yeni ildir.



# Vəliyev Nihad

## (Şəhid gizir Vəliyev Sehran)

6 yaş

Atam üçün çox darıxıram. Onu yuxumda tez-tez görürəm. O, mənə təkcə ata yox, həm də dost idi. Birlikdə parka gəzməyə, bir də balıq tutmağa gedərdik ... Müharibəyə gedəndə mənə söz verdi ki, gələndə birlikdə balıq tutmağa gedəcəyik. Amma o gəlmədi, şəhid oldu ...

Mən atam üçün çox darıxıram, onu çox istəyirəm. Həm də fəxr edirəm ki, o qəhrəmandır.



# Vəliyeva Nuray (Şəhid gizir Vəliyev Sehran) 4 yaş

Mən atamın balaca şahzadəsiyəm, adım Nuraydır. Mən də qardaşım kimi atam üçün darıxıram, mən atamı xəyallarımda görürəm. Bilirsiz necə? Görürəm ki, qanadları var, xeyirxah mələkdir. Hamıya kömək edir. Düşmən erməniləri öldürür. Dostlarım həyətdə atalarından danışanda mən çox pis oluram. Kaş ki birdən atam işdən gələ, yenə mənə "Balaca şahzadəm" deyib qucaqlaya.

Uşaqlara deyirəm ki, bax mənim atam göydədir, o hamını görür, məni də, qardaşım Nihadı da. Ona görə də biz özümüzü yaxşı aparırıq ki, atam göydən baxanda bizə hirslənməsin.



# Əkbərov Çingiz (Şəhid polkovnik-leytenant Əkbərov Orxan) 8 yaş

Mən qəhrəmanlar diyarı Biləsuvarın Vətən müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Orxan Əkbərovun oğlu Əkbərov Çingizəm. Mənim 8 yaşım var. Mənim atam Füzulinin azadlığı uğrunda şəhid olub, mənim atamla bağlı gözəl xatirələrim var.

Atam çox mehriban, gülərüz biri idi. Mən "Ata" deyə səsləndə "Can, ata qurban", - deyə cavab verərdi. Mən atamın o səsi üçün çox darıxmışam. Biz atamızı gec-gec görürdük, amma atam bizə bir gündə bir ilin sevgisini, sevincini yaşadırdı. Bacımla məni məktəbə aparardı, dərs bitdikdən sonra bizi götürüb parka, marketə aparardı. Biz nə istəsəydik, alırdı.

Mənə çoxlu maşınlar, silahlar alardı. Atamın mənə son dəfə aldığı hədiyyə Polad Həşimovun "Bayraq medalyonu" oldu. Mənə dedi ki: "Oğlum, hər gün dərsə gedəndə bunları sinənə tax.

Ata, mən onları sənin dediyin kimi edirəm, onu göz bəbəyim kimi qoruyuram, sənin pak ruhun bizi qoruyur.

Mən qəhrəman oğlu olaraq, atamla fəxr edir, qürur duyuram. Ata, ruhun qarşısında baş əyirik. Sənin arzuladığın kimi övlad olacağıq.

RUHUN ŞAD OLSUN, MƏNİM QƏHRƏMAN ATAM!

# Əkbərova Sevil 9 yaş
## (Şəhid polkovnik-leytenant Əkbərov Orxan)

Mən Vətən müharibəsi qəhrəmanı polkovnik-leytenant Orxan Əkbərovun qızı Sevil Əkbərovayam, mənim 9 yaşım var.

Mənim atamla bağlı çox gözəl xatirələrim var. Atamla mən bir-birimizə çox bağlı idik, mən nənəmin adını daşıyıram və bu adı mənə atam verib. Atam məni əzizləyəndə "Mosum" deyib əzizləyərdi. Mən atamın o əzizləmələri üçün çox darıxmışam.

Biz atamızı gec-gec görürdük. O hər gələndə bizə dünyanın sevincini və sevgisini verirdi, amma doqquz aydır ki, bu sevgini və sevinci mənə heç kəs yaşada bilmir...

Sənin üçün çox darıxmışam, mənim qəhrəman atam! Kaş səni bir dəfə görə biləydim, sənə sarılıb bərk-bərk qucaqlayıb doyunca öpəydim! Amma mən bilirəm ki, sən bizi göylərdən seyr edirsən, çünki sən ölməmisən.

Şəhidlər ölmürlər, onlar daim yaşayırlar. Səni çox sevirəm, mənim cənnət mələyi olan qəhrəman atam!



# Kərimova Müşkinaz, Əsma, Zəhra 10 yaş
## (Şəhid kiçik çavuş Kərimov Elvin)

Biz üç bacıyıq: Əsma, Zəhra və mən - Müşkinaz. Atamız Vətən müharibəsi şəhididir - Elvin Kərimov. Mənim 10 yaşım var, Əsmanın 8, ən kiçik bacım Zəhradır, onun da 6 yaşı var.

Bizim igid atamız Suqovuşan uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. 2020-ci il oktyabrın 10-u bizim yaddaşlarımızdan silinməyəcək. Çünki biz kiçik yaşlarda olsaq da, atamızın şəhid olduğunu eşidəndə, sanki elə bildik, yaşımız çoxaldı.

Atamla olan xoş günlərimiz əlimizdən alındı. Çünki bir daha atam bizimlə olmayacaq... Bizi gəzintilərə aparmayacaq, bizim istədiyimiz oyuncaqları almayacaq. Bir daha bizi "qızım" deyib bağrına basmayacaq, saçlarımıza sığal çəkib nazlamayacaq.

Nə isə. Atamla olan xəyallarımız bizim üçün bitməz-tükənməzdir. Axı qızlar atalarını çox sevərlər. İndi o boş qalan xəyalların yerini atamızın xatirələri ilə doldurmağa çalışırıq. Biz atamızla fəxr edirik. Atamızın adı Vətən uğrunda canından keçən, silinməz tarix yazan igidlər, qəhrəmanlar sırasındadır. İnşaallah, biz də atamıza layiqli övlad olub, onun arzularını gerçəkləşdirib alitəhsilli övladlar olacaq və atamızın ruhunu şad edəcəyik. Bilirik, atamız cismən yanımızda olmasa da, ruhən yanımızdadır. Çünki o bir mələkdir, daim bizi qoruyacaq.

Atamdan bir ömür boyu yazsam da, doymaram. Bizlərə cənnəti qazanan nur üzlü atam, ruhun qarşısında baş əyirik.

Bizlər yarım qalan arzularımızı hər gün gedib atamızın soyuq məzarıyla bölüşürük, bilirik, o bizi eşidir.

Biz inanırıq ki, o bu dünyada atalarından doymamış qızlarına hər gün dua edir. Canım atam, hər dəfə gəlib məzarına sarılanda „Kaş bu bir yuxu olardı", - deyirik. Amma o yuxuya gedən sən oldun, elə şirin yuxuya getmisən ki, o yuxu sənin üçün ömürlük olub. Səni bu dünyada doyunca görməsək də, bircə təsəllimiz cənnətdə, İnşaallah, səni doyunca görmək qismətimiz olar.

Qəhrəman, öz qanıyla tarix yazan mərd, Vətənpərvər şəhid Elvin Kərimovun qızları olaraq bütün şəhid ailələrinə Allahdan səbir diləyir və şəhidlərimizin ruhu qarşısında baş əyirik. Şəhidlər bizim qürur mənbəyimiz, and yerimizdir. Biz atamızla daim fəxr edəcəyik.



# Mikayılzadə Nuray

## (Şəhid mayor Mikayılzadə Azər)

9 yaş

Mən Mikayilzadə Nuray Azər qızıyam. 4-cu sinifdə oxuyuram. Biz ailədə 4 nəfərdən ibarət idik: atam, anam, mən və məndən 1 yaş balaca qardaşım. Mən bir qəhrəmanın qızıyam. Atamla daim fəxr edirəm, çünki hər qızın bir qoruyucu qəhrəmanı vardır. Atam da hər zaman mənim qoruyucu qəhrəmanım olaraq qalacaqdır.

Mənim atam xüsusi təyinatlı idi. Mayor Mikayılov Azər Əmrah oğlu. Atamla bağlı çox az, amma unudulmaz günlərimiz keçib, çünki atamın işi çox çətin idi, bizlə az zaman keçirərdi, amma atam qardaşımla mənim hər arzumuzu həyata keçirməyə can atardı, gec-gec evə gəlsə də, hər gəldiyində mənlə, qardaşımla danışar və nə istədiyimizi soruşub bizə alıb gətirərdi, çox darıxıram atamın səsi və mənə "Keçi qızım" dəyərək səslənməsi üçün.

Atam evdə olduğu zaman bizi əyləncəli yerlərə aparardı, çalışardı həmişə üzümüz gülsün. Evə gec gəldiyi üçün atamı qucaqlayıb yatmağı çox sevərdim, atam özü olmasa da, ruhu hər zaman mənimlədir. Həmişə atamın gec gəlməyinə görə anama şikayət edərdim, amma İndi anama deyirəm: "Ana, kaş ata yenə gec-gec gələrdi, amma yenə də gələrdi, onu qucaqlamaq üçün çox darıxıram".

Atam evə gələndə həmişə diziüstə çöküb atamın çəkmələrinin ipini açardım, gücüm çatdığı qədər atamın qeydinə qalardım, o günlərimə geri qayıtmaq üçün yenə də körpə uşaq olmaq istərdim. Anam deyir ki: "Sən körpə vaxtı

heç yatmazdın, ata səni aparardı, şəhərdə gəzdirib, yatızdırıb gətirərdi". Mən atamla qürur duyuram, yaxşı ki atam kimi qəhrəman, qorxmaz bir igidin qızıyam. Atama evə gec-gec gəldiyi haqda şikayət bildirəndə deyərdi: "Mən sənə və qardaşına görə əziyyətlərə dözərək işləyirəm, İnşaallah, siz də mənim əziyyətimi itirmədən gözəl oxuyub ən yüksək universitetləri bitirərsiz, sonra siz işləyərsiz, ataya baxarsız, ata istirahət edər". Mən və qardaşım atamızın bu arzusunu həyata keçirəcəyimizə dair söz veririk. Atam özü olmasa da, ruhu bizə baxıb, həmişə sevinib rahat olacaq. Yaxşı ki mənim atamsan, mənim güclü, qorxusuz, qəhrəmanım ATAM !



# İslamzadə Ülviyyə Samir

## (Şəhid kapitan İslamov Samir)

9 yaş

Mən İslamzadə Ülviyyə Samir qızıyam. Mənim 9 yaşım var. Yaşadığım bu 9 il həyatımın ən gözəl illəri olaraq qalacaq. Çünki mən o illəri atamla birlikdə keçirmişəm.

Atam bu gün yanımda olmasa da, bitib-tükənməyən xatirələri yaşayır. O mənə "Canım, ürəyim, prinsesim" deyərdi. Atam hərbçi olduğuna görə biz onu gec-gec görürdük, amma onunla keçirdiyimiz hər an bir ömrə dəyər. Onun işdən gəlişini səbirsizliklə gözləyirdik. Mənlə bir yerdə 3 qardaşım da onu daha çox öpüb qucaqlamaq üçün can atırdıq. Nə qədər yorğun olsa da, bizə qarşı laqeyd olmazdı. Bizlərlə maraqlı oyunlar oynayardı.

Ən gözəl xatirələrimdən biri: Bir dəfə atam mənim iclasımda iştirak etmişdi. Evə qayıdandan sonra müəllimənin məni təriflədiyinə görə qürur duyduğunu dedi. O qədər sevinmişdim ki ... Çünki atam sevinirdi. O bizi çox sevərdi. Mən atamın gülərüz simasını, qayğıkeş münasibətini, bizə verdiyi məsləhətlərini heç vaxt unutmaram. Mən atamın adını yaşadacağam. Bilirəm, şəhid Samir İslamovun qızı olmaq böyük şərəfdi.

Fəxr edirəm ki, qəhrəman atanın qızıyam.

# İslamzadə İdris

## (Şəhid kapitan İslamov Samir)

10 yaş

Mən İslamzadə İdris Samir oğluyam və mənim 10 yaşım var. Mən qəhrəman şəhid Samir İslamovun oğluyam. Mənim yaşım az olsa da, hər şeyi anlayıram, başa düşürəm.

Mən sizə atamla keçirdiyim xoş və unudulmaz xatirələrdən danışacam. Atam mənim sirdaşım idi, dostum idi. Mən evin böyük uşağı olduğuma görə, atamla bağlı xatirələrim daha çoxdur. Atam təhsilə çox əhəmiyyət verirdi, hətta onun mənlə bağlı arzusu var idi. Mənim diş həkimi olmağımı istəyirdi. Mən çalışacam, atamın arzusunu gerçəkləşdirim.

Dərslərlə yanaşı, məni idmana da həvəsləndirərdi. Evdə olan vaxtlarda yorğun olsa da, hər gün səhərlər mənlə bir yerdə məşqlərə gedərdi.

Yadda qalan ən xoş xatirələrimdən biri: Mən velosipedimin olmağını çox arzu edərdim, amma atam bu arzumu bilmirdi. Bir gün atamın işdən gəlməyini səbirsizliklə gözləyirdim. Atam mənə hədiyyə velosiped almışdı. Mən həmin an çox sevinmişdim. Atam həmişə deyərdi ki, bizim evdə 3 əsgər böyüyür. O mənə və qardaşlarıma hərb sənəti haqqında maraqlı söhbətlər edirdi. Uşaq vaxtımızdan atam bizə Vətəni sevməyi, qorumağı, millətinə hörmət etməyi öyrədərdi. O bizim fəxrimiz, qürurumuzdur.

Nə yaxşı ki, mən elə bir atanın oğluyam. Onun adına layiq yaşayacağam.



# İslamzadə İslam

## (Şəhid kapitan İslamov Samir)

6 yaş

Mən İslamzadə İslam Samir oğluyam, mənim 6 yaşım var. Mən şəhid oğluyam. Atam Vətən uğrunda şəhid olub.

O heç nədən qorxmurdu. Atam çox güclü idi. Bacımı, məni iki qardaşımla birlikdə iki barmağında qaldırırdı. Bizimlə əyləncəli oyunlar oynayardı, balıq tutmağı öyrədərdi. Atamla bir yerdə bağçaya getməyi çox sevərdim.

Bu il mən məktəbə 1-ci sinfə gedəcəyəm. Çox istərdim, məktəbə gedəndə atam yanımda olsun. Amma mən bilirəm, o bizim yanımızda olmasa da, bizi görür. Ona görə bundan sonra da onun istədiyi kimi güclü, ağıllı olacam. Atamı çox sevirəm, həmişə sevəcəm, hec vaxt onu unutmayacam. Mən böyüyəndə qəhrəman atam üçün şeir yazacam.

# Allahyarlı Fatimə 8 yaş

## (Şəhid baş çavuş Allahyarov Vüsal)

Mən şəhid Allahyarov Vüsalın qızıyam. Ata mənim qəhrəmanımdı. Mən onu çox istəyirəm, atam üçün çox darıxıram.

Atam çox yaxşı insan olub. O hamıyla mehriban rəftar edər, əlindən gəldiyi qədər hər kəsə kömək etməyə çalışardı. Mən atamdan yalnız gözəlliklər öyrənmişəm.

Atam həmişə bizim ürəyimizdə yaşayacaq. Anam deyir ki, ata bizi görür, eşidir. Biz hər dəfə atamı ziyarət edəndə onunla söhbət edirəm, bizə baxıb gülümsədiyini hiss edirəm.

Mənim nurüzlü qəhrəman atam, həmişə sənə layiq olacağıq. Hər gecə yatanda Allaha dua edirəm ki, səni yuxuda görüm. Sən həmişə ürəyimdəsən, canım atam, səni çox istəyirəm. Cənnətində rahat yat, mənim igid atam.



# Babayeva Selcan 4 yaş

## (Şəhid baş leytenant Babayev Vüsal)

Mənim adım Selcandı. Atam leytenantdı, həm də baş leytenant. Babayev Vüsal. Onu siz də tanıyırsız. Çünki anam deyir ki, atamı hamı tanıyır. Axı atam qəhrəmandı. O, çoxlu düşmən öldürüb! Bizim torpaqlarımızı ermənilər almışdı, atam gedib onları öldürdü, qovdu, sonra da özü şəhid oldu. Göylərə qalxdı. İndi atam göydə yaşayır. Hamı mənə deyir ki, mən qəhrəmanın qızıyam.

Mən atamla cəmi 3 il 8 ay bir yerdə yaşadım. Deyirlər ki, mənim atam bir qəhrəman olub! Bunu eşidəndə o qədər sevinirəm ki ...!

Atam məni və bacım Rüqəyyanı çox sevirdi. O, vaxtının çoxunu işdə keçirsə də, çalışıb işdən tez gəlib bizimlə vaxt keçirirdi. Bacımı və məni parka aparırdı.

Atam bizim hər arzumuzu yerinə yetirirdi ... Həmişə bizi qoruyurdu ... Atamı hər səhər işə yola salanda dua edirdik ki, sağ-salamat gedib gəlsin ... O bizi bərk-bərk qucaqlayardı. Biz elə bilirdik ki, atam hər zaman bizim yanımızda olacaq ... Ancaq anam deyir ki, atamız ən uca zirvədədi. Onun adı şəhidlik zirvəsidi. Həm də ora ucadı, çox uca. Atam Azərbaycanın qəhrəmanıdı ... Biz onunla fəxr edirik.

# Abdullayeva Asya

## (Şəhid baş gizir Abdullayev Eldar)

## 11 yaş

Mən şəhid Eldar Abdullayevin böyük qızı Asya Abdullayevayam. Mənim atam baş gizir olub, o, həm də hərbi həkim kimi fəaliyyət göstərib!

Mənim atamla bağlı xatirələrim çoxdur. Keçən il biz rayona getmişdik və orada biz atamın ad gününü keçirdik. O ad günü hələ də yadımdadır.

Atam hər nə olsa da, bizim tərəfimizi tuturdu. Biz həmişə nəsə baş versə, birinci atamızı çağırırdıq. Qışda ilk qar yağanda bizi çölə çıxarırdı ki, qarla oynayaq.

Mən atamı çox sevirəm. O hər axşam olanda bizi çölə çıxarar və əyləncə parkına aparırdı. Mən bir daha deyirəm: Atamla fəxr edirəm!



# Cəfərova Nərgiz

## (Şəhid polkovnik-leytenant Cəfərov Ramiz)

## 14 yaş

Mən Cəfərova Nərgiz şəhid, Vətən müharibəsi qəhrəmanı polkovnik-leytenant Ramiz Cəfərovun övladıyam. Atamı 14 il görə bildim, amma onunla yaşadığım illər ömrümün ən əziz, unudulmaz illəri kimi qəlbimə əbədi həkk olacaq ...

Atamı çox gözəl xatırlayıram, çünki o bizim qəhrəmanımızdır. 2020-ci ildə atamı çox görə bilmədim, çünki tez-tez təlimlərə gedirdi, ancaq hər dəfə bizə zəng edirdi, məndən dərslərim barədə soruşurdu. Mən də “yaxşıdır” deyirdim.

Oktyabrın 30-da onunla sonuncu danışığımız oldu. Mənə dedi ki: “Dərslərini yaxşı oxu, qızım, gələcəm”. Mən də dedim: “Mən yaxşı oxuyuram, ata, sən də sağ-salamat gəl, sonra soruşdum: “Necəsən, ata?” Dedi: “Mən də yaxşıyam. Qələbə bizimlədir”.

Noyabr ayının 6-da atam şəhid oldu ... Onunla qürur duyuram, nə yaxşı ki mənim atamdı, atamla təkcə mən yox, bütün Azərbaycan xalqı fəxr edir. Çalışacağam ki, dərslərimi daha yaxşı oxuyub atamın adına layiq övlad olum.

# Həsənli Səid
## (Şəhid mayor Həsənov Elşad)

8 yaş

Vətən müharibəsində qəhrəmanlıq göstərən igidlərdən biri də mənim atam mayor Həsənov Elşad Paşa oğludur. Atam Kəlbəcərin azad olunması uğrunda gedən döyüşlərdə oktyabrın 2-də Murovdağda şəhidlik zirvəsinə ucalıb.

Mən onun oğlu Həsənli Səidəm, mənim 8 yaşım var. Mənim atam çox mehriban, övladlarına bağlı, gülərüz biri idi. Atam üçün çox darıxıram. Onun səsi, gülüşü, "Səid balam, igid balam" deməsi üçün çox darıxıram.

Atamla çox gözəl xatirələrimiz var. Sonuncu dəfə məni hərbi hissədəki avtomobil parkına aparmışdı. Məni ordakı hərbi maşınların hamısına bir-bir mİndirib tanış etdi. Atamın işi çox çətin idi, amma o, işini çox sevirdi. Tez-tez bizə hərbiyə aid kitablar oxuyurdu, şəkillər göstərirdi. Ordumuzun necə güclü olduğu barədə danışırdı. Sonunda əməllərində də göstərdilər ki, Azərbaycanın necə güclu, Vətənsevər ordusu var.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Anam bizə deyir ki, şəhidlər ölməyib, onlar hər an bizi görür, bizimlədilər. Atam ölümündən sonra cənab prezident tərəfindən 3-cü dərəcəli "Rəşadət" ordeni, "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medallarına layiq görülmüşdür.



# Sarızadə Əliəsgər
## (Şəhid Sarıyev Vüqar)

8 yaş

Hər kəsi salamlayıram. Mən şəhid Sarıyev Vüqarın oğluyam, adım Sarızadə Əliəsgərdi, 8 yaşım var.

Mənim atam qəhrəmandır və mən atamla fəxr edirəm. Amma atam üçün çox darıxıram, atam bizə çox vaxt ayırırdı. Bizi hər gün gəzdirirdi, hər istədiyimizi edirdi, bizə hər şey alırdı. Bizim hər istəyimizi yerinə yetirirdi.

Atam mənim təhsilimlə çox maraqlanırdı. İstəyirdi ki, mən yaxşı oxuyum, sinifdə birinci olum. O məni gələcəkdə alitəhsilli görmək arzusunda idi. Mən atamın arzusunu yerinə yetirmək üçün əlimdən gələni edəcəyəm. Atasızlıq çox çətindir, ona görə də mən anama və bacıma da göz-qulaq olacağam, axı İndi evimizin kişisi mənəm.

Mən atamı çox istəyirəm. Mənim atam dünyanın ən yaxşı atasıdır, kaş ki yenə yanımızda olardı, Canım atam

# Sarızadə Rüqəyya
## (Şəhid Sarıyev Vüqar)

6 yaş

Mən də hər kəsə salam göndərirəm. Mən Sarizadə Rüqəyya qəhrəman atamın qızıyam. Atam mənim canımdır. Mən onu hər şeydən çox istəyirəm, atam üçün çox darıxıram. Atam bizi çox istəyirdi, mənə "Balaca mələyim" deyirdi. O mənə həm də "Gözəl qızım, biricik qızım" deyib əzizləyirdi.

Atam bizim üçün hər şey edirdi, mən nə istəyirdim, hər şey alırdı. Atamdan ötrü çox darıxıram. Atam bizi çox gəzdirirdi, bizə hər şey alırdı ...

Heyif atamdan ... Daha onu görə bilməyəcəm



# Səmədov Süleyman
## (Şəhid gizir Səmədov Mayis)

13 yaş

Vətən müharibəsində qəhrəmanlıq nümayiş etdirən hərbçilərdən biri də DİN Daxili Qoşunlarının XTD - nin istehkamçısı gizir Mayis Səmədovdur. Mən onun oğlu Səmədov Süleymanam və mənim 13 yaşım var.

Mənim atam Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Atamla birgə xoş xatirələrim unudulmazdır. Biz həm ata-bala, həm də dost idik. Mən onunla olimpiya yarışlarında güləş idman növü ilə məşğul olurduM. Birgə velosiped sürürdük.

Atam mənim polis olmağımı arzu edirdi. Mən də çalışacam, onun arzusunu yerinə yetirim. Mənim atam döyüşlərə qatıldığı ilk gündən müqəddəs borcunu şərəflə yerinə yetirən cəsur komandirdir. Hərbi anda sadiq əsl hərbçi kimi Vətən uğrunda canından keçməklə şəhidlik zirvəsinə ucalıb. Allah bütün şəhidlərimizə rəhmət etsin.

Şəhidlər ölməz! Vətən bölünməz!

# Səmədova Məleykə (Şəhid gizir Səmədov Mayis)

14 yaş

Vətən müharibəsində Xaçmazın dastan yazan şəhidlərdən biri də Mayis Səmədov olmuşdur. O, DIN Daxili Qoşunlarının giziri idi. Mən də onun qızı Səmədova Məleykəyəm, mənim 14 yaşım var.

Atam gülərüz, mehriban, qayğıkeş, ailəcanlı idi. Onunla bağlı xatirələrimi heç vaxt unutmaram. Birgə gəzintilərimizi, dərslərimdə hər zaman göstərdiyi köməkliyi bütün həyatım boyu yaddan çıxarmaram.

Gözəl geyimlər, ayaqqabılar, bir sözlə, istədiyim hər bir şeyi mənə hədiyyə alırdı. Gələcək nəsillərimizin daha gözəl, daha da firavan yaşaması üçün atam kimi igid hərbçilərimiz şəhid oldu. Atam prezidentimizin sərəncamı ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunması uğrunda" medalları ilə təltif olunub. Şəhidlər Vətənin igid oğulları, Yaradanın isə seçilmiş bəndələridir. Atam oktyabr ayının 5-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

Şəhidlər ölməz! Vətən bölünməz !



# Paşazadə Əlizaman (Şəhid mayor Paşayev Daşdəmir)

8 yaş

Mən atam ilə qürur duyuram. Mən böyüyəndə pilot olacam.

Atam bizə çox vaxt ayırırdı. O məni gəzməyə aparırdı.

Atam məni hər səhər özü ilə işə aparırdı, mən atama kömək edirdim. Atam mənim ilə fəxr edirdi, İndi isə biz onunla fəxr edirik.

Atam şəhidlik zirvəsinə ucaldı. O mənə hər zaman mərd olmağı öyrədirdi, heç kəsdən qorxmamağı öyrədirdi ... İndi mən bacılarıma arxa-dayağam. Atam bizi, biz də atamızı çox sevirdik. O bizi maşınla da gəzməyə aparırdı.

Sən həmişə bizimləsən, mənim igid atam!

# Paşazadə Məryəm (Şəhid mayor Paşayev Daşdəmir)

9 yaş

Mənim atamla olan çox xatirələrim var. Atamın arzusu məni müəllimə kimi görmək idi. Mən atam üçün çox darıxıram. Atam işdən evə gələndə biz tez qaçıb onu qucaqlayırdıq.

Atamız bizə hər istədiyimizi alırdı. Atam mənim ad günümdə hədiyyə alırdı. O bizi bayramlarda gəzməyə aparırdı, karusellərə mİndirirdi.

Atam bizimlə olanda çox xoşbəxt idik. Mənim bacılarım və qardaşım mənim ən dəyərlilərimdir. Mənim ən çox istədiyim şey atamın geri qayıtmasıdır.

Çünki atam mənim arxam, dayağım idi.



# Paşayeva Sofiya (Şəhid mayor Paşayev Daşdəmir)

4 yaş

Mən atam üçün çox darıxıram. Atam evə gələndə hamıdan birinci məni qucaqlayırdı.

Çox vaxt o işdən gələndə mən yatmış olurdum. Atam da məni xəlvətcə çoxlu-çoxlu öpürdü ...

Atam hərbiyə gedəndə də ən birinci məni öpüb, qucaqlamışdı. Mən atam üçün çox darıxıram. Kaş o gələydi ...



# Paşazadə Zeynəb

## (Şəhid mayor Paşayev Daşdəmir)

11 yaş

Mənim atamla olan çox xatirələrim var. Atam bizim ən yaxın dostumuz idi. Atasız ev boşdur, mən atam üçün çox darıxıram. Atam evə gəlməmiş biz yatmırdıq.

Mən atamla fəxr edirəm. Mənim həyatımda görmədiyim şeyləri atam alırdı. O hər il bizi gəzməyə aparırdı. Anam ilə atamın bizə etdiklərini heç kim bizim üçün etməzdi. Ən çox istədiyim şey atamın geri qayıtmasıdır.

Mən atam ilə qürur duyuram. Bacarmadığım şey atamı geri qaytarmaqdır. Atam bizi hədsiz dərəcədə çox istəyirdi. O bizdən doymayıb bu dünyadan köçdü. İndi biz onun bütün yarımçıq qalan arzularını həyata keçirmək üçün əlimizdən gələni etməyə hazırıq.

Mən atamla fəxr edirəm, o mənim qürurumdur. Canım atam, sən həmişə bizimləsən.



# Heydərli Şəms

## (Şəhid mayor Heydərov Amid)

7 yaş

Mənim atam çox vaxtını işdə keçirirdi. Amma evə gec də gəlsə, mütləq bizi oyadıb görüşürdü, öpürdü bizi. Həmişə gələndə zəng vurub nə istədiyinizi soruşurdu.

Atam mənə "Nazlı qızım" deyirdi həmişə. Bəzən "Qara qızım" da deyirdi. Həmişə deyirdi ki, səni çox istəyirəm, Şəms, sən mənə çox oxşayırsan". Bir də: "Yaxşı oxu həmişə, - deyirdi, - həkim ol". İnşaallah, atamın arzusunu həyata keçirər, həkim olaram. Canım atam, səni çox istəyirəm, lap çox.



# Musayeva Arzu Sədi
## (Şəhid polkovnik-leytenant Musayev Sədi) 14 yaş

Mən Musayeva Arzu Vətən müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Sədi Musayevin övladıyam.

Atam məni "Canım qızım" deyə çağırardı. Onun məndən gələcəyə dair gözləntiləri o idi ki, mən gələcəyin ən yaxşı həkimi olum ... İşinin ağır olmağına baxmayaraq, tez-tez məktəbə gələr, dərslərimlə maraqlanardı. Çalışacam ki, atama verdiyim sözü tutum və gələcəyin ən yaxşı həkimi olum.

Mən atamı çox istəyirəm, atam üçün çox darıxıram. Atam çox yaxşı insan idi. Mən onu çox istəyirəm. Atam həmişə bizim üçün ən yaxşısını edirdi. Hər dəfə nə olsa, biz ilk atamızı çağırıb deyirdik: "Ata, bir hadisə baş verdi". Atam tez qaçıb gəlir, işi həll edirdi.

Atam o qədər ürəyiaçıq, o qədər mehriban idi ki. O, əlindən gəldiyi qədər hər kəsə kömək edirdi. Atam həmişə bizim ürəyimizdədir. O bizi görür, eşidir. Mənim nurüzlü, qəhrəman atam, həmişə sənə layiq olacağıq.

Sən həmişə ürəyimdəsən, canım atam, səni çox istəyirəm. Mən bilirəm ki, sən hər zaman mənim yanımdasan, sən heç yerə getməmisən. Mən səninlə qürur duyuram. Fəxr edirəm ki, sənin kimi ATAM var.

Mən fəxr edirəm ki, atam kimi bir qəhrəmanın qızıyam.



# Musayev Süleyman
## (Şəhid polkovnik-leytenant Musayev Sədi) 12 yaş

Mən Musayev Süleyman Vətən müharibəsi qəhrəmanı şəhid Musayev Sədinin övladıyam.

Atam həmişə məni "Atam" - deyə çağırırdı, bunun səbəbi də o idi ki, mən babamın adını daşıyıram, yəni atam mənə öz atasının adını verib.

Mənim atamla xatirələrim çoxdur, keçən il biz atamın ad gününü bir yerdə keçirdik, o gün hələ də yadımdadır.

Atam nə olursa olsun, hər zaman bizim tərəfimizi saxlayırdı. Biz həmişə nə isə baş versə, birinci atamızı çağırırdıq. Atam da kömək edirdi. Hər gün işdən gələndə bizdən dərsimizi soruşur, razı qalırdısa, bizi parka aparırdı.

Atamın mənim haqda gələcəklə bağlı gözləntisi o idi ki, mən böyüyəndə pilot olum. Mən atama söz vermişdim ki, pilot olacam. Atama verdiyim sözü tutacam.

Atam hər kəsə qarşı əliaçıq idi. Hər zaman hər kəsə kömək edirdi. Bir dəfə biz Beyləqanda qalanda bir nənənin evinin damı yox idi. Atam usta çağırıb, o nənənin evinin damını tikdirdi ki, nənə yağışın altında qalmasın.

Mən fəxr edirəm ki, atam kimi qəhrəmanın oğluyam.

# Abdullazadə İslam

15 yaş

(Şəhid polkovnik-leytenant Abdullayev Rasim)

Mən 2006-cı il təvəllüdlü Abdullazadə İslam Rasim oğluyam. Atam Abdullayev Rasim Vətən müharibəsinin şəhididir.

Atam haqqında danışmaq mənə həm çətin, həm də qürurvericidir. Çətİndi, ona görə ki, həm arxa-dayağım, həm də dostum-sirdaşım olan atamı itirdim. Qürurvericidir, ona görə ki, övladlarına bağlı, Vətəninə bağlı bir şəxsiyyətdən - əsl şəxsiyyətdən söz açacam.

Mənim atam böyüklə böyük, kiçiklə kiçik olub. O, hərbi həkim vəzifəsində işləyirdi, şərəfli bir peşədə çalışırdı. İşinin çətin olmasına baxmayaraq, atam övladlarına da vaxt ayırmağa çalışırdı, boş vaxt tapan kimi, bizi Azərbaycanımızın gözəl bölgələrinə aparardı. Gəzməli yerləri bizə göstərərdi, muzeylərə gedərdik.

Atam deyirdi ki: "İnşaallah, Kəlbəcər alınar, gedərik ora. Apararam sizi, görərsiniz, necə gözəl yerlərimiz var". Təəssüf ki, o gözəl yerlərimizə atamla birgə gedə bilməyəcəyik. Atamsız getməli olacam, lakin atam cismən mənimlə olmasa da, ruhən mənimlə olacaq, çünki mən onunla nəfəs alırdım, o da mənimlə, qardaşımla nəfəs alırdı.

Mənim idmanımda da atam iştirak edərdi. O mənim peşəkar futbolçu olmağımı çox istəyirdi, məşqlərimə gələrdi, baxardı, yarışlarım olanda dəstək olardı. Yadımdan heç vaxt çıxmaz, atam tez-tez istiqamət vermək üçün mənə stadiondan səs edərdi, mən də qürur hissi keçirirdim ki, arxam gəlib əyləşib, ürəklə oynayırdım. Hər məşqimdə atamın səsi qulağımdadır. Elə bilirəm ki, nəyisə səhv etsəm, atam istiqamət verəcək mənə.

Çalışacam, atama layiqli övlad olum ki, onun da ruhu şad olsun. Atam şairruhlu insan idi. Şeirlərində dediyi bir misra ilə bitirəcəm sözümü.

Ömrümə yazılan mənalı illər,<br>
Səninlə gəlmişdi, səninlə getdi!



# Bayramova Səbinə (Şəhid Bayramov Osman)

11 yaş

Mənim 11 yaşım var. Atamla birgə çox gözəl günlərimiz olub. Biz ailəlikcə çox maraqlı günlər keçirirdik. Atamı çox istəyirdim, yenə də çox istəyirəm. İstəyərəm, atam yanımızda olsun. Atam üçün darıxıram, çox darıxıram.

Atamla ad günlərimizi birgə qeyd edirdik. O, mənə sürpriz etməyi sevirdi, bir dəfə mənə hədiyyə olaraq böyük bir ayı almışdı. 8 yaşım olanda isə atamdan velosiped istəmişdim. 14 iyul ad günüm idi, atam mənə velosiped hədiyyə etdi. Bu il ilk dəfə olacaq ki, ad günümü atamsız keçirəcəm.

İstəyərdim, atam yanımda olsun, həmişəki kimi yenə ad günümdə mənə sürprizlər etsin. Mən onunla gəzməyə gedirdim, onunla daha xoşbəxt idim. İndi o günləri xəyal edirəm, heç vaxt yadımdan çıxmaz o günlər.

Düzdü, atamla az vaxt keçirdim, amma mənim üçün o günlər əbədi və unudulmazdı. Nə yaxşı ki, belə igid atam olub. Mən fəxr edirəm ki, atam kimi bir igidin qızıyam, mən fəxr edirəm ki, bu qədər gözəllikləri mənə bəxş edib.

Hərdən oturub atamın şəkillərinə baxır, onu xəyal edirəm... Bilirəm ki, atam ürəyimizdə həmişə yaşayacaq.

Ata, səni çox sevirəm və həmişə də sevəcəm. Canım atam, məkanın cənnət, ruhun şad olsun. Sənə layiqli bir övlad olacam, Canım atam.



# Ələkbərzadə Əkbər (Şəhid Ələkbərov Əli)

8 yaş

Mən Ələkbərzadə Əkbər şəhid Ələkbərov Əlinin ilk övladıyam. Mənim 8 yaşım var. Bu il 1-ci sinfi bitirdim.

Mən atamı çox sevirəm. Məktəb ləvazimatlarımı atam almışdı. Ona görə çantamdan çox xoşum gəlir. İlk dərs ilimin ilk günündə məktəbə atamla birlikdə getmişdim. Çox gözəl keçdi. Atam məni, bacımı çox sevirdi. Bizi parka gəzməyə aparardı. İşdən gələndə bizimlə oynayardı. Biz Azərbaycanın Tovuz bölgəsindənik. Tovuz döyüşləri başlayanda atam çox hiddətlənmişdi. Könüllü olaraq cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət də etmişdi. Lakin çağırışçılar çox olduğundan könüllülərə ehtiyac olmadı və atam evə qayıtdı. Sonra hərbi komissarlığa dəfələrlə müraciət etdi.

Sonuncu müraciətində şəhidlərin olduğunu, hətta bir şəhidin az yaşlı övladı olduğunu öyrənmişdi. Evə gələndə qanı çox qara idi ...

Qardaşımı çox sevirəm, həm qardaşım olduğu, həm atama çox oxşadığı, həm atamın məni qorumağı ona tapşırdığı, həm də ata əvəzim olduğu üçün. O çalışır ki, həmişə məni qorusun.

# Pənahzadə Nilay
## (Şəhid kapitan Pənahov Rövşən)

5 yaş

Mənim 5 yaşım var. Qardaşımla oynamaqdan çox xoşum gəlir. Bir yerdə yaxşı vaxt keçiririk.

Bizim atamız dünyanın ən mehriban, ən gözəl atasıdır. Bizim atamızla bir yerdə çox gözəl xatirələrimiz olub. Onunla bir yerdə gəzirdik, əylənirdik, o qədər yaxşı olurdu ki. Hansı birini danışım, heç bilmirəm. Bir yerdə çox arzular, çox xəyallar qurmuşduq ... Amma heyif , olmadı ...

Anam deyir ki, mənim atam çox güclü olub, düşmənləri öldürüb! Bir də anam deyir ki: "Sən atana layiq olmalısan". Yəni yaxşı qız olmalıyam, heç kimi incitməməliyəm, atamın adını həmişə uca tutmalıyam.

Ona görə də mən böyüyəndə həkim olmaq istəyirəm. Çünki anam da deyir ki, atamın ən böyük arzusu mənim həkim olduğumu görmək olub.

Bir də onu istəyirəm ki, anam, qardaşım, nənəm, babam həmişə mənim yanımda olsunlar.



# Ələkbərzadə Nazlı
## (Şəhid Ələkbərov Əli)

6 yaş

Mən Ələkbərzadə Nazlıyam, şəhid Ələkbərov Əli Ələkbər oğlunun qızıyam, 6 yaşım var. Bu il məktəbəqədərə gedəcəm. Mən atamı çox sevirəm. Onun üçün çox darıxıram.

Demək olar ki, hər gün atamın nə vaxt gələcəyini, niyə gəlmədiyini anamdan soruşuram. Atamın şəhid olduğunu bilirəm. Şəhid olmağı mən qəhrəmanlıq, mərdlik kimi dərk edirəm. Anam başa salsa da, hələ də müvəqqəti olaraq cismən yanımızda olmayacağı kimi anlayıram.

Bu yaxında anam bizi Şəhidlər xiyabanına apardı. İlk dəfə gedəndə atamın şəklini məzarının üstündə görəndə anlamadım. Ancaq içimdəki həsrətdən idi, ya nədən, bilmirəm, gözlərimi ovuşduraraq içimdən səssiz-səssiz ağladım. Ancaq özümü elə göstərdim ki, guya gözümə nə isə düşdü. Atam üçün çox darıxıram.

İstəyirəm ki, həmişə yanımızda olsun. Yenə parka gedək, bizimlə oynasın. Məni parka aparmağa söz vermişdi. Bir gün anama: "Ana, ən sevimli günümdə belə mənim ürəyim sevinmir", - dedim. Anam çox pis oldu və biz ağladıq.

Bu il doğum günümüzü atamsız keçirdik və çox üzüldük.

Ata, sənin üçün çox darıxıram. Səni çox sevirəm. Anam nə qədər başa salsa da, artıq "Ata gələ bilməyəcək" fikrini mən qəbul etmirəm, hey ağlayıram ki, niyə gəlməyəcək?

Mən səninlə fəxr edirəm, qürur duyuram, mənim qəhrəman ATAM!

# Qasımova Fatimə (Şəhid gizir Qasımov Təbriz)

5 yaş

Mən Qasımova Fatiməyəm, gizir Təbriz Qasımovun qızı. Mən atamla fəxr edirəm. Mənim atam qəhrəmandır.

Anam deyir ki, atam Qarabağ torpaqlarını düşməndən azad edib, çoxlu düşmən öldürüb! O əvvəllər evə həmişə gəlirdi, zəng edirdi, amma qəhrəman olandan sonra gələ bilmir, zəng də edə bilmir.

Mən atamı çox sevirəm, onun üçün çox darıxıram. Atam həmişə işdən gələn kimi məni çiyninə alıb parka gəzməyə aparırdı. Mənimlə uşaq kimi oynayır, məni çox öpür, çox sevirdi. Anam atam gəlmədiyi üçün çox ağlayır, üzülür. Heç yerə getmir, onu gözləyir. Mən də anamın ağlamasını istəmirəm. Biz üçümüz ailəyik, atamı da, anamı da çox sevirəm.

Mən atama məktub yazıram, şara qaz doldurub, məktubu ona baglayıb gondərirəm. Atam da oxuyur məktubumu. Mən atama hər təyyarə görəndə salam da göndərirəm. O da eşidir. Mənim atam qəhrəmandı. Canım atam, səni çox sevirəm.

Kaş sehrli dəyənəyim olaydı, atamla olan günlərimizi geri gətirərdim. Anama deyirəm: "Zəng elə, atamla danışım". O da deyir: "Atana komandir icazə vermir. İşləri çoxdu. Qəhrəmanlar danışa bilmir. Arada zəng edir atama, amma zəng çatmır.

Mən atam üçün çox darıxmışam. Nə olar, ata, tez qayıt...



# Rüstəmzadə İsmayıl (Şəhid Rüstəmov Elnur)

10 yaş

Mən Rüstəmzadə İsmayıl şəhid Rüstəmov Elnurun oğluyam, 10 yaşım var.

Mənim də arzularım var, atamla bağlı xatirələrim var. Atam məni çox sevirdi, mən də atamı sevirdim, sevəcəm də bir ömür boyu.

Mənim atam bir oğul kimi, bir ata kimi, bir həyat yoldaşı kimi əvəzsizdi. Mən fəxr edirəm ki, elə bir qəhrəmanın oğluyam. Atamla fəxr edirəm.

Atamın arzusu məni həkim görmək idi. Mən də onun arzusunu yerinə yetirmək üçün əlimdən gələni edəcəm. Mənim atam mənim vuran ürəyimdi. Atamın bir sözü qulaqlarımdan getmir. Bir dəfə mənə dedi ki: "Əgər mən şəhid olsam, ananı, qardaşlarını sənə tapşırıram". O tapşırığı heç vaxt unutmaram, ata! Sənə söz verirəm, anamı və qardaşlarımı göz bəbəyim kimi qoruyacağam.

Səninlə fəxr edirəm, ata!

# Rüstəmzadə Nail
## (Şəhid Rüstəmov Elnur)

9 yaş

Mən Rüstəmzadə Nail, 9 yaşım var, Vətən müharibəsi şəhidi Rüstəmov Elnurun oğluyam. Mənim bu dünyada çoxlu istəklərim, arzularım vardı ... Mən ən çox onu istərdim ki, atam sağ olsun, o zaman mən arzularıma, istəklərimə çatardım. Atam bizim başımızın tacı idi. İndi başımızın tacı getdi...

Atama qurban olum, onunla fəxr edirəm. O heç bir zaman qoymazdı ki, bizim üzümüz solsun ... Atamın mənimlə bağlı arzusu vardı. İstəyirdi ki, mən polis olum. Mən də onun arzusunu yerinə yetirəcəyəm.

Mən bir qəhrəmanın oğlu olduğum üçün fəxr edirəm. Atam mənim qürur yerimdir. Mənim atam hər zaman bizimlədir. Şəhidlər ölmür, bu mənim üçün bir təsəllidi.

Atasız dünya çətinmiş, mən atamı və ailəmi çox sevirəm.



# Rüstəmzadə Azər
## (Şəhid Rüstəmov Elnur)

5 yaş

Mənim adım Azərdi, soyadım da Rüstəmzadə. Mən Rüstəmov Elnurun oğluyam, mənim 5 yaşım var.

Mənim istədiyim odu ki, atam gəlsin, mən də onu çoxlu görüm. Anam deyir ki, mən hələ balacayam, ona görə də hələ çox şeyi başa düşə bilmirəm, böyüyəndə hər şeyi biləcəm.

Anam bir də onu deyir ki, mənim atam şəhid olub. Ona görə də biz üç qardaş gərək atama layiq oğlanlar olaq. Mən onu istəyirəm ki, biz 3 qardaş atam kimi qəhrəman olaq. Anam deyir ki, atam daha göydə yaşayır, bizi ordan görür, nə etdiyimizi bilir. Ona görə gərək anamı incitməyək. Belə olsa, atam da sevinər, hər zaman bizimlə fəxr edər.

Mən də, qardaşlarım da fəxr edirik ki, atamız bu cür qorxmaz, qəhrəman, igid və cəsur insan olub! Atama qurban olum.

# Qasımzadə Murad
## (Şəhid baş leytenant Qasımov Şöhrət)

5 yaş

Salam. Mən Qasımzadə Murad Şöhrət oğluyam, mənim 5 yaşım var. Hələ məktəbə getmirəm, ona görə də yazmağı bacarmıram. Bunun üçün də anam mənim əvəzimə yazır.

Atam mənə həmişə "Ata" deyirdi. O mənim atam idi, mən də onun atası idim. Atam mənim yadımda çox gözəl qalıb. O, həmişə gülürdü, mənimlə oynayırdı, məni çox sevirdi. Atam qəhrəman atadır. Super qəhrəman.

Həmişə məni özü ilə işə aparırdı. Əsgərlərə salam verməyi öyrədirdi. Bir gün mənə tank göstərdi, dedi ki, "Ata, heç vaxt qorxma tankdan. Sən kişisən".

İşə gedəndə həmişə deyirdi: "Sən evin kişisisən". Bir gün atam işdən gəldi, bizi maşınla nənəgilə apardı. Mənə dedi ki, sən həmişə bacının, ananın yanında ol. Maşını ustaya verib gələcəm. Sonra bir də mən atamı görmədim. Atam şəhid oldu ...

Mən atam üçün çox darıxıram. İstəyirəm, yenə gəlsin, mənimlə oyunlar oynasın. Biz birlikdə gəzməyə gedək. Ancaq anam deyir ki, ata daha gələ bilməz. Ancaq o mənə və bacıma həmişə baxıb görür. Mən ağıllı olacam, atam da mənə baxıb sevinəcək.

Mən atam üçün Vətən şeirləri öyrənmişəm. Şəhidlər xiyabanında onun üçün oxuyuram. O da göydən mənə baxıb eşidir. Atamı yuxumda da görürəm. Çoxlu öpürəm, o da mənə deyir ki: "Bacını incitmə, mən yenə gələcəm".

Mən atamla fəxr edirəm. Mənim atam qəhrəmandır.



# Zamanov Kənan
## (Şəhid mayor Zamanov Sənan)

8 yaş

Atamla keçirdiyim son gün bacımın ad günündə oldu. Həmin gün çox gözəl vaxt keçirmiş, çox əylənmişdik. Bütün şəhəri gəzdik, atam bacıma tort aldı, sonra da evdə bacıma ad günü keçirdik.

Ən yaddaqalan günlərimdən biri də atamla keçirdiyim öz ad günümdü. Mənim ad günüm atamın bayramındadı, yəni Ordu günündədi. Atam mənə deyirdi: "Sən mənim ən böyük hədiyyəmsən". Həmin gün atam məni öz iş yerinə apardı, orda bayram keçirilirdi. Atam mənə işlədiyi yeri göstərdi. Kamaza mindirdi, o gün çox əylənmişdim. Builki ad günüm isə atamsız keçdi. Düzdü, mənə çoxlu hədiyyələr verdilər, amma atam olmadı, ona görə heç bir hədiyyənin marağı yox idi.

Mən atamı çox sevirəm, onunçün çox, lap çox darıxmışam ...

# Zamanova Fidan
## (Şəhid mayor Zamanov Sənan)
## 13 yaş

Mənim atam həmişə gülərüz, xoşbəxt idi. Hər gün işdən qayıdanda bizi qucaqlayar, bu günümüzü necə keçirdiyimizi soruşardı. Həmişə bizi güldürərdi, nə qədər pis olsam da, o həmişə məni güldürməyi bacarırdı.

Hər gün onun işdən qayıtmasını gözləyirdim. Atam gələndə onu qucaqlayardım. Atam müharibəyə getməzdən qabaq biz onunla birlikdə bacıma ad günü keçirtdik. O günü heç vaxt unutmayacam. Atam müharibəyə gedəndə çox narahat idim. Bilirəm, Vətən uğrunda getmişdi, amma yenə də narahat idim. Hər gün onun zəng etməsini gözləyirdim.

Mənim atam qəhrəmandı, mən onunla fəxr edirəm, həmişə də fəxr edəcəm.

Ata, səni çox sevirəm



# Zamanova Ləman
## (Şəhid mayor Zamanov Sənan)
## 11 yaş

Mən atamı igidliyi ilə, savadı ilə, gülərüzüylə ilə tanıyırdım. Atam hər dəfə işdən gələndə, o qapıdan girəndə hər dəfəki gülərüzüylə ilə bizi qucaqlayardı. O, günü necə keçirdiyimi soruşardı.

Atamla müharibəyə getməzdən qabaq mənim ad günümdə görüşmüşdük. O günü heç vaxt unutmayacam. Atam bütün şəhəri bizi gəzdirdi. O, müharibəyə gedəndə onun üçün narahat idim. Hər gün onun zəng etməyini gözləyirdim. Həyat belə imiş ...

Mənim atam qəhrəmandır. Mən atamla fəxr edirəm və edəcəm.

# Qasımov Ağa
## (Şəhid gizir Qasımov Hüseyn)

14 yaş

Şəhid Hüseyn Qasımov mənim atamdır.

Düzdü, çox böyük dərddir bizim üçün, amma bir o qədər də qürurvericidir. Mən elə bir şəxsiyyətin, elə bir qəhrəmanın oğluyam.

Atamla fəxr edirəm, mənim həyatda kumirim atamdır. Mən həmişə istəmişəm ki, Vətənimə, dövlətimə atam kimi oğul olum. Mənim bu həyatda dik durmağımın səbəbi atamın arzularıdır. İnşaallah, mən o arzuları yerinə yetirib, başıdik gedəcəm atamın yanına.

Ruhun şad olsun, igidim!



# Mustafazadə Hafiz
## (Şəhid Mustafayev Ramiz)

8 yaş

Mən Mustafazadə Hafiz şəhid Mustafazadə Ramizin oğluyam.

Heç vaxt unutmadığım atamla bağlı xatirələr ... Evimizdə ən çox atamın işdən gəlişini sevirdim. Keçən il atam bizi çoxlu gəzməyə aparırdı. Əlimdən gəlsəydi, atamın qisasını alardım. Mənim ən yaxşı günlərim atamla keçib. Anamı sevirəm, amma atamı daha çox istəyirəm.

Mən üzgün halda evdə atam üçün hazırladığımız güşədə onun şəkilləri ilə danışıram.

Bir dəfə atamın sözünə baxmadım, ona görə peşmanam, kaş ki elə etməsəydim. Ailəm: atam, anam, nənəm, babam, bacım və mən. Mən ailəmi çox sevirəm. Əvvəllər mən həftə sonunu çox sevirdim, çünki atam evdə olurdu, bizimlə bolluca vaxt keçirirdi. Kaş ki anam ağlamayaydı.

Biz bacı-qardaş atamız üçün çox darıxırıq. Kaş hərdən dəcəllik etməyəydim. Ən çox istədiyim bir daha müharibə olmasın, yaşıdlarım olan uşaqlar atasız qalmasın. Mən üzgün olanda dostlarım mənimlə oyun oynayır, məni güldürməyə çalışırlar. Atam olanda evdə hər şey çox gözəl olurdu.

Atam işdən gələndə hər kəs sevinib gülərdi. Mən şəhid balasıyam. Böyüyəndə mən hərbçi olacam, atam kimi. Həm də öz arzumla hərbçi pilot olacam. Anama arxa-dayaq olacam. Uşaqlar hər zaman ata-anasının yanında olmaq istəyir. Mən ata-anamdan uzaq qalmaqdan, bir də şimşəkdən çox qorxuram.

# Qənbərov Novruz (Şəhid Qənbərov Elnur)

6 yaş

Mənim adım Novruz, soyadım Qənbərovdur, mənim 6 yaşım var.

Mən atamı çox istəyirəm, çünkü atam bizim qəhrəmanımızdır. Atam müharibəyə gedəndə deyirdi: "Biz İndi müharibəyə gedək ki, bizim uşaqlarımız rahat yaşasın". Atam həmişə məni "Dədə" deyə çağırırdı, çünki atam babamın adını mənə qoymuşdu.

Ona görə də hara getsə, məni də özüylə aparırdı. Mən nə istəyirdimsə, alıb gətirirdi, mən istəyirəm ki, atam qayıdıb gəlsin. Hamımızın gözü yolda qalıb.

Hərdən anamdan soruşuram: "Ana, ata nə vaxt gələcək? Qurbanını kəsək".

Atam əmim oğlu Elcanı bizim qədər çox istəyirdi. Elcan atama "Dədə" deyib çağırırdı. Atam bizi özüylə fermaya aparardı, qoyunları, quzuları göstərərdi.

Mən balaca olanda atamın qucağında maşın sürürdük birlikdə.

Məktəbdə dərslərimə daha çox çalışır, hamısını hazırlayıram, bəzən dostlarımla oyunlar oynayıram. Amma tək qalanda atam üçün çox darıxıram... Biz atamızla qürur duyuruq. Atam bizim qəhrəmanımızdır.



# Qənbərova Nihan (Şəhid Qənbərov Elnur)

4 yaş

Mən Nihanam, qəhrəman Elnurun qızıyam, mənim 4 yaşım var.

Mən atam üçün çox darıxıram, çünki atam həmişə məni: "Qızı, qızı" - deyə çağırırdı. Atam müharibəyə getdi. Ana-ma dedi ki: "Oğlumdan bir az doymuşam, qızımdan doymamışam, çünki qızım balacadı, qızımdan ötrü burnumun ucu göynəyir".

Atam məni çox istəyirdi. Mən balaca olan vaxt atamın arxasına düşüb gedirdim, deyirdim ki: "Ata, mənim "sosqa"-mı al, saxla". Atam da qalsın, dedi ki: "Bir də, qızı, "sosqa" əmmə". Mən də onda çox ağladım.

Qardaşımla mən atamı çox istəyirik. Atam bizim qəhrəmanımızdı. Atam şəhid oldu, Allah babanın yanına getdi. Getdi ki, qardaşımla biz rahat yaşayaq. Qəhrəmandı bizim atamız.



# Həsənzadə Hüseyn
## (Şəhid kiçik çavuş Həsənov Ərəstun)

8 yaş

Mən Həsənzadə Hüseyn şəhid Həsənov Ərəstunun oğluyam. Mən fəxr edirəm ki, elə bir qəhrəmanın oğluyam. Atam həmişə mənə deyərdi ki, mən olmayanda evimizin kişisi sənsən. Kaş atam sağ olardı, həmişəki kimi bizim yanımızda olardı.

Atam hər işdən gələndə mənə, bacıma oyuncaq, başqa oyunlar alardı. Kaş sağ olardı, onları almazdı, amma yanımızda olardı. Atamın arzusu mənim futbolçu olmağımdır. Mən ona onun istədiyi kimi oğul olacam.

O, mənə kiçik toy edəcəkdi, amma qismət olmadı. Mən atamsız heç nə düşünə bilmirəm. Atam son dəfə evə gələndə mənə dedi ki: "Oğlum, anan, bacın sənə əmanətdir". Kaş atam sağ olardı, kaş dönüb geri gələydi, bizimlə birgə olardı. Mən atamı çox sevirəm, onunla qürur duyuram, darıxıram atam üçün.

Bir axşam həyətdə oturmuşdum. Anama dedim: "Atam niyə gəlmir? Axı deyirdin, atan gələcək". Anam mənə dedi ki: "Sən ağıllı ol, mənim sözümü eşit, sən böyüyəndə atan gələcək". Mən də istəyirəm ki, tez böyüyəm, atam gəlsin. O mənə söz vermişdi ki, velosiped alacaq, amma ala bilmədi, anam aldı.

Mənim atam çox yaxşı bir insan idi: igid, qorxmaz, mərd biri idi. Mən fəxr edirəm ki, şəhid Həsənov Ərəstunun oğlu Hüseynəm.



# Həsənzadə Aytac
## (Şəhid kiçik çavuş Həsənov Ərəstun)

9 yaş

Mən Həsənzadə Aytac şəhid Həsənov Ərəstunun qızıyam, 9 yaşım var. Mən fəxr edirəm ki, atamın "prinsesiyəm". O, həmişə mənə deyərdi ki: "Sən mənim dünyamsan". Atam məni hamıdan çox sevirdi, çünki evimizin birincisi - ailəmizin ilk uşağı mənəm. Atam məni çox sevirdi. Ona görə də məni gözündən qırağa qoymurdu.

Çox darıxıram atam üçün. O hər dəfə işdən gələndə bizə hər şey alırdı ki, yeyək. Çünki almasa, biz küsürdük. Kaş atam sağ olardı, amma heç nəyimiz olmayaydı. Bircə atamız yanımızda olsa, bəs edərdi. Onun üçün çox darıxıram. Düzdü, mən hələ balacayam. Amma hamı atasını çağıranda mən pis oluram, niyə mənim atam yanımda deyil?

Anam deyir ki: "Qardaşınla sən böyüyəndə atanız gələcək. İnşaallah, atam gəlsin, mən onun qucağında yatım. Onun üçün darıxıram. Çünki mən fəxr edirəm ki, elə bir qəhrəman atanın qızıyam.

# Hüseynov Tahir
## (Şəhid rabitəçi Hüseynov Aqil)

**6 yaş**

Mən Hüseynov Tahir Aqil oğluyam. Mənim atamla birgə çox gözəl günlərim keçib. Atam hara getsə, məni də özü ilə aparardı. O bizi çox sevirdi. Mənim atam həmişə mənə deyərdi: "Mən səni həkim görmək istəyirəm". Mən də, inşaallah, atamın arzusunu yerinə yetirəcəyəm.

Atam işdən gələndə qucağına qaçardım, çünki onda mənim qardaşım çox balaca idi, amma onu da deyim ki, qardaşım atamı hərbi formasından tanıyırdı. Mən atamla fəxr edirəm. Mən atamı çox istəyirəm. İstərdim ki, atam geri qayıtsın və biz əvvəlki kimi birlikdə xoşbəxt yaşayaq. Atam bizim hər şeyimizdi.

Mənim atamla bağlı xatirələrim çoxdu. Atam bizim üçün hər şey idi. Mən ata nəvazişini çox görməsəm də, atamı çox sevirdim, çünki mənim atam şəhid olanda mənim cəmi 5 yaşım vardı. 5 il elə də çox deyil.

İllər keçsə də, adamın atasına çox ehtiyacı olur. Mənim 4 yaşım olanda atam mənə hədiyyə olaraq velosiped almışdı. Amma bu il mən ad günümü atamsız qeyd etdim. Hamı kimi mənə də çətİndi atasız ad günü qeyd etmək. Həm də bu yaşda atama çox ehtiyacım var. Mən atamın nömrəsini hər gün yığıram, bəlkə, atam cavab verər, amma təəssüf edirəm ki, zənglərim cavabsız qalır.

Ata mənim üçün ən uca varlıqdır. Mən atamla fəxr edirəm. Mən hələ çox dərk etməsəm də, amma onu bilirəm ki, atam evdən gedəndə bizə məktub yazıb qoyub.



Mənim atamla bağlı o qədər arzularım var idi ki ... Təəssüf edirəm ki, onları yerinə yetirə bilmədim. Amma, İnşaallah, atamın bir arzusunu yerinə yetirib həkim olacam. Çünki bu atamın məndən istədiyi ən böyük arzusu idi.

İnşaallah, mən və balaca qardaşım Yusif atamın adına layiq övlad olacağıq, atamızım adını uca tutacağıq.



# Əsədzadə Səid
## (Şəhid çavuş Əsədov Saleh)

11 yaş

Atamla bağlı xatirələrim çoxdur. Onlardan ikisini yazacam.

Bir gün qardaşımla məni parka apardı, orda maşın sürüb çoxlu əyləndik, sonra da çay içib qayıtdıq. Atam bizi çox sevirdi, biz də onu çox sevirdik. İndi atam üçün çox darıxırıq. Biz onunla vaxt keçirməyi səbirsizliklə gözləyirdik.

Atam işdən evə gələndə həmişə bizə istədiyimiz, sevdiyimiz hər şeyi alıb gətirərdi.

Atamla atbeli oyunu oynamağı sevərdik. O, qardaşımla məni kürəyinə alıb at kimi gəzdirərdi. Bu oyun çox əyləncəli idi.

Atam üçün çox darıxıram. Bilirəm ki, cənnətdən bizə baxır və məni həmişə şən, gülərüz görmək istəyir. Atamla fəxr edirəm.



# Əlizadə Əjdər
## (Şəhid Əliyev Mahir)

12 yaş

Mən hər zaman qürur duyduğum qəhrəman Əliyev Mahirin oğluyam. Atam mənim qəhrəmanımdır. O, Vətənpərvər insan idi. Atam kəşfiyyatçı minaaxtaran idi.

Müharibə başlayan gün atam yolları özü açıb, minadan təmizləyib. Mən atamla fəxr edirəm. Atamla çox gözəl günlərim olub. Ata-bala kimi zarafat edirdik. O günlər üçün çox darıxıram.

Atamdan heç vaxt inciməmişəm. O qədər mehriban insan idi ki, heç kəsin qəlbinə dəymәzdi.

Atam müharibədən neçə gün əvvəl evimizə bir bayraq gətirib dedi: "Bu bayrağı ucalarda dalğalandırmalıyıq". Mən atamı çox sevirəm, o hər zaman qəlbimdə yaşayacaq

# Bayramlı Zeynəb
## (Şəhid kapitan Bayramov Vaqif)
## 14 yaş

Mən Naftalan şəhərindən olan şəhid kapitan Vaqif Bayramovun qızıyam. Hal-hazırda 7-ci sinfi bitirmişəm. Atam kapitan Vaqif Bayramov 2016-cı ildə Aprel döyüşlərində şəhid olub. Mən o zaman 2-ci sinifdə oxuyurdum. Atam bizimlə çox vaxt keçirə bilməsə də, işdən gəldikdən sonra yorğun da olsa, bizə zaman ayıra bilirdi.

Atamla bizim çox xatirələrimiz olub. O, şəhid olduqdan sonra mən əməliyyat oldum. Yuxumda atam əlimi tutmuşdu. Mənə demişdi ki: "Hər şey yaxşı olacaq". O zaman mən bunun bir yuxu olduğuna inanmadım. Hər şey o qədər həqiqi idi ki, sanki yuxuda deyil, həqiqi həyatda yaşayırmış kimi idi. Mənim əməliyyatım bitdikdən sonra mən artıq oyanmağa başlayanda əlimi buraxdı. Mənim üzümə baxdı, sonra dönüb dedi ki: "Mən İndi getməliyəm". Mənə əli ilə "sağ ol" elədi. Gözümü açanda gördüm ki, atam yoxdu, həkimlərdi başımın üstündə ... Və atam yox idi... Son dəfə mənim atamla vidalaşmağım isə mənim üçün çox çətin oldu. Aprel döyüşləri zamanı atam birsaatlıq evə gəlmişdi. Mən onu evə gələndə bərk-bərk qucaqladım. Sonra atam otağa daxil olub hərbi paltarlarını geyİndi. Döyüşə gedirdi. Və bundan heç qorxmurdu.

O, çox tələsirdi. İlk dəfə idi ki, bizi öpmədən gedirdi. Mən ağlaya-ağlaya atamın dalınca getdim. Dedim ki: "Bəs bizi öpməyəcəksən?" Atam geri dönüb bizi öpdü və getdi ... Biz qaça-qaça pəncərəyə tərəf getdik, anam, bacım və mən.



Atamın dalınca baxırdıq, atam yenə maşına oturmadan dönüb pəncərəyə baxdı, bizi görüb gülümsündü. Sonra isə getdi. Gələcəyinə söz vermişdi, amma gəlmədi ...

Atam Vətənpərvər, igid biri kimi böyümüşdü. O, Vətənə layiq olduğunu öz qəhrəmanlığı ilə sübut etdi. Mən də atamın adına layiq övlad olduğumu sübut edəcəm.

Atam mənim ali məktəbdə oxumağımı istəyirdi. Təbii ki, yalnız mənim deyil, bacımın və qardaşımın da oxumağını istəyirdi. Mən atamla qürur duyuram!

11 yaş

...ov Əlövsət)

...əmmədov Əlövsətin ailəsi, ailə ...ə olub. Biz atamızı çox sevir və ...ünlərimdə mən özümü çox xoş- ...n yanımda olurdu, məni təbrik ... tarixində ad günüm tam fərq- ...mayaraq, atamın tanımadığım ...oldaşları məni tək qoymadılar, ...i.

... xidmət etdiyindən işləri çox ...bilmirdi. Ona görə də biz çox ... də atamızı başa düşürdük. An- ...əsgərlər üçün xidmət edir. Axı ...ra etdiyi rabitəçiləri idi.

...dən gələndə, yorğun olmayan- ... dəfə atamla Goranboya toya ...gəzməyə getdik. Biz fəxr edirik ...mündən sonra bir fəxri fərman ...bitə rəisi şəhid mayor Məmmə- ...idlarıyıq.

...ar idi: "Bizim xalqımız dözümlü

...karicən atamızın sözünə əməl ...ırıq.



# Rzayeva Nur

## (Şəhid mayor Rzayev İlkin)

6 yaş

Mənim 6 yaşım var. Atamla anamın ilk övladıyam. Atamı sevə-sevə böyümüşəm. Bilirsiniz, hər kəs deyir: "İlkin şəhid olub ..." Mən isə atamın şəhid olmasını istəmirəm. İstəyirəm ki, atam əvvəlki kimi axşam saat 9-da evə tələsik gəlsin. Mən cizgi filminə baxım, atam da birdən: "Xəbərlər başladı, mənim sıramdı", - desin. Sonra da pultu əlimdən alsın. Mən bunu yenidən yaşamaq istəyirəm. İndi çox vaxt məcbur qalıb yatıram ki, atamın yoxluğunu hiss etməyim.

Atam mənim unudulmaz dostumdı. Mən onu əsəbiləşdirəndə gülürdü. "Ata, oyun oynayaq" - deyəndə mənimlə güləşirdi. Bunlar əziz xatirə kimi ürəyimdə yaşayır, unuda bilmirəm. Atam deyirdi ki: "Mənim qızım ağıllıdı. Məncə də, atam mərhəmətlidi. Atam hər daim adı ilə məni ucaltdı, onu çox sevirəm.

# İsmayılzadə Ömər (Şəhid kapitan İsmayılov Elçin)

7 yaş

Mənim adım Ömərdir, soyadım isə İsmayılzadə. Mən kapitan Elçin İsmayılovun oğluyam. Atamı çox sevirəm və onun üçün çox darıxıram. Atam hər gün işdən gələndən sonra həm qardaşımla, həm də mənimlə oynayardı. Çalışırdım ki, atam gələnə qədər dərslərimi oxuyub qurtarım ki, atam gələndə onunla oynaya bilim. Çünki atam birinci dərslərimi soruşurdu, əgər oxumamışamsa, gözləyirdi ki, oxuyub bitirim. Biz ən çox futbol oynayardıq. Atamla futbol çox maraqlı olurdu. Heç bilmirdik, vaxt hardan gəlib keçdi ...

Atam həmişə təlimə gedəndə evi mənə tapşırırdı, deyirdi: "Evin kişisi sənsən, ailə sənə əmanət, hamıdan muğayat ol!" Bu mənim çox xoşuma gəlirdi. Həmişə atamın sözünə baxırdım.

İndi artıq atam yoxdur ... O, şəhid olub. Mən atamın sözlərini xatırlayaraq düşünürəm ki, atam həmişə evi mənə tapşırardı. Ona görə də atama verdiyim sözü tutmağa çalışıram. İlk növbədə, çalışıram ki, anam ağlamasın. Sonra da qardaşımı qoruyuram. Axı atama söz vermişəm. Mən artıq böyümüşəm və evin kişisiyəm.

Düzdü, atam yanımızda yoxdur, amma biz onu çox sevirik, hər zaman yanımızda hiss edirik. Qardaşımla mən atamızın adına layiq olmağa çalışırıq. Axı biz kapitan Elçin İsmayılovun oğlanlarıyıq!

Gözün yolda qalmasın, ata! Sən həmişə bizimləsən.



# Mirzəzadə Xanım (Şəhid Mirzəyev Elyar)

15 yaş

Mən Mirzəzadə Xanım Elyar qızı 3 noyabr 2006-cı ildə Beyləqan rayonu, Bahar qəsəbəsində anadan olmuşam. Ailəmlə birlikdə oturub söhbət edəndə həmişə qardaşımla mənim uşaqlıq xatirələrimdən danışardılar. EviN ikinci övladı idim, deyilənə görə, çox dəcəl və küsəyən olmuşam.

Mənim dünyaya gəlişimlə ailəmiz böyük sevinc yaşayıb. Atam öz nənəsinin adını mənə qoyduğu üçün hər zaman məni daha çox əzizləyirdi. İlk məktəbə gedişimi və digər illərimi elə çox xatırlaya bilmirəm. Sinfimizdə əlaçı olmuşam. Atam təcrübəli futbolçu olduğu üçün, demək olar ki, günlərimizin çoxu həyətdə futbol oynamaq ilə keçirdi. "Bahar" komandasının qızlar klubunda iştirak edirdim. Yarışlarda hər zaman qələbə qazanırdıq.

Atam hərbçi olduğu üçün onunla vaxt keçirə bilmirdik. Gec-gec görürdük. Ən çox anamla vaxt keçirirdik. Keçən il qışda atam bizə söz verdi ki, bu yay məzuniyyət götürəcək və Qubada bizləri gəzdirəcək. Yayın gəlməsini səbirsizliklə gözləyirdik.

Uşaqlıq xatirələrimdə sevincli günlərim olduğu kimi, heç bir zaman yaddaşımdan silinməyən acı da oldu. 2020-ci ilin sentyabrı ...

Son yaddaşımda qalan ən sevincli xatirəm oktyabrın 5-də gecə saat 3-də atamın səsi ilə oyanmağım oldu. Cəmi birsaatlıq atamı gördük və o qayıdıb getdi.

Hər gün 5 dəqiqəlik də olsa, telefonla danışırdıq: "Ata, bizim üçün özündən muğayat ol", - deyirdim. Cavab isə belə olurdu: "Narahat olma, qızım, mən yaxşıyam".

Mən hər il ad günlərimizi keçirməyi xoşlayırdım. Oktyabrın 12-də atamla danışanda: "Ay ata, bəs ad günüm yaxınlaşır, nə vaxt gələcəksən?" - deyə soruşmuşdum. Dedi: "Qızım, narahat olma, az qalıb, beş gündən sonra hər şey bitir, qələbə bizimdir. Artıq gələcəm, ad gününü birlikdə qeyd edəcəyik". Mənə söz verdi.

Həmişə deyərdi ki: "Ananızı incitməyin, sözünə qulaq asın".

Atam verdiyi sözü tutdu. Danışdığımız gündən 3gün sonra evə gəldi. Amma biz istədiyimiz kimi gəlmədi. Atamın o gəlişini heç zaman unutmaram. Həyatımın xoş xatirələri də o gün bitdi. Atamın ən böyük arzusu bizi futbolçu və hərbçi kimi böyütmək idi. Mən sözümü tutdum. Bu gün Bakının "Neftçi" qızlar klubunda oynayıram. İnşaallah, gələcəkdə də uğurlarım bol olar. İdman akademiyasında oxumaq istəyirəm. Heyif ki, atam bunları görmədi. Deyirlər ki, şəhidlər ölməz. Tək təsəllim budur, bilirəm ki, atam bizi görür və fəxr edir. Mən də atamla fəxr edirəm. Fəxr edirəm ki, cəsur döyüşçünün, qəhrəman hərbçinin və təcrübəli bir futbolçunun qızıyam.

Deyirlər, 30 illik yurd həsrətinə son qoyuldu. Təəssüf ki, minlərcə uşaqların ataları ilə bağlı xoş xatirələrinə də son qoyuldu. Mənim və ailəmizin bütün sevinci atam ilə getdi. Rəbbim heç bir uşağı atasız, anasız böyütməsin. Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Məkanları cənnət olsun.



# Əhmədova Nur
## (Şəhid Əhmədov Mahmud)
## 6 yaş

Mənim atamla bağlı xatirələrim çoxdu. Mən fəxr edirəm ki, elə bir atanın qızıyam. Mənim atam cənnətdədir. O bizimlədir, hər zaman yuxularıma gəlir və mənə belə deyir: "Qızım, çoxlu yemək ye, böyü, sən mənim həm oğlum, həm də qızımsan".

Atam məni çox sevir, mən də onu sevirəm. Anam mənə deyir: "Sən çoxlu yemək yesən, dərslərini yaxşı oxusan, ağıllı olsan, atan tez gələr". Onun üçün də mən hamısını edirəm. Mən atamçün çox darıxıram, çox ağlayıram. Yuxuma gəlir atam, deyir ki: "Mən yanındayam, qızım". Atam məni özüylə hər yerə aparardı. Saçını kəsdirməyə də gedəndə məni özü ilə aparırdı. Mən atamsız darıxıram. Anam deyir ki: "Gecə yatanda, səhər qalxanda əlini aç, Allah babadan atana kömək istə". Mən hər gün dua edirəm, yenə də atam gələnə kimi edəcəm.

Hamının atası yanında, təkcə mənim atam gəlmir. Bacımla mənim atamız da gələcək. Biz onu gözləyirik. Mən bacıma atamdan danışıram, çoxlu gülür, bacım da atam üçün darıxır, çünki atamız bizim ürəyimizdi.

# Əliyeva Duyğu

## (Şəhid mayor Əliyev Malik)

5 yaş

Mənim adım Duyğudur, özüm də Əliyev Malikin qızıyam. Mənim 5 yaşım var. Hamı deyir ki, mənim atam qəhrəmandı, igiddi, həm də şəhiddi. Mən atamı çox istəyirəm, o hər axşam işdən gələndə mənimlə oyun oynayırdı, ən çox da gizlənqaç oyunu çox xoşuma gəlirdi. Mən gizlənirdim, atam da məni tapırdı.

Bir gün yenə oynayırdıq, atam evdə gizləndi, mən tapa bilmədim. Anamı köməyə çağırdım. Dedim: "Ana, ata hardadı, tapa bilmirəm". Biz birlikdə atanı nə qədər axtardıqsa, evdə tapa bilmədik. Birdən atam pərdənin arxasından çıxdı, pəncərənin ətəyindən hoppandı yerə. Sonra da "burdayam"- dedi. Anamla mən əvvəl qorxduq, sonra da çoxlu güldük.

Mən anamla və atamla gəzintiyə gedəndə nə vaxt istəsəm, atam məni çiyinlərinə qaldırırdı. Məni çiynində gəzdirirdi. Mənim bundan çox xoşum gəlirdi.

Mən anama atadan ötrü darıxdığımı deyirəm. Anam da hər dəfə deyir: "Ata şəhiddir, amma hər zaman bizim ürəyimizdədir.

Biz onu görmürük, amma o bizi görür, mənim etdiklərimi görür, sevinir. Mənim atam qəhrəmandır.



# Alməmmədov Əbəlfəz

## (Şəhid gizir Alməmmədov Emin)

7 yaş

Salam, mən Şəmkir şəhidi gizir Emin Alməmmədovun oğlu Əbəlfəz Alməmmədovam. Mənim 7 yaşım var. 4 yaşında məndən balaca bacım Xədicə də var.

İstərdim, sizə qəhrəman atamla bağlı 7 illik xatirələrimizdən danışım.

Həm mənim, həm də bacımın adını atam qoyub. Mən dünyaya göz açandan atamı hərbi formada görmüşəm. Atamla bir ömrə sığacaq xatirələrim və xoş günlərim var. Atamın ilk göz yaşları məni qucağına ilk dəfə aldığında olub, bunu anam dedi.

Atam hərbçi olduğu üçün müxtəlif rayonlara təyinatı çıxırdı. Biz də atamla müxtəlif rayonlara gedib oraları tanıyırdıq. Atam bizimlə vaxt keçirməyi çox sevirdi. O, işdən evə gələn kimi ilk bizimlə oynayub sonra anamın hazırladığı süfrəyə otururdu. Anam deyərdi: "Yorğunsan, işdən gəlmisən, dur çay iç, çörək ye, istirahət elə". Atam isə cavabında: "Uşaqlarla oynyarkən bütün yorğunluğumu unuduram", - deyirdi.

Atam da atasız böyümüşdü, ona görə bizə çox vaxt ayırırdı. Özü atasız böyüdüyü üçün bütün yaşaya bilmədiyi uşaqlığını bizimlə gəzərək, oynayaraq keçirirdi. İşdən boş vaxt tapan kimi uzaq bir yolu bizi görmək üçün gəlirdi.

Atamzla keçirdiyimiz bu qısa ömrümüzdə bizə "yox" sözünü deməyib, nə istəmişik, onu bizim üçün alıb. Anamız hərdən əsəbiləşib: "Emin, əziyyət çəkirsən, uşaqlara

bu qədər hər istədiklərini alma!" Atamızınsa cavabı həmişə bu olurdu: "Mən özüm yetim böyümüşəm, gözüm həmişə başqa uşaqların geyimlərində, oyuncaqlarında qalıb. Mən icazə vermərəm ki, mənim uşaqlarım da mənim kimi olsun".

Atamız bizi tez-tez parka aparırdı. Mənim ad günlərimi atam heç unutmadı, işdə olsa da, mütləq gələrdi, 6 yaşıma kimi ad günlərimi atamla keçirmişəm. Amma 7 yaşımı da atamla keçirdim. Atam mənə demişdi: "7 yaşına az qalıb, sənə velosiped alacam", amma 7-ci yaşımı fərqli keçirdim. 7 yaşımdan cəmi 2 gün qabaq atam özü mənə hədiyyə gəldi ... 3 rəngli bayrağa bükülmüş böyük bir tabutda ....

Anam qışqıraraq ağlayırdı ki, oğlumun yaşına nə böyük hədiyyə gəlib ... Mən və bacım atamızı son dəfə 15 sentyabrda gördük. Mən 1-ci sinfə qədəm qoyarkən, 15 sentyabrda ...

Biz Daşkəsən rayonunda yaşayırdıq. Atamın təyini ora idi. 15 sentyabr günü atam işdə olsa da, anama zəng edib dedi: "Özümü yetirəcəm, qoymaram, qərib eldə boynu bükük qalasınız". Atam işdən 1 saatlıq icazə alaraq, məni məktəbə aparmağa gəldi. Həmin gün atam bacımı və məni çoxlu öpürdü və bizimlə şəkil də çəkdirdi.

Atamla həm son görüşümüz oldu həmin gün, həm də son şəklimiz. Atam məktəbdən işə getdi, ondan sonra atamla canlı görüşümüz olmadı. Sentyabrın 26-da gecə atamı bir də görüntülü zəng vasitəsilə gördük. Atam anama zəng edib dedi: "Uşaqları yanına gətir, baş-başa durun, səsinizi çıxarmayın, qoyun sizə doyunca baxım. Həmin gün sonra atama bir də zəng çatmadı. 28 sentyabrda gecə atamı yenə gördüm, nə baş verdiyini bilmirdim, çoxlu insanlar toplaşmışdı həyatimizə.

Demə, atamın yolunu gözləyirlərmiş. Həmin gün atamın 3 rəngli bayraqla əllər üstündə evimizə gəldiyini gördüm.



Atam bir gecə bizim evdə qonaq kimi qaldı. Anam dedi ki, bu atanızla son günümüzdü. Anam məni və bacımı atamın tabutu yanında yatızdırdı. Həmin gecə dedi: "Atanızla son yatışınızdı". 29 sentyabr günü atamı apardılar və dəfn elədilər. Mən 7 yaşımda balaca əllərimlə atamın məzarına torpaq atdım ...

O gündən sonra atamı yalnız yuxularımda görürəm. Atam bizə o qədər gözəl, qayğıkeş ata olub ki, onun bizə verdiyi sevgi bir ömür bizə yetər.

Anam deyir ki, "şəhidlər ölməz, şəhidlər sağdı və hər şeyi görür". Mən bilirəm ki, mənim atam da bacımı və məni görür. Mən əməliyyat olanda atamı yanımda gördüm. Anama dedim: "Atam gəlmişdi yanıma, mənim əlimdən tutmuşdu". Mən onu yuxu kimi görsəm də, bilirəm ki, atamız hər an bizim yanımızdadı.

Atam istəyirdi ki, mən də böyüyəndə atam kimi hərbçi olum, bacım da həkim olsun. Anamın atamın məzarı başında söz verdiyini gördüm. O, atama dedi: "Sənin uşaqlarla bağlı nə arzun var, hamısını həyata keçirəcəm, oğlumuz Əbəlfəzi Naxçıvanski adına Hərbi Liseydə oxudub hərbçi edəcəm.

İndi mən böyüyüb atama layiq bir oğlan olacağıma söz vermişəm, çünki mən Emin kimi qəhrəmanın oğluyam.

## (...aməddinov Fərid) 13 yaş

...əzməyə gözəl yerlərə aparırdı. Mənim atam işdən evə gələndə bütün vaxtını bizimlə ke-... günlük Vətən müharibəsində iştirak edib, ...istiqamətində şəhid olub.

...vurub deyəndə ki, evə gəlirəm, Biz pən-...ından çəkilmirdik, onun yolunu gözləyirdik. ...incində, çox gözəl günlərimiz idi. O, bizim ... günlər geri qayıtsaydı.

...hər günümüz onun yanında keçir, hər anı-... həmişə İndi də atamızın yanında keçir. Mən ... bizi görür, mənim atam cənnətdədi.

...təlimlərdə olurdu, axı o hərbçi idi, vaxtı-... olurdu, atam evdə olanda çox sevinirdik. O, ... oynayırdı, dərslərimizlə maraqlanırdı. Çox-... olmasına baxmayaraq, bizə nağıl qəhrə-...ikləri qururdu.

...adın kimi övlad olmağa söz verirəm. Gözəl ...ürəyim, mən səninlə fəxr edirəm.



# Quliyev Elnar 9 yaş

## (Şəhid çavuş Quliyev Elnur)

Mən atamla cəmi 8 il 9 ay birgə yaşadım. Mən atamı çox istəyirəm. O, igid, Vətənpərvər insan idi, Vətəni çox sevirdi.

Atam bizi də çox sevirdi, mən atamdan çox razıyam, çünki mənim atam bacımla mən nə istəsək, onu edərdi. Bəzən atam işdən gec gələrdi, amma biz yenə də onun yolunu gözləyərdik ki, işdən gələndə onu qarşılaya bilək.

Mən hələ də atamı gözləyirəm. O bizi hər yerə aparardı, parka, gəzməklərə, istədiyim hər şeyi alardı. Mən atamı çox sevirəm, çox, çünki mənim atam kimi biri yox idi, o məni, bacımı hər zaman güldürərdi. Bizi çox sevirdi, biz də onu. O bizi o qədər möhkəm qucaqlayırdı ki ...

Mənim atam güclü idi. Mən atamla şəhid olduğu günə qədər özüylə, şəhid olduqdan sonra isə adıyla fəxr edirəm. Mən çox sevinirəm ki, elə bir şəxsiyyətin, elə bir gözəl insanın oğluyam. Bilirəm, atam uca bir zirvədədi, o həmişə bizim yanımızdadı, biz onu görməsək də, o bizi görür. Mən çalışacam ki, atamın adına layiq olum.

# Quluzadə Gülnar
## (Şəhid çavuş Quliyev Elnur)

7 yaş

Mən atamla 5 il 10 ay birgə yaşadım. Mənim atam dünyanın ən gözəl insanı, ən yaxşı atası idi. Mənim atam biz nə istəsək, onu edərdi. Parka aparardı, gəzməklərə aparardı.

Atam mənim saçlarımı çox sevərdi və həmişə saçlarımı darayardı, bu mənim çox xoşuma gələrdi. Kaş atam həmişə bizimlə yaşayardı. Biz onun yaşlandığını görərdik.

Mənim atam igid idi, Vətəni çox sevirdi. Atam şəhid olanda mən inanmadım, dedim: "Yox, atam gəlsin". Mən hələ də istəyirəm, atam gəlsin, çünki çox darıxıram.

Canım atam, mən səni çox sevirəm, sən həmişə qəlbimdə olacaqsan, mən səninlə hər zaman fəxr edəcəm, mənim qəhrəman atam, cəsur atam. Nə yaxşı ki sənin qızın olmuşam.

Mənim atam şəhidlik zirvəsinə ucalıb, uca məqamdadı. Bilirəm ki, mələkdi, o bizi görür, biz onu görməsək də. Canım atam, gözəl atam, mən səninlə fəxr edirəm.



# Quliyeva Elay Bəhruz qızı
## (Şəhid Quliyev Bəhruz)

6 yaş

Atamla xatirələrim çoxdur. Bəziləri mənim yadımda deyil, amma anam mənə hər gün atamla bağlı xatirələrimizdən danışır. Mən atamı itirəndə mənim 6, bacım Quliyeva Mədinə Bəhruz qızının isə 5 yaşı var idi.

Mən atamı heç vaxt unutmayacam. Mən bilirəm ki, atam bir də gəlməyəcək, amma bacım hələ də başa düşmür, hər zaman atamızı gözləyir. Deyir ki: "Atam uzaqdadır, gələcək". Mən ondan böyük olduğum üçün hər yerdə onu qoruyuram.

Biz çox xoşbəxt ailə idik, hər dəfə atam evə gələndə çox sevinirdik, qapının yanında atamı gözləyirdik. Atam ayağını soyunan kimi bizimlə oynayırdı. Boş vaxtlarında gəzməyə gedirdik. Biz nə istəsək, atam bizə alırdı. Atamın bacımla və mənimlə bağlı çox arzuları var idi. O məni bank işçisi, bacımı isə müəllimə kimi görmək istəyirdi. Anam da bizə deyir ki: "Siz böyüyəndə atanızın adına layiq olmalısınız".

Əvvəllər başa düşmürdüm, amma İndi yaxşı başa düşürəm ki, mən qəhrəman qızıyam və biz atamın adına layiq olmalıyıq.

# Quluzadə Uğur (Şəhid çavuş Quliyev Vasif) 9 yaş

Mən Beyləqan rayonunun şəhidi baş çavuş snayperçi Vasif Quliyevin oğlu Uğur Quluzadəyəm. 9 yaşımda atamı itirdim. İstərdim ki, bundan sonra yaşıdlarım atasızlıq nədir, bilməsin.

Atam mənin ən yaxın dostum idi. Atamla xatirələrim çoxdur, ancaq az da olsa, bir qismini sizə bildirəcəm. Atam öz peşəsini sevirdi. Eləcə də, mənə öyrədirdi. Deyirdi: "Oğul, sən Vətənini, torpağını sevməlisən. Çünki sən də bir əsgər olacaqsan". Atam məni idmana və üzgüçülüyə aparırdı. Biz atamızı yalnız həftə sonları görürdük, çünki atam ön postda xidmət edir, mənfur düşmənləri məhv edirdi.

O mənə kəşfiyyatçı olmağın sirlərini öyrədirdi. Atam istəyərdi ki, mən də onun kimi hərbçi olum. O həmişə yanımızda deyirdi: "Mən məğlub olmağı sevmirəm. Ona görə hələ də inanmırıq ki, atam şəhid olub. Atam bizim kimi körpələrin yolunda canını fəda etdi. Anam deyir ki, atamızın ruhu həmişə bizimlədir. Atam bizim qoruyucu mələyimizdir. Biz üzüləriksə, atam da üzülər, əgər biz seviniriksə, göylərdə atamın ruhu şad olar.

Atamın arzusu idi ki, evimizi tikəndə onun üstü Azərbaycan bayrağı şəklində olsun. Bağımızda hündür üçrəngli bayrağımız dalğalansın. Mən böyüdükcə, zamanla atamın arzularını həyata keçirəcəm. Atam sonuncu dəfə bizimlə görüşüb müharibəyə yola düşəndə anamla bacımı mənə tapşırdı. Dedi: "Oğlum, mən şəhid olsam, başını uca tut, qürurlu ol!"

Mən atamla fəxr edirəm. Atam mənim qürur mənbəyimdir. Ata, sən daim mənim ürəyimdəsən. Şəhidlər ölməz, Vətən bölünməz! Qarabağ Azərbaycandır!



# Quluzadə Yağmur (Şəhid çavuş Quliyev Vasif) 8 yaş

Mən Beyləqan rayon şəhidi baş çavuş snayperçi Vasif Quliyevin qızı Yağmur Quluzadəyəm. Mənim 8 yaşım var.

Atamla bağlı tükənməz xatirələrim var. Ən çox yaddaşımda qalan budur ki, Aprel döyüşlərində atam düz bir ay evə gələ bilmədi. Atam üçün çox darıxmışdım. Anamdan xəbərsiz atama səs göndərdim ki: "Ata, səni görmək istəyirəm, tez gəl". Atam da gülərək səs yazdı ki: "Hə, mənim pişiyim, gələcəm yaxınlarda".

Atamın komandiri sual verib ki, nəyə baxıb gülürsünüz? Atam da mənim səsimi dinlədib. Komandiri də deyib ki: "Məni çox kövrəltdin, elə İndicə yollanırsan övladlarının yanına". Atam evə gələndə mənim sevincimə qonşularımız şahid olmuşdular. Atam mənə öz simvolunu öyrədirdi: "Görünmədən görmək, ölmədən ölmək, sağ gedib sağ qayıtmaq!"

Hətta atam şəhid olanda belə sinəsində üçrəngli bayrağı olub. Atamın ən böyük arzusu məni həkim görmək idi. Lakin atam arzusuna çatmadı.

Mən çalışacağam ki, atamın istəyini yerinə yetirim. Mən fəxr edirəm ki, belə bir igid, qəhrəman, torpağını, bayrağını sevən Vasif adlı şəxsiyyətin qızıyam. Atam hər zaman mənim qəlbimdə yaşayacaq.

# Abdurahmanov Əlibəy
## (Şəhid polkovnik-leytenant Abdurahmanov Əfqan)

14 yaş

Atam şəhid olanda mənim 13 yaşım vardı. Mənim atamla bağlı çox yaxşı, yaddaşlardan bir ömür silinməyəcək xatirələrim var. Atam Vətənçün əvəzolunmaz, oğul övladları üçün çox qayğıkeş ata idi. Atam bacımın həyatında 18 il, mənim həyatımda isə 13 il ola bildi. O bu illərə çox böyük xoşbəxtliklər sığdırdı. Biz atamı bu illər ərzində çox vaxt evimizdə qonaq kimi gördük, çünki onun Vətəninə etdiyi 25 illik xidmətinin çoxu ön cəbhədə keçib, ona görə onun bizimlə yaşamağı mümkün deyildi.

Atam bizdən uzaqda olurdu, amma biz onu çox da hiss etmirdik, çünki o günün hər vaxtında bizə zəng vururdu. Bizdən hal-əhval tuturdu. Ən birinci sualı bu olurdu: "Bala, dərsinizi oxumusuzmu?" Biz də onun bu sualı verəcəyini bilirdik və çalışırdıq ki, ona müsbət cavab verək. Biz özümüzü tanıyıb başa düşəndən sonra gördük ki, atam çox vaxt işdə olduğundan, anam ev işləri ilə məşğul olsa da, bizə qayğı və dəstəyini əsirgəmədi, çünki bizim hər vəziyyətimizə görə anam atama cavabdeh idi.

Atamın bir il ərzində bir neçə dəfə məzuniyyətdə olan günləri olurdu. Bu zaman o bizə çox gözəl anlar yaşadırdı, bizi gəzdirirdi və günlər keçirdi. Məzuniyyət vaxtı bitirdi, bax o zaman biz çox üzülürdük. Onun bizdən ayrılıb getməsini heç istəmirdik. Bunu o özü də istəməzdi, amma bizə deyirdi: "Mənim peşəm budur, getməliyəm, siz yenə dərslərinizə



davam edin, zaman keçəcək, növbəti məzuniyyətimin vaxtı gələcək".

Atamın bu sözlərindən sonra biz onu yola salırdıq. Atam dağda xidmət edən vaxtlarda yay aylarında biz onun xidmət etdiyi yerə gedirdik. Atam məni dağa - xidmət etdiyi yerə aparırdı, məni orda çox şeylərlə tanış edirdi. Bu gəzinti mənim ən çox sevdiyim gəzinti olurdu, çünki orada tam kişiyə xas olan həyat vardı. Məlum idi ki, o dövrdə atamın özü və tabeçiliyində olan əsgər və zabitlər mənfur düşmənlə qarşı-qarşıya Vətənə xidmət edirdi. Mən ordan geri qayıtmaq istəmirdim, orda keçirdiyim günlərin sayı az olsa da, mənimçün illərə bərabər idi.

Aylar, illər keçdi, zaman gəldi. 2020-ci ilin 27 sentyabrında II Qarabag müharibəsi başladı, atam evə gəldi, bizimlə sağollaşdı.

Mən atamla küçəmizin sonuna kimi getdim, o mənə dedi ki: "Oğlum, dərslərini yaxşı oxu, anandan, bacından muğayat ol, onları sənə əmanət edirəm". Mən də ona söz verdim: "Arxayın ol, sağ-salamat gəl", - dedim. Atam döyüşdə 14 gün iştirak etdi. 14 gün ərzində ara-sıra hər fürsətdə bizə zəng vururdu, bilirdi ki, biz ondan çox nigaran oluruq və bizə deyirdi ki: "Narahat olmayın, hər şey qaydasındadı, İnşaallah, qələbə bizim olacaq".

Döyüşün 15-ci günü 10 oktyabr 2020-ci il tarixində səhər saatlarında atam bizimlə danışdı və bu, son danışığımız oldu. Bundan bir neçə saat keçdi, o şəhadətə yüksəldi və o andan bu günə kimi o bizim qəlbimizdə yaşayır. Onun o müqəddəs adı bizimçün hər zaman fəxrdi, qürurdu, Cənnət qoxulu atam, nur içində yat!

# Bərxudarlı Əli
## (Şəhid mayor Bərxudarlı Toğrul)

9 yaş

Mən də atamdan danışmaq istəyirəm, bacımla mən atamın hər gəlişini səbirsizliklə gözləyərdik. O gələndə bizimlə oynayardı, söhbətlər edərdik. O mənim dostum idi. Mənə hər zaman güclü olmağı, düşdüyüm hər vəziyyətdən çıxmağın yollarını öyrədirdi.

Mən atama bənzəriyəm, böyüyəndə də onun kimi qoçaq, igid, şücaətli və mərd olacağam. Bir gün atamla telefon danışığımız olmuşdu. Bizim yanımıza tez-tez gələ bilmədiyi üçün atamdan incimişdim. Telefonda çox dedim ki, birdəfəlik bizim yanımıza gəlsin. O isə mənə səbirli olmağı, səbirlə onu gözləməyimi dedi. Atama dedim: "Ata, mən qorxuram. Qorxuram ki, sən bir də heç vaxt gəlməyəsən". Elə də oldu. Atam bir də heç vaxt gəlməyəcək...

Atamın şərfini aylardır ki, boğazımdan çıxarmıram. Hər axşam onun iyini hiss edirəm. Keçən yay ilk gəlişində mənə öz eynəyini vermişdi. İkinci gəlişində mənə boğazındakı adı soyadı yazılmış boyunbağını, bir də öz hərbi şərfini verdi. Mən uşaq olduğum üçün anlamırdım bu olanları, amma İndi anlayıram.

Atam hər gəlişində mənə öz yadigarlarını verib öz əlləriylə. Onlar mənim ən dəyərli əmanətlərimdi. Atam mənim fəxrimdir. Mən fəxr edirəm ki, belə atam var...



# Bərxudarlı Güllü
## (Şəhid mayor Bərxudarlı Toğrul)

10 yaş

Atamla bağlı xatirələrim yaddaşıma yazıldı. Onunla birgə çəkdirdiyimiz şəkillər də ən əziz yadigarım oldu. O xatirələri bir-birimizə danışıb, gülə bilməyəcəyik heç zaman, amma o xatirələr bizim yaddaşımızdan heç vaxt silinməyəcək.

Atam mənim həyatdakı ilk qəhrəmanımdır. Ən güclü bildiyim, kölgəsində rahatlıq tapdığım, yanında nazlandığım, qürur duyduğum, həm də ən çox darıxdığım insandır. Mən atamın nazlı, küsəyən, dəcəl, şıltaq qızı idim. Tərtərdən evə gələrkən onunla çoxlu söhbətlər edərdik. Gec-gec gördüyümüz üçün birnəfəsə suallar verər, olan-bitənlərdən danışardıq. Gələcək xəyallarımızdan, arzularımızdan danışardıq. Atam yorulub divanda uzananda yanına gedər, başını sığallayardım, sonra bizi qucaqlayıb yatardı.

Hər məni gördüyündə mənim necə böyüdüyümə heyrətlə baxırdı. Bizi parka, gəzməklərə aparırdı hər gəlişində.. Bir sözü var idi, deyirdi: "Az qalıb. Bizim bir yerdə olmağımıza az qalıb..." Tam ailə olacağımız günləri, ayları, illəri sayırdım. Amma daha təqvimin başında qaldı bizim sevincimiz, arzularımız, xəyallarımız... Atamla bağlı o qədər xatirələrim var ki ... Ən yadda qalanı 6 yaşımda olmuşdu.

Atamsız bir ad günü qeyd edəcəkdik. Bir yandan sevincli, bir yandan məyus idim. Hər kəs bizimlə birlikdə ikən, çox sevdiyim atam bizimlə deyildi. Uşaqlarla oyun oynamağa başım qarışmışdı. Arxadan xışıltılı səslər eşitdim. Arxaya dönəndə atamı gördüm. O an çox sevinmişdim. Atam mənə

ən gözəl ad günü sürprizi etmişdi. Atama tərəf qaçıb qucaqladım. Sonrakı ad günlərimdə isə heç zaman tək qoymadı məni. Bu il 10 yaşım olur mənim. Bu il də atamla qeyd edəcəyəm ad günümü. O mənim qəlbimdə əbədi yaşayacaq. Mən bu il bir qəhrəmanın qızı olaraq qeyd edəcəyəm 10 yaşımı. O qəhrəman ki hər kəs tanıdı, mərdliyi, şücaəti, insanlığı və Vətənpərvərliyi ilə iz qoydu. Dillərə dastan oldu mənim atam. Mən isə ona söz verdiyim kimi, həkim olacağam. Atamın adı mənim gücümdur. Fəxr hissi ilə yaşayıb, yaşadacağam onu...





# Ramaldanov Süleyman (Şəhid polkovnik-leytenant Ramaldanov Babək)

8 yaş

Atam çox vaxt məşğul olsa da, çalışardı ki, boş vaxt olan kimi bizimlə birlikdə keçirsin. Atam həmişə bizə tapşırardı ki, yaxşı oxuyaq. Mən də onun dediklərini yerinə yetirməyə çalışıram. O deyirdi ki, gələcək həyatımızda bilik bizə kömək olacaq.

Atam həmişə mənə və qardaşıma çoxlu oyuncaq alardı, bizi sevİndirməyə çalışırdı. O həmişə çətin situasiyalarda mənə kömək edərdi, başa salardı, nəyi necə etmək lazımdır. Çətinlik görəndə deyirdi: "Mənə müraciət et". İndi onun sözlərini yadıma salıram. Atam, şən və yorulmaz bir insan idi.

Həmişə bizi harasa aparardı. Mən əlaçıyam və bilirəm ki, atam mənimlə fəxr edir. Mən fortepiano sinfinə də gedirəm. Mən çalanda atam ürəkdən sevinirdi və hətta təəccüblənirdi ki, mənim oğlum bunu da bacardı.

Atam Moskva şəhərində təhsil alanda biz Yeni il bayramında onun yanına getdik. Çox soyuq havaya baxmayaraq, atamın varlığı bizi isidirdi. Atam ilə biz bir yerdə olmadıqda o bizə zəng vurub dərslərimizi soruşardı. Atam haqqında çox şey yaza bilərəm. Atam istədiyi kimi- həmişə onun adına layiq övlad olacağam.

# Ramaldanov Ramaldan

13 yaş

## (Şəhid polkovnik-leytenant Ramaldanov Babək)

Mən Ramaldanov Ramaldan, şəhid polkovnik-leytenant Babək Ramaldanovun oğluyam. Mən atamı az görsəm də, onunla bağlı xatirələrim çoxdu. O bizi tez-tez gəzməyə apa-rardı.

Mən balaca olanda, atam mənə böyük kimi baxardı. Mənə qarşı çox tələbkar idi. Mən o vaxt başa düşmürdüm, niyə atam məni danlayır. İndi atasız yaşayıram, mənə çətİndi. Amma mən başa düşdüm, niyə o məni danlayırdı. O istəyirdi ki, mən böyüyəndə yaşamaq mənim üçün rahat olsun. Mən səhvlərimi başa düşüm və bir də o səhvi təkrar etməyim.

Biz Naxçıvanda olanda atam dağda idi. Onu o vaxt az gö-rürdüm, amma o mənə zəng vurub halımı soruşardı. O bizə çoxlu oyuncaq alardı, istəyərdi ki, üzümüzdə həmişə təbəs-süm olsun. Artıq məktəbli olanda məndən dərslərimi soru-şurdu. O mənim üçün bir nümunə idi, istər elmdə, istər hə-yatda.

Atam Azərbaycandan yeganə zabit idi ki, Frunze adına Hərbi Akademiyanı qızıl medal ilə bitirmişdi. O, Gəncədə olanda biz iki dəfə yanına getdik. İkinci dəfə gedəndə mü-haribə vaxtı idi. Biz gedəndə o çox sakit idi. Gəncə hadisələri olanda biz orda idik. Atam heç nədən qorxmurdu. Bizə də onu deyirdi. O həmişə deyirdi: "İnsan çox şeyə qadirdi, amma həmişə öz üzərində çalışmalıdır, tənbəl olmamalıdır".

Mən atamı cəmi 13 il gördüm, amma ondan qalan xatirələr, onun sözləri və düşüncələri mənim ömrümüm axırına kimi həmişə bələdçim olacaq.



# Ağalarova Zəhra

7 yaş

## (Şəhid baş çavuş Ağalarov Nahid)

II Qarabağ müharibəsi başlayan gündən, atam mühari-bədə olub, ön cəbhədə düşmən ermənilərlə vuruşub, igid-lik göstərib. Füzulidən Şuşaya kimi qanlı döyüş yolu keçib. Sonda qələbə sevincini də yaşayıb, bu ona da qismət olub. Amma təəssüf ki, sonradan noyabrın 23-də Şuşa yolunda minaya düşərək, şəhid olub...

Atamı çox sevirdim, o da məni dünyalar qədər sevirdi. Evdə qalanda bütün gününü mənimlə keçirərdi. Gəzməyə gedərdik, mənimlə oyun oynayardı, bütün istəklərimi yerinə yetirərdi. O çox mehriban, qayğıkeş ata idi. Həmişə saçımı tumarlayıb məni doyunca öpərdi.

Atamın arzusu idi ki, mən böyüyüb oxuyum, Vətənə la-yiqli övlad olum.

Qanlı müharibə atamı məndən tez aldı, onun arzuları da ömrü kimi yarımçıq qaldı. Onun yoxluğu məni çox üzür, amma mən həm də şəhid Nahid Ağalarovun qızı olduğum-çün böyük qürur hissi keçirirəm.

Atam İndi cənnətdədir, ruhu göylərdən mənə baxır. Onun müqəddəs ruhunu şad etmək üçün arzularını həyata keçirə-cəm, onun istədiyi kimi, adına layiq övlad olacam. Bu yolda Tanrım mənə kömək olsun!

# Əzizli Adəm
## (Şəhid leytenant Əzizov Teymur)

5 yaş

Mənim atama aid olan, çoxlu xatirələrim var. Mən atamı çox istəyirdim, lap çox. Atam da məni çox sevirdi, mənimlə çox yaxşı oynayırdı. Ev günü olanda məni maraqlı yerlərə gəzməyə aparırdı.

Sumqayıtda Nizami kinoteatrına aparmışdı bir dəfə, biz orda atamla bir kinoya baxdıq. Mənim ən sevimli kinom idi o kino, "Sonik" kinosu.

Bir dəfə də atamla mən sürət qatarına minmişdik, həm çox maraqlı idi, həm də gülməli. Atamla nə qədər gülmüşdük.

Atam mənim dostumdur. Mən də onun kimi, böyüyəndə "Super ata" olacam. Biz dənizə də gedirdik, çimirdik, ata məni quma basdırırdı.

Evdə də hərdən müharibə oyunu oynayırdıq, mənə çoxlu hərbi oyuncaqlar almışdı. Onlarla oynayırdıq. Biz atayla hamamda bir yerdə çimirdik, lap iki dost kimi. Çox xoşuma gəlirdi ki, ata məni çimizdirsin, ən qəşəng ata çimizdirirdi məni.

Axşam olanda mən atayla yatırdım. Ata həmişə mənə deyirdi ki, kişilər çoxlu ət yeməlidir ki, güclü olsun. Ata mənlə rus, ingilis dilində danışırdı. Atayla hər şey maraqlı idi.

Mən onsuz çox darıxıram. Mən atamı dünyalar qədər sevirəm. Atam bizim qəhrəmanımız və mələyimizdir, atamın duası həmişə bizimlədi və bizi qoruyur.



# İslamov Aqşın
# İslamiv Sinan
## (Şəhid İslamov Daşqın)

6 yaş

4 yaş

Mən hər zaman atamla fəxr edəcəm. Bilirsiz, mənim atamın böyük ürəyi vardı, lap böyük. Mənə həmişə deyirdi: "Səninçün hər şey edəcəm". İşdən gələndə birinci vaxtını bizə ayırardı, qardaşımla mənə. Deyirdi ki: "Siz mənim gül balalarımsız".

Onun üçün də mən atamı çox istəmişəm. Atam da bizi çox istəyirdi. İndi atamla fəxr edirəm. Anam deyir ki, mənim atam qəhrəman, cəsur atadır. O elə bir edib ki, torpaqlarımız düşməndən qurtarıb. Atam onları öldürüb, qoymayıb ki, ermənilər bizim torpağımızı alsın. Atam bayrağımızı göyə qaldırıb. Allah baba da onu yanına aparıb, yəni göyə. Mənim atam İndi daha göydə yaşayır. Ordan bizi görür. Mən də hər zaman atamla fəxr edəcəm, çünki o bir qəhrəmandı.

Mənim əziz atam, hər dəfə məni gəzməyə aparardı, məni əyləndirərdi. Deyərdi: "Böyüyün, gör sizin üçün nələr edəcəm".

Amma o gedib qəhrəman oldu. Bizi də qəhrəman oğlu elədi. Canım atam, mən atamı çox sevirəm.

Mən də atam kim oğul olmaq istəyirəm. Onun kimi cəsur ürəkli. Böyüyəndə mən də qəhrəman ata olacam, lap atam kimi

## Əliyeva Alina
## (Şəhid Əliyev Denis)

9 yaş

Ata, mən dəqiq bilirəm ki, sən bir mələyə çevrildin.

Mənim üçün atam yay ilə assosiasiya olunur, çünki yayda biz ünsiyyətdə ola bilirdik, oynayırdıq, səyahət edirdik. Atam çayı çox sevirdi. Hər dəfə dağa, meşəyə, yaxud dənizə gedəndə özümüzlə samovar götürərdik. Gözəl çay dəstgahı hazırlayırdıq. Atam odun doğrayır, ocaq qalayırdı və ətrafı ocağın, kömürün və yeni dəmlənmiş çayın ətri bürüyərdi. Dünyada heç nə bu çaydan daha dadlı və atamla keçirdiyim bu səs-küylü, şən günlərdən gözəl deyildi.

Hər dəfə atamı düşünəndə mən bu xoşbəxt yay günlərini, samovar çayını xatırlayıram...

Əziz ata, mən bilirəm ki, sən məni eşidirsən. Mən bilirəm ki, Yer qanunlarına zidd olaraq sən varsan, biz səni görməsək də, səni hiss edirik və hələ də çox sevirik.

Ən yaxşı ata o atadır ki, işinin necə keçməsi və problemlərinin olub- olmamasına baxmayaraq, hər zaman öz övladı üçün zaman ayırır. Mənim atam kimi ...



## Qafarov Pərviz
## Qafarova Gülay
## (Şəhid çavuş Qafarov Elnur)

12 yaş

9 yaş

Mənim qürurum, baş tacım idi atam. Biz Qafarov Pərviz və Qafarova Gülay şəhidlik zirvəsinə ucalmış Qafarov Elnurun övladlarıyıq. Atamı bir gün şəhid olaraq anlatmaq ağlıma gəlməzdi. Onun bütün insani keyfiyyətləri sadalaNmaqla bitməzdi.

Əziz atam, yuxularımıza gəl, yoxluğunu bizə hiss etdirmə. Atam ailəmizin qürurudur, o, çox cəsur və Vətənpərvər idi. O hərbçi idi. O, Aprel döyüşlərindən bəri Vətənin keşiyində dururdu. Atam Vətəninə igid əsgər, anasına gözəl övlad, bizim üçün qayğıkeş ata idi. Atam üçün çox darıxırıq. Düşünürəm ki, o, cənnətdən bizə baxır.

Atamızın şəkilləri ilə rayonumuzun hər yerində rastlaşırıq. Bu bizə həm kədər, həm qürur verir. Böyük ümidlə mən Qafarov Elnurun xxatirəsinin həmişə yaşayacağına inanıram. Atam baş çavuş olaraq quru qoşunlarında Vətəninə can-başla xidmət edirdi.

Atamın hərbçi həmkarları onun cəbhədə düşmənlərin bir çox maşınını hərbi qənimət kimi əldə etməyini, azad olunan torpaqlarımıza ilk qədəm qoyan hərbçi əsgərlərimizdən biri olduğunu deyirdilər. Bu, tarix boyu unudulmayacaq bir qəhrəmanlıqdır.

Ata, sən bizimləsən, səni çox sevirik.

# Baxşəliyev Yunus 12 yaş

## (Şəhid Leytenant Baxşəliyev Natiq)

Mən Baxşəliyev Yunus II Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş leytenant Natiq Baxşəliyevin oğluyam. Atamla bağlı xatirələrimi bölüşmək istəyirəm sizinlə. Müharibə başlayanda- 27.09.2020-ci il tarixində atama çağırış gəldi. Mən bir az narahat oldum, amma atam mənə "Yunus, müharibədən qalsam sənə fərari oğlu deyərlər. Yəqin sən də bunu özünə sığışdırmazsan. Möhkəm ol, evimiz sənə əmanətdi" dedi və getdi. Atamın çox Vətənpərvər olduğu onun əsgərlikdən qalan kitabından mənə məlumdur. Atam mənə əsgərlikdə olan günlərindən danışırdı. O, motoatıcı taborun minaatan batareyasının tağım komandiri - batareyanın baş zabiti idi. Baxmayaraq artıq 10 yaşındaydım məktəbə atam aparar, atam da gətirərdi məni. Hər gün yol boyu müxtəlif hadisələrlə rastlaşırdıq. Hər bir halda da necə vəziyyətdən çıxacağımı öyrədirdi mənə atam. Atamın arzusu məni hərbçi kimi görmək idi. Hətta 5-ci sinifə keçəndə sərhəd qoşunları məktəbinə imtahan da vermişdim. Təəssüf olsun ki, balım çatmadı. Mən atamla fəxr edirəm. Amma çox darıxıram. Şəhidlər ölməz, Vətən bölünməz!



# Quliyev Elnar 13 yaş

## (Şəhid Quliyev Anar)

Mən şəhid Quliyev Anarın böyük oğluyam. Atam mənə heç vaxt öz adım ilə müraciət etməyib. O, həmişə mənə "ata" deyib. Bütün qohumlar məni atama oxşadır.

Atam erməni terroru nəticəsində şəhid olmuşdur. Onun yoxluğu bizim üçün çox çətİndir. Mənim atam ölməyib, şəhidlər ölməz, o bizim ürəyimizdə yaşayır.

Mən həmişə atama layiq övlad olmağa çalışacam. Atam Aprel döyüşlərində mərdcəsinə iştirak edib. Atam bizə Vətəni sevməyi öyrədib. Mən də böyüyəndə əsgər olacam. Atamın və şəhidlərimizin qisasını alacam. Atam bizi öyrədirdi ki, lazım olsa, Vətən üçün Canımızdan keçməliyik.

Mən atamla həmişə fəxr edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Pənahlı Zəhra
## (Şəhid Pənahov Bəhrəm)

9 yaş

Mən, Pənahlı Zəhra Bəhrəm qızı 30 mart 2012-ci ildə anadan olmuşam.

Mən ata haqqında onu demək istəyirəm ki, atam bizə oyuncaq alırdı, hər şey alırdı, gəzməyə aparırdı.

Mənim atam gözəl ata olub, mən onunla həmişə fəxr edəcəm. Heç kəs atam qədər ola bilməz. Mən onunla fəxr etmişəm, həmişə də fəxr edəcəm. Atam bir qəhrəmandır. Torpaqlarımızı azad etdi. Qəhrəmanlar unudulmur. Atam da unudulmayacaq ...



# Xəlilov Həsən
## (Şəhid gizir Xəlilov Namiq)

4 yaş

Mən Namiq Xəlilovun oğluyam, adım da Xəlilov Həsəndir. Mənim atam qəhrəmandır. O, müharibədə qoşunda gizir olub. Atam həm də şəhiddir. O, qəhrəman olduğuna görə mələk olub. Allah babanın yanına gedib. Biz də bacımla, böyüyəndə anamla birlikdə atamın yanına gedəcəyik. Atam orda bizim üçün ev qurur.

Atam həmişə hara getsə, məni də özü ilə aparardı, nə istəsəm, edirdi mənim üçün. Parka gedirdik, maşın sürürdük, atam həmişə mənimlə top oynayardı.

Atam üçün çox darıxıram, amma bilirəm ki, o bizi görür. Mən dostlarıma deyirəm ki, atam ölməyib, şəhid olub.

# Quliyeva Rüqəyya
# Quliyev Hüseynəli
## (Şəhid kapitan Quliyev Vüsal)

9 yaş
8 yaş

Atamız bizim qəhrəmanımız idi. İndi isə bizim yox, bütün Azərbaycanın qəhrəmanıdır. Atamız bizim üçün əvəzolunmayan varlıq idi. O, nə qədər işdən yorğun gəlsə də, evdə dincəlmirdi. Bütün vaxtını bizlə oynamaqla, bizə ayırmaqla keçirərdi. Kaş yenə o günlər olaydı. Kaş ömürdən pay olaydı, atamıza verməyə ...

Atam yoxdur, həyatın mənası da yox kimidir. Sanki atamsız dünya donub! Atam mənim həm də dostum idi. Mən təkcə atamı deyil, həm də ən yaxın dostumu, sirdaşımı itirmişəm.

Bir sözlə desək, atam bizim gülən üzümüz, görən gözlərimiz idi. Atam haqqında danışmaqla bitməz. O bizim ölməz, unudulmaz qəhrəmanımızdır.

Biz həmişə atamızla fəxr etmişik, edəcəyik. Atamın bizimlə olan yarımçıq arzularını həyata keçirməyə çalışacağıq. Bizim Məryəm adlı bacımız da var. Adını atamız özü qoysa da, üzünü görə bilmədi, şəhid olduqdan sonra doğuldu ...

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Atamın və bütün şəhidlərin ruhları qarşısında baş əyirik.



# Hüseynova Damla
## (Şəhid Hüseynov Fərid)

6 yaş

Mənim adım Damla, 6 yaşım var. Atam torpaqlarımızın azadlığı uğrunda gedən müharibədə döyüşmüş, sonra da qəhrəmancasına şəhid olmuşdur. Atamı artıq hamı tanıyır və onun necə bir qəhrəman olduğunu bilir. Deməк, mən artıq bir qəhrəman qızıyam ...

Az müddət də olsa, atamla gözəl günlər keçirmişəm. Biz Bakıda olanda atamla parklara getmişik, çox əyləncəli saatlarımız olub hamımızın birlikdə. Atam işdən gələndə bacımla mən qaçırdıq atamızın qucağına və onu bərk-bərk qucaqlayırdıq.

Hələ də o günlərimiz gözümün qabağındadı. İstərdim, hər zaman atam yanımda olsun. Mən və bacım atamız üçün çox darıxırıq. Amma mənim atam yanımızda olmasa da, hər zaman hamımızın qəlbində yaşayacaq.

Düzdü, bacımın yaşı az olduğu üçün başa düşmür çox şeyləri, o hələ də atamızın erməniləri öldürüb gələcəyini düşünür, əsgərlərimizi görəndə elə bilir atam da onların yanındadır. Ancaq anam mənə danışıb ki: "Atamız gözəl bir yerdədir, cənnətdədir, o bizi görür. Biz də yaxşı insan olmalıyıq ki, atamızın yanına gedək və onu görək".

Mən və bacım atamızla qürur duyuruq. Atacan, sən bizim qəlbimizdə yaşayırsan, səni çox sevirik, bizim qəhrəman atamız!

# Orucov Ehtiram
## (Şəhid çavuş Orucov Elşən)

8 yaş

Mənim atam tankçı idi. Rütbəsi çavuşdu. Mən atamı çox gözəl xatırlayıram, çünki o, böyük ürəyə sahib idi. Mənə verdiyi Ehtiram adı isə öz atasının adı idi.

Mənim babam da I Qarabağ müharibəsində şəhid olmuşdu. Atam istəmirdi ki, özü yaşadığını biz də yaşayaq. Amma deyirdi ki, hər insana şəhidlik qismət olmur. Atamla çox gözəl günlər keçirirdim, indi onun yerini heç kim verə bilməz.

Mənim atam 11 il idi ki, Vətənə qulluq edirdi, çox Vətənpərvər idi. Məni də elə böyüdürdü. Atamın bir arzusu da mənim yaxşı oxumağım idi. Mən atama söz vermişəm, yaxşı oxuyacam, necə ki atam bizim başımızı uca edib, mən də atamın başını uca edəcəm. Atam sentyabrın 27-si Qarabağ döyüşlərinə yollananda bacımı və anamı mənə tapşırdı. Mən də yaxşı oxumalıyam ki, onlara sahib çıxa bilim.

Atam üçün darıxsam da, bunu anama və bacıma demirəm. Atam üçün çox darıxıram, bacım hələ balacadır. Atam bizə göylərdən baxır.



# Oruczadə İbrahim
## (Şəhid polkovnik-leytenant Orucov Nail)

9 yaş

Mən ailənin kiçik oğluyam, 8 yaşım var. Ona görə də atamla ən çox zaman keçirən mən olurdum. Məni gəzdirir, maraqlı əhvalatlar danışırdı. Söz vermişdi ki, bizi dostu şəhid Raquf Orucovun ailəsi ilə tanış edəcək. Şəhidlər Xiyabanına aparacaq, Bakının tarixi yerlərini göstərəcək. Qismət olmadı. Amma bilirəm ki, nə vaxtsa oralara gedəcəm və atamın ruhu mənimlə olacaq.

Son gecəni yanında yatmağımı istədi. Anam deyir ki, bütün gecəni məni öpüb sığallayırdı... Bir neçə gün əvvəl sinif yoldaşımın atası gəldi. O, sevinclə dedi ki: "Atam gəldi!" Mən elə bildim ki, o "atan" deyir. Dedim: "Mənim atam şəhid olub" və kövrəldim atamın yoxluğuna! Həmin gecə atamı yuxuda gördüm. O mənə dedi: "Heç zaman ağlama, mən həmişə sənin yanındayam". Oyananda məndə elə hiss var idi ki, sanki bütün gecəni atamın qucağında yatmışam.

Atamın dəfnini öz gözlərimlə gördüm. Boyum balaca olduğundan kim isə məni çiyninə aldı. İnana bilmirdim ki, bu qədər insan mənim atam üçün yığışıb ...

İndi isə qürurla deyirəm: "Mən şəhid polkovnik-leytenant Nail Orucovun oğluyam". Bilirəm və əminəm ki, atamın ruhu həmişə yanımdadır və məni qoruyur.

# Orucov Ruslan

## (Şəhid polkovnik-leytenant Orucov Nail)

16 yaş

Mən şəhid polkovnik-leytenant Nail Orucovun böyük oğlu Ruslanam. Atamın xatirələri mənə çox əzizdir.

Atamın peşəsi hərbçi olduğundan Azərbaycanın çox bölgələrində olmuşuq. Onun təyinatı dəyişdikdə biz də onunla birgə köçməli olurduq. Ona görə də mən və qardaşlarım təhsilimizi müxtəlif məktəblərdə davam etdirməli olmuşuq. Atam təhsilimizlə hər zaman maraqlanar, bizə dəstək olardı.

2016-cı ildə atam ehtiyata buraxıldı və doğma yurduna - Astaraya qayıtdı. Bu 4 il ərzində atam hər an yanımızda oldu, hər işdə bizi dəstəklədi. Təhsildə uğurlarımız olacağına hər zaman inandı. Müsabiqələrdə qazandığımız zaman atam çox xoşbəxt olardı. Son vaxtlar o gün olmazdı ki, atam bizimlə təhsil, gələcək xəyallarımız haqqında danışmasın. Həmişə peşə seçimimizi öz öhdəmizə buraxırdı. Amma onu bilirəm ki, atamın böyük arzusu məni həkim kimi görmək idi. Hətta bir gün bizə: "Başıma bir iş gəlsə, bu günü görmək nəsib olmasa mənə, diplomunuzu məzarıma gətirərsiz və deyərsiz ki: "Ata, sənə verdiyimiz sözü tutduq". Onda mənim də ruhum şad olar".

Bir gün məktəbdə idim. İngilis dili dərsində qapı döyüldü. Atamın səsini eşitdim: "Mən Orucov Ruslanın valideyniyəm, icazəniz olsa, dərsdə iştirak etmək istəyirəm". Dərsdə atamın iştirakı məni çox həyəcanlandırırdı, ona tərəf tez-tez baxırdım və gördüm ki, atam dərs boyu özü üçün qeydlər aparır. Evə gələndə maraqla kitabçaya baxdım və gördüm



ki, belə yazılıb: "Həyəcanlanır, tələsir, oxuma qabiliyyəti yüksək ola bilər". Atam həmişəki kimi çox diqqətli idi. Çox vaxt deyərdi ki: "Çətini ali məktəbə daxil olmaqdır, ondan sonrası öz axarı ilə gedəcək".

Azyaşlı olmağıma baxmayaraq, atam həmişə bizi həyata hazırlayırdı, möhkəm olmağımızı istəyirdi. Sanki bizi həyatın sınağına tam hazırlaya bilməməyindən qorxurdu. Deyərdi: "İnsanda həm elm, həm də helm olmalıdır". Odur ki, dərsdən əlavə istəyirdi, bizi hərtərəfli inkişaf etdirsin: maşın sürməyi, ustalıq etməyi, bostan əkməyi və s. bacaraq.

Atamın həyatı qısa olsa da, çox şərəfli oldu, ölümü ilə lap uca mərtəbəyə yüksəldi! Mən fəxr edirəm ki, belə mərd, qorxmaz, iradəli, cəsur və mehriban şəxsin övladıyam. Adını həmişə yaşadacağam. Atamın adına, Vətənə layiqli övlad olacağam.

(Şəhid övladının ürəyində saxladığı, heç kimə heç nə deyə bilmədiyi, ancaq gözləri və baxışları ilə ürəkləri yandıran sözləri):

"Anam yenə ağlayır, ona bildirməsəm də, ürəyim yanır. Anama necə deyim ki: "Ay ana, sən həyat yoldaşını itirmisən, mən atamı. Mənim dərdim daha böyükdür, sənin atan sağdır, ana, toyunu da görüb, nəvələri də var ... Bəs mənim atam nə gördü bu dünyada ... Heç nə... Mən 16 yaşındayam, atasız qaldım bu yaşda ...

Bəs axı məktəbi bitirməyimi, ali təhsil almağımı, bunların heç birini görməyəcək atam, ay ana...

Sənin göz yaşlarını ancaq atam şəhid olandan sonra gördüm, ana, həm də hər gün ...

İndi sən mənə de görüm, kimin dərdi böyükdür? Axı mən həm sənin, həm də kiçik qardaşlarımın üzü gülsün deyə, heç vaxt ağlamadım yanınızda ... Amma gecələr ancaq atamla danışıb ağladım, ana ...

Ana, qurban olum, gəl bir daha ağlamayaq, əl-ələ verib atamızı yaşadaq, sən bizə həm ana, həm də atasan axı ...

Şəhidlər ölməzdir, ana! Onlar cismən bu dünyanı tərk ediblər, ruhən əbədiyyətə qovuşublar. Buna ən şərəfli, müqəddəs zirvə deyirlər – Şəhidlik zirvəsi!!!"





# Orucov Əlihəsən

## (Şəhid polkovnik-leytenant Orucov Nail)

14 yaş

Həyat bir səhnədir. Hərə öz rolunu bir şəkildə oynayıb bu səhnədən çəkilir. Atam həyatdan tez köçməli oldu, düzü, bu onun bir arzusu idi. O, həmişə özünə şəhidlik arzulayırdı. Atamın yoxluğu mənə təkbaşına həyatda qərar verməyi öyrətdi. Hər bir ata kimi mənim atam da bizi çox sevirdi.

Atamın bizlə bağlı arzuları çox idi. Təəssüf ki, arzularının bir çox hissəsini görmək ona nəsib olmadı. Ən böyük arzusu da bizi ağıllı, kamallı və Vətənə layiqli bir övlad kimi yetişdirmək idi. Atam hərbçi olduğu üçün biz atam ilə Azərbaycanın bir çox bölgələrində olmuşuq. Atam öz işinə bağlı bir insan idi. Öz vəzifəsini layiqincə yerinə yetirərək polkovnik-leytenant rütbəsinə yüksəlmişdi. Amma atam işi ilə bağlı olaraq bizimlə az vaxt keçirə bilirdi. Çünki səhərlər işinə tez gedir, gecə də işdən gec qayıdırdı.

Boş vaxtlarında bizi həmişə gəzməyə aparardı. Atam 20 il qüsursuz xidmət göstərərək təqaüdə çıxdı və biz doğma Astaramıza qayıtdıq. Atam bizim təhsilimizlə çox maraqlanırdı. Sonradan Tovuz döyüşləri başladı. Atam bu müharibədə komandiri olan Polad Həşimovun və dostlarından biri olan mayor Novruzov Anarın şəhid xəbərini eşidəndə çox pərişan oldu, həm də düşmənə nifrəti bir az da artdı. Sonra işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda II Qarabağ müharibəsi başladı.

Nəhayət, atamın gözlədiyi an gəlib çatdı. Onun telefonuna çağırış mesajı gəldi. Bu zaman onun üzündə sevinc,

təbəssüm yarandı. O, öz anasını, qardaşlarını, bacısını və rəhmətə getmiş qohumlarının məzarlarını ziyarət edib evə qayıtdı. Axşam ailəni toplayıb xeyli söhbət etdi. O bizə dedi: “Mən sizi çox sevirəm, ola bilsin ki, mən öz sevgimi sizə tam göstərə bilməmişəm, bu da mənim peşəmlə bağlı olub. Siz artıq böyük uşaqlarsız. Əsas odur ki, ananıza və özünüzə yaxşı baxın “.

Hiss etdik ki, bu gediş o biri gedişlərə bənzəmir. Bu yolun getməyi var, dönüşü isə olmaya da bilər ...

Səhər saat 6-da atamı yola saldıq. Atamın rəhbərlik etdiyi komanda yalnız könüllülərdən ibarət idi. Əsgərlərinin dediyinə görə, o, onlara yalnız rəhbərlik yox, həm də atalıq edirdi. Müharibədə olanda bizimlə tez-tez əlaqə yaradardı. Hər şeyin yaxşı olduğunu deyərdi. Bizimlə axırıncı danışığı oktyabr ayının 29-da oldu. Sonuncu dəfə mənimlə danışanda söylədi ki: “Evimizin qapısından bayraq asın, qayıdacam”. Sanki ürəyinə dammışdı ki, nəsə baş verəcək. Bütün ailə ilə danışdı.

Atam Cəbrayıl, Zəngilan, Qubadlı uğrunda gedən ağır döyüşlərdə iştirak etdi, oktyabrın 31-də şəhidlik zirvəsinə ucaldı. Mən fəxr edirəm ki, belə bir valideynin övladıyam!



# Allahverdiyev Çingiz 4 yaş

## (Şəhid baş leytenant Allahverdiyev Babək)

Mən Çingizəm, şəhid Allahverdiyev Babəkin oğlu. Mən atamı çox istəyirdim, atam da bizi - qardaşım Bəxtiyarı da, məni də çox istəyirdi.

Biz hər dəfə atamın işdən evə gələcəyini səbirsizliklə gözləyirdik. Atam işdən gələndə lap çox yorğun olurdu, amma yenə bizimlə oynayırdı. Atam ikimizi də eyni oynadırdı ki, biz dalaşmayaq. Mən balacayam, amma başa düşürəm ki, atam bir də evə gəlməyəcək ...

Anam deyir ki, atam şəhid olub. Mən də hər gün anamdan soruşuram: “Ana, atam bir də gəlməyəcək, hə?” Anam da susur, ağlayır.

Mən istəmirəm, anam ağlasın, mən anamı çox istəyirəm. Atam qardaşımla məni “Canavarlarım” deyə çağırırdı. O bizi əsgər kimi böyüdürdü. Mən bilirəm ki, mənim atam qəhrəmandı, mən də böyüyəndə atamla fəxr edəcəm.

# Qasımlı Gülanə
## (Şəhid polkovnik-leytenant Ramiz Qasımov) 14 yaş

Mən Vətən müharibəsi qəhrəmanı, usta dərəcəli pilot polkovnik-leytenant şəhid Ramiz Qasımovun qızıyam. Məndən başqa 1 bacım və 1 qardaşım var.

Mənim 14 yaşım var. Ailədə ilk uşaq mənəm. Atamla bizim çox gözəl xatirələrimiz olub. Bu gün belə o xatirələrlə yaşayıram. Atam şəhid olduğu ilk vaxtlar qəbul edə bilmirdim. Zaman keçdikcə keçirdiyimiz gözəl xatirələrdən güc alaraq qəbullanmağa başladım, çünki mənim atam şəhiddir. Şəhidlər isə ölməz.

Bu gün belə inanıram ki, atamın ruhu daim bizimlədir və bizimlə də olacaq. Atam hər zaman bizə məsləhət verərkən, hər şeyin elmi izahının olduğunu vurğulayardı. İstəyərdi ki, hər zaman nitqimiz belə savadlı olsun. Bir işi yerinə yetirərkən dəqiq olmağımızı istəyərdi. Atam hər bir işi dəqiqliklə yerinə yetirməmizi tələb edirdi.

O, bizə nizam-intizamlı, məsuliyyətli olmağı öyrədirdi. Bizi Vətənpərvər ruhda böyüdürdü. Atamın qəhrəmancasına şəhid olması Vətənpərvərliyinin bir sübutudur. Atamın helikopteri vurularkən özünü xilas etmək şansı yüksək olub. Ancaq atam əvvəlcə heyət üzvlərini və kənd sakinlərini düşünərək helikopteri gec tərk edib. Düşünürəm ki, atam helikopteri vaxtında tərk etsə idi, bu gün bizimlə ola bilərdi. Amma o özünü deyil, kənd sakinlərini düşündü. Atamın göstərdiyi bu şücaətlərlə fəxr edirik.

Atam hər zaman peşə seçməmizdə bizə dəstəkçi olub.



Mənim rəsmçəkmə bacarığım olduğundan gələcəkdə memar olmaq arzumda məni çox dəstəkləyərdi. Rəsm ləvazimatlarım tükənmədiyi halda belə, mənə tez-tez rəsm ləvazimatları alırdı.

Bacım Gülayın riyaziyyat fənninə böyük marağı olduğuna görə, atam bacımı bir riyaziyyatçı kimi görmək istəyirdi. Və hər zaman vurğulayırdı ki: “Riyaziyyat dəqiqlik, dəqiqlik riyaziyyat deməkdir”.

Qardaşım Vaqifi isə vətənpərvər ruhu ilə böyütdüyünə görə istəyirdi ki, öz şərəfli yolunu davam etdirsin. Hətta Vaqifə silahların təlimatlarından danışırdı. Vaqifin 6 yaşı olmasına baxmayaraq, silahlar haqqında geniş məlumatı var.

Biz atamızla fəxr edirik. Atamın ruhunu şad etmək üçün onun arzularını hər zaman yerinə yetirməyə çalışırıq və çalışacağıq.

Atamın həyatdakı devizi “Düzgün mövqe tutmaq, layiqli Vətəndaş olmaq” idi. Biz də çalışırıq ki, atamın bizə örnək bildiyi bu düzgün yolla daim irəliləyək.

Allah Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin. Vətən sağ olsun!”

# Mahmudov Hüseyn
## (Şəhid kapitan Mahmudov Emin)

4 yaş

(Anasının dedikləri) Mahmudov Huseyn Emin oğlu, 4 yaşı var, atası uzaqda olduğu üçün ona daim hər şey alıb göndərdiyini demişəm.

Atasi şəhid olandan dediyi söz budur: "Mən böyüyüb Emin olacam, onun paltarlarını geyinəcəm".

Atası ona həmişə deyirdi ki: "Hüseyn, sən böyüyüb oxuyub, ağıllı olub, mənim kimi əsgər olacaqsan, bizi qoruyacaqsan. Sənə maşın alacam, sən də sürəcəksən. Amma sən ağıllı olmalısan, ata-ananın sözünə baxmalısan".

Atası onu tez- tez iş yerinə aparıb öz masasının arxasında oturdurdu. Əsgərlərinə də deyirdi ki: "Hüseyn gələcəyin zabitidir".

Ataları bacısı İncini də, Hüseyni də çox sevirdi. Onlara "gözümün işığı" deyirdi. Döyüş yoldaşlarına uşaqlarından danışırmış, hər işdən gələndə uşaqların onun qabağına necə qaçdıqlarından bəhs edirmiş.

İndi Hüseyn deyir ki: "Böyüyəndə atam olacam, onun geyimlərini geyinəcəm. Anam deyir ki, atam uzaqdadır, gələ bilmir, amma bizi görür ..."



# Qasımov Cəsur
## (Şəhid gizir Qasımov İsmayıl)

11 yaş

Mən Qasımov Cəsur, Vətən müharibəsinin qəhrəmanı İsmayıl Qasımovun oğluyam. 5-ci sinifdə oxuyuram. Atamla gözəl və unudulmaz xatirələrim var. Mən ailəmizin tək övladıyam, amma buna baxmayaraq, heç vaxt özümü tək hiss etmirdim. Bizim kiçik və sevimli ailəmiz var idi.

Hər bir oğlan uşağı üçün atası onun qürur mənbəyidir. Atam çox mehriban və istiqanlı idi. Atamın ağır iş həyatı olmasına baxmayaraq, işdən evə gələndə, məni qucaqlayıb öpəndə hər zaman deyərdi ki: "Bütün yorğunluğumu ailəmin yanında unuduram".

Axşamlar bizi parka, uşaq əyləncə mərkəzlərinə aparırdı. Yay tətillərində həyətdə dostlarımla oynayarkən öz xatirələrimizi bölüşürdük. Onlar tətildə kəndlərinə getdiklərini bildirirdilər. Mən bir dəfə atamdan soruşdum ki : "Biz niyə kəndə getmirik?" Atam Füzuli rayonundan idi. Mənim sualıma belə cavab verdi: "Oğul balam, bizim kəndimizi erməni təcavüzkarları zəbt ediblər, sən heç üzülmə, bir gün olacaq, biz də o torpaqlara geri qayıdacağıq. Səni də kəndimizə aparacağam".

II Qarabağ müharibəsi başlayanda mənim atam sentyabr ayında hərbiyə yollandı. Evdə hamı ilə görüşdü, ən sonda mənimlə görüşəndə mənə bu sözləri dedi: "Bax sənə söz vermişdim ki, kəndimizi yağı düşmənlərdən azad edəcəyik, zamanı gəldi. Mən gedirəm, evimiz və ailəmiz sənə əmanətdir. Adın kimi özün də cəsur ol".

Atam müharibədə olarkən onunla telefonla danışırdım. Hər dəfə də deyirdi ki: "Biz qalib ordunun əsgərləriyik, sən narahat olma, kəndimizi düşmənlərdən azad edəcəyik. Səninlə birgə kəndimizə gedəcəyik. Sən atana inan və bir gün gələcək, atanla fəxr edəcəksən".

Şükürlər olsun ki, Vətənimizin mərd övladları sayəsində torpaqlarımızı düşməndən azad etdik. Amma mənim atam Füzuli uğrunda gedən döyüşlərdə şəhid oldu.

Mən atamla fəxr edirəm. Onun kimi igid ataların sayəsində torpaqlarımız azad olundu. Dostlarım kimi mən də kəndimizə gedəcəm, amma atamsız, hər zaman onun yolunu gözləyəcəm!!!



# Ağalıyev Fərid

## (Şəhid Ağalıyev Müzəffər)

13 yaş

Atamla xatirələrim

Atam mənim qəhrəmanımdır!

Atamla xatirələrim elə də çox deyil, çünki atam 17 ild\, hərbi qulluqçu işləyib. O həmişə Vətənin keşiyində durub. Atam çox zəhmətkeş, qayğıkeş, mehriban, gülərüz, ailəsinə həmişə bağlı biri olub. Vətənini çox sevərdi, həmişə döyüşlərə gedəndə deyərdi: "Oğlum, evin böyüyü sənsən". Düzdü, yaşım az idi deyə o sözün mahiyyətini anlamırdım, ona görə də cavab vermirdim. Amma bu dəfə döyüşə gedəndə yenə həmin sözü dedi mənə, onda mən də cavab verərək dedim: "Canım atam, narahat olma, sən necə Vətənini sevib qoruyacaqsan, mən də ailəmizi qoruyacam". Alnımdan öpüb getdi.

Oktyabrın 23-də eşitdik ki, atam şəhid olub. Düzdü, bizimçün çox ağır itkidir, amma həm də şərəfli ölümdür. Bir də atamla olan xatirələrimdən birini yazıram.

Bu anlar heç vaxt yadımdan çıxmaz. Keçən il iyulun 15-də ad günüm idi. Atam işiylə bağlı heç vaxt ad günümdə ola bilməyib. Zəng vurub təbrik edərdi. Bu dəfə də zəng vurub təbrik etdi. Amma ağlıma gəlməzdi ki, gələr. Birdən qapı döyüldü, atam içəri girdi. Əlində də iri bir tort, çox sevİndim, həm də lap çox.

Atamı başa düşürdük, işi çətin idi deyə ondan çox şey tələb etmirdik. Bu ad günüm atamla mənim xatirəm oldu, sonra oturduq, yedik, söhbətləşdik.

Bütün ailələrin övladlarına bir sözüm var: "Həmişə valideynlərinizin qədrini bilin!" İndi bizim yanımızda anam var, odur bizim dərdimizə yanan. Düzdü, dayım, xalam, nənəm, babam, bizləri tək qoymurlar. Amma anam bizim əziyyətinizi çox çəkir.

Mənim 13 yaşım olsa da, anamın bizə necə qayğıyla, təmkinlə yanaşdığını görürük: qardaşım da, mən də. Allah anamızı bizə çox görməsin, çox pis oluram, hər dəfə anama bu sözləri deyəndə.

Amma atamla fəxr edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Amin.





# Məmmədova Ayan

## (Şəhid leytenant Məmmədov Elcan)

8 yaş

Atamın dediyi kimi desəm, mən onun "prinsessa"sıyam.

Mənim atam əvəzolunmazdı. Atamla çox xoşbəxt idik. Atam işdən yorğun gəlirdi, lakin bizimlə oynayırdı, hər zaman bizim üzümüzü güldürürdü. Nə istəyirdim, atam alıb gətirirdi bizim üçün. Bəzən elə olurdu ki, istədiyimiz şeyi heç ataya demirdik, axşam işdən gələndə baxırdıq ki, qaqamla mənim istədiyimizi atam alıb gətirib.

Deyirdik: "Ata, sən nə bildin, biz bunları istəyirik?" Cavabı belə olurdu: "Siz mənim ürəyimsiz, mən hiss edirəm ki, siz nə istəyirsiz".

Atam bizi hər zaman gözəl yerlərə aparardı. Balıq tutmağa da gedirdik. Mən balıq tuta bilmirdim, atam pulla balıq alıb, mənim qabımın içinə atırdı, deyirdi: "Qızım balıq tutdu". Mən çox sevinirdim. Qaqamla mən atam üçün çox darıxırıq. Biz hər gecə atama: "Gecən xeyrə qalsın, yuxun şirin olsun, atacan, yuxuma gəl", deyirik. Hər gecə atamın şəkli ilə yatırıq.

Qaqam anama deyir: "Ana, and iç ki, atamı yanımızdan götürməyəcəksən, biz yatdıqdan sonra". Anam deyir: "Oğlum, şəkil qırılar, sizi incidər". Qaqam da: "O şəkil deyil, atamdı, deyir, atam heç vaxt bizi incitməz".

Mən bir gecə atamı yuxuda gördüm. Yuxudan oyananda ağladım. Anam dedi: "Niyə ağlayırsan?" Dedim: "Atamı gördüm yuxuda". Anam dedi ki: "Atanı görmüsən də yuxuda, niyə ağlayırsan ki, ağlama". Mən də anama dedim: "Ana,

atam İndi yanımda yoxdu axı". Anam da ağladı, məni qucaqladı.

Mən və qaqa dərslərimizi yaxşı oxuyub, atamıza layiq övlad olacağıq. Mən həkim olacam, qaqam polis. Allah qoysa. Qaqam deyir ki: "Atamın arzusudu, mən polis olum. Ona görə də oxuyub atamın arzusunu yerinə yetirəcəm".

Atamızın adı ucadı. Biz də hər zaman onun adını uca tutacağıq. Biz fəxr edirik ki, şəhid leytenant Məmmədov Elcanın qızı və oğluyuq. Biz həmişə atamızla fəxr etmişik. Bizdən soruşulanda: "Kimin övladısan?" Fəxrlə deyirik: "Elcanın qızıyam, - və ya, - oğluyam". Bu gün də atamızla fəxr edirik. Biz atamızı çox sevirik. Atam cismən olmasa da, ruhən hər zaman bizimlədi, ürəyim atam. Sən də bizimlə fəxr edəcəksən.



## Yusifzadə Fatimə (Şəhid baş gizir Yusifov Mehman) 10 yaş

Atam məni çox istəyirdi. Mən də atamı çox sevirəm. Biz atamla gözəl vaxt keçirərdik. Bizi marketə aparardı, nə istəsək, alardı. Parka aparardı ...

Mənim atam İndi şəhiddir. Mən bilirəm ki, İndi əvvəlkindən daha ağıllı olmalıyam və özümü şəhid qızı kimi aparmalıyam. Mən atama söz verdiyim kimi həkim olacağam, verdiyim sözü tutacağam, əvvəlkindən daha çox çalışacağam, daha çox oxuyacağam. Biz atamla çay içməyə gedərdik. Atamla hər şey elə maraqlı keçirdi ki, o heç vaxt bizim xətrimizə dəymirdi. Heç kim atam kimi mehriban ola bilməz ...

Biz atamla hər yay dənizə gedirdik. Atamın ad günü yaydadır. Keçən il dedim ki, atamın ad gününü keçirək, çünki hər dəfə atamın yaşında biz kənddə olurduq. Təkcə onda şəhərdə idik. Amma atam gəlmədi, işdə qaldı. Gələ bilmədi, amma zəng etdi, telefonda təbrik elədik atamı. Atam axırıncı dəfə evə sentyabrın 24-ü gəldi, birgecəlik. Sonuncu dəfə atamı onda gördük ... Sonra müharibəyə getdi. Bir dəfə zəng edəndə mən cavab verdim. Mən də danışdım, qardaşlarım da danışdı. Sonra oktyabrın 3-də axşam atamla sonuncu dəfə danışdıq, zəng etmişdi. Sonra danışa bilmədik, bir də heç danışa bilmədik atamla.

Oktyabrın 6-da gecə saat 4-də anama zəng gəldi. Anamın səsinə oyandıq. Qışqırıb ağlayırdı. Məhəmməd başa düşmədi, amma mən başa düşdüm. Bildim ki, o pis xəbər

gəlib, atamın şəhid olması xəbəri ... Bizi qonşu gəlib apardı. Bir neçə saat orda qaldıq. Sonra isə anamla kəndə getdik. Kənddə nənəmgilə getdik. Çox adam elə bilirdi ki, mən atamın şəhid olduğunu bilmirəm. Məndən soruşurdular: "Fatimə, atan haradadı?" Mənsə deyirdim: "Deməyəcəm". Mən hər şeyi bilirdim, sadəcə, bunu heç kimə demək istəmirdim.

Amma mən bilirəm ki, atam bizi görür, eşidir, təəssüf ki, biz onu görə, eşidə bilmirik. Nə olsun, bu mənim atamı nə qədər çox istədiyimi dəyişdirmir. Mən atamı həmişəki qədər çox və möhkəm sevirəm. Bilirəm ki, o həmişə mənim yanımdadır. O bizim nə etdiyimizi, necə dərs oxuduğumuzu görür.

Mən "Ağcaqız və yeddi cırtdan" nağılını oxuyanda ordan yadımda qalmışdı: Ağcaqız həmişə axşam düşəndə ulduzlara baxırdı. Yeddi cırtdandan biri ondan soruşdu ki: "Sən niyə ulduzlara baxırsan?" Ağca isə deyirdi: "Anam mənə deyib ki, bu dünyadan gedən hamı ulduz olur".

İndi mən də hər axşam ulduzlara baxıram. Atamın ordan məni gördüyünü bilirəm ... Mən atamı çox sevirəm, çünki bilirəm ki, mənim atam təkcə mənim yox, bütün Azərbaycanın QƏHRƏMANIDIR.



## Salam, Göy Adamı, Zəfər Adamı

Biz bir ölərik, min doğularıq. Bu yurdun başı üzərində mələklər kimi uçanlarımızın bu dünyadan izləri silinməz. Hər axşam qapısına gələcəkləri, xəyalının qonağı olacaqları biri mütləq olar. Hər savaş sonrası şəhadətə yüksələnin ardınca qatar-qatar dualarımız qanadlanar, hər şəhid ruhuna qəlbimizin ən mübhəm arzuları tapşırılar. Pıçıltılarımızı bir özümüz eşidərik, bir də başımız üzərində qanad çalan pak və müqəddəs ruh sahibləri - ŞƏHİDLƏRİMİZ. Onların soyunu yaşadar Yaradan. Onların izini silinməz edər. Xatirəsi ulduzlardan enən balalar doğular, körpələr çiçəkləyər ruhu pak və təmiz şəhidlərimizin ocağında.

İllər ötər, bu zəfər sonrası doğulan hər bir şəhid övladı bir şəhidin ruhuna Yaradanın ən əziz töhfəsi olar. Onlar Qəhrəman atalarını Göy Adamı kimi xatırlayarlar. Zəfər Adamı kimi. Onların yaddaşında da yalnızca bir NUR qalar. Tərtəmiz. Səhvsiz və qüsursuz. Günahı və səhvi ilə xatırlanmayan, sevinci və sevgisi ilə yada düşməyən. Yalnızca işığı ilə yaddaşlarda yaşayan ATA. O uşaqlar yazmağa xatirə tapmadıqlarında məyus olmazlar. O uşaqlar "Mənim atam İŞIQ idi, NUR idi" deyərlər. Elə həmin işığın açdığı cığırla da irəliləyərlər ömrün enişli-yoxuşlu yollarında. Büdrədiklərində o İşıq qaldırar onları, düşdüklərində o İşıq. Sevgi əllə tutulmaz ki. Eşq elə bir mücərrədlikdir ki, əsrlərdir, tərifi verilməyib. Yaradan o ilahi eşqlə ovudar onları - Atalarından geriyə yalnız bir ovuc NUR qalanları. Onlar yoruldaqda və darıxdıqda, uzun yolların başlanğıcında azca səndələdikdə, bəzən kə-

dərə boyun əydikdə, bəzən dərdə zəiflik göstərdikdə - bircə an başlarını dərin və nəhayətsiz səmalara doğru qaldırar və o səmalardan bir səs yayılar, dalğa-dalğa enər yurdun üstünə. O səs deyər ki: "Mən şəhid oldum ki, sən bu dünyada qürrələnməyə, şərəf və ləyaqətlə yaşamağa güc tapasan, övlad! Mən şəhid oldum ki, tapdaq altında inləyən yurdların acısı canına hopmasın, ruhunu incitməsin. Mən şəhid oldum ki, sən bu yurdun hər qarışında Azadlığın dadını duyasan. Yetməzmi bütün bunlar?! Yetməzmi, oğul! Sonra havalanan o səs insan ruhunun ən müqəddəs nəğməsinə çevrilər, axar bu yurdun canına, qətrə-qətrə hopar torpağına-daşına, çiçəklərin ləçəyindən süzülər, süzülər... Və zəfərdən sonra doğulmuşların ağappaq xatirələrinə əbədi bir çiçək ətri hopar. Cənnət çiçəklərinin ətri. Şəhid ataların xeyir-duası olar bu. Zəfərdən sonra doğulanların ağappaq xatirələrində...

Fatimə, Əli, Şahin, Ayaz, Taryel, Yağmur, İlknur, Anay, İbrahim, Sarvanə... Onlarla körpə... Zəfər havası ilə dolu yurdda doğulanlarım. Bu dünyaya qəhrəman övladı kimi gələnlərim... Rəbbin işığından boylananlarım. Sizin xatirələriniz Göyüzündə yazılır. Göyqurşağının minbir çaları ilə, körpələr...

**Sevinc Nuruqızı**
Yazıçı, Azərbaycan Yazıçılar Birliyinin üzvü,
"Qızıl Kəlmə" mükafatı laureatı.



# Qeyd

gidcsrconsulting

gidcsr

gidcsrconsulting

office@gidconsulting.az

www.gidconsulting.az

Müəllif hüquqları
GİD CSR Consulting şirkəti
tərəfindən qorunur



125406
00000000280557